Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Dövlət Universiteti Hüquq Fakültəsi

Hüseynova Fatimə Etibar qızı, hüquq üzrə fəlsəfə doktoru, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti.

.

BEYNƏLXALQ TİBB HÜQUQU

HAQQINDA ÜMUMİ MÜDDƏALAR

MONOQRAFİYA

Bakı Dövlət Universiteti Hüquq fakültəsi Elmi Şurasının qərarı əsasında (protokol № 04, 26.12.2022-ci il) çapa tövsiyə olunmuşdur.

……nəşriyyat-poliqrafiya müəssisəsi

Bakı – 2023

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin 95 illiyinə həsr olunur

Baş redaktor: **- Əliyev Z.H.,** Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru.

Elmi redaktor: **- Əliyev Ə.İ.,** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru.

Məsul redaktor: **-Əliyev E.Ə.,** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq üzrə elmlər doktoru.

Rəyçilər: **- Məmmədov V.Q.,** Dünya Tibbi Hüquq Assosiasiyasının birinci vitse-prezidenti, Azərbaycan Tibb Universiteti "Məhkəmə təbabəti" kafedrasının professoru, tibb üzrə elmlər doktoru, hüquq üzrə elmlər doktoru;

- Məmmədov R.F., Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

-Hüseynov T.İ., Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti, hüquq üzrə elmlər doktoru;

- Məmmədov Ə.Q., Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

H (85) 2023 Hüseynova Fatimə Etibar qızı. Beynəlxalq tibb hüququ haqqında ümumi müddəalar. Monoqrafiya. Bakı: "Zərdabi-Nəşr" MMC, 2023, 352 səh.

Azərbaycan Respublikası beynəlxalq hüquq doktrinasında, ilk dəfə olaraq, yazılmış bu monoqrafiyada beynəlxalq tibb hüququ haqqında ümumi müddəalarla bağlı məsələlərin əhatəli şəkildə işıqlandırılmasına təşəbbüs göstərilir. Burada beynəlxalq tibb hüququna, onun institutlarına anlayış verilir, ayrı-ayrı tibbi fəaliyyət istiqamətləri üzrə beynəlxalq münasibətlərin və əlaqələrin hüquqi tənzimlənməsinin xüsusiyyətləri şərh edilir.

Səhiyyə və tibb fəaliyyəti sahəsində ən yeni qanunvericilik aktları və çoxsaylı elmi mənbələr əsasında hazırlanmış bu fundamental əsər Azərbaycanda beynəlxalq tibb hüquq elmində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir. Müasir dövrdə səhiyyə, təbabət və tibb sferasında baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin bu istiqamətdə maariflənməsi, cəmiyyətdə hüquqi düşüncə və tibb mədəniyyətinin formalaşması baxımından, monoqrafiya mühüm əhəmiyyətə malikdir.

Əsərdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, tibb hüquq elmi sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilərlər.

İSBN.....

© F.E.Hüseynova, 2023.

ÖN SÖZ

Dünyada baş verən qloballaşma və sosial-iqtisadi transformasiyalar şəraitində beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi olan müstəqil və suveren Azərbaycan Respublikasında tibb fəaliyyəti ilə bağlı ictimai münasibətlərin günbəgün inkişaf edərək beynəlmiləlləşməsi tendensiyası müşahidə edilir. Müasir süni intellekt dövründə beynəlxalq sosial-iqtisadi münasibətlər sisteminin mühüm komponenti olan insanların sağlamlığının qorunması üzrə fəaliyyət ictimai-sosial hadisə kimi hər bir ölkənin milli infrastrukturunda xüsusi yer tutur.

Qeyd etmək lazımdır ki, ölkənin hərtərəfli tərəqqisi üçün tibb sahəsinin inkişafı olduqca önəmli faktorlardan biridir. Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş, bir sıra qlobal layihələr gerçəkləşərək, ənənəvi sosial-iqtisadi və idarəetmə mexanizmlərində ciddi dəyişikliklər baş verməklə ölkədə yeni infrastruktur sahələri yaranmış, beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi və səhiyyə-tibb sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Xüsusilə, qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyasında müxtəlif mülkiyyət formalarının tanınması (maddə 13), insan hüquq və azadlıqlarının müdafiəsi (maddə 26), əqli mülkiyyət hüququnun mühafizəsi (maddə 30), sağlam ətraf mühitdə yaşamaq hüququ (maddə 39), sağlamlığın qorunması hüququ (maddə 41), azad sahibkarlıq hüququ (maddə 59) və s. barədə müvafiq normalar təsbit olunmuşdur. Belə ki, hər kəsin konstitusion hüquqları vardır və belə hüquqlar qanunla qorunur.

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda tibb sahəsinin inkişafı, onun cəmiyyət və dövlət üçün əhəmiyyəti, gələcək perspektivləri barədə öz fikirlərini belə ifadə etmişdir: “Tibbin insan cəmiyyəti ilə yaşıd olan bir tarixi var...

Azərbaycan XX əsrdə tibb elminin sürətli inkişafı, çoxprofilli səhiyyə şəbəkəsinin yaradılıb genişləndirilməsi və tibb işçilərinin hazırlanması sahələrində böyük nailiyyətlər qazanmışdır. Hazırda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycanın çoxsaylı tibb işçiləri ordusu var. Respublikanın sosial inkişafında onun xidmətləri təqdirəlayiqdir"; "Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir"; "Həkim üçün....ən əsas keyfiyyət yüksək mənəviyyatdır".

Ötən əsrin sonlarında Azərbaycan Respublikası müstəqil dövlət kimi Ümumdünya Səhiyyə Təşkilatına üzv qəbul olunmuşdur (1992-ci il) və həmin təşkilatın ölkəmizdə ofisi fəaliyyət göstərir. Bununla da, Azərbaycanda səhiyyə sahəsinin yeni bir dövrü başladı. Artıq Azərbaycan beynəlxalq səhiyyə münasibətlərində müstəqil bir dövlət kimi iştirak edərək, öz tibbi potensialını tam nümayiş etdirmək imkanı əldə etdi. Bu mənada, ölkə ərazisində əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətini həyata keçirən əsas icra orqanı kimi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi yenidən təşkil olundu (1998-ci il). Həmçinin ümummilli lider Heydər Əliyevin imzaladığı 04.06.2001-ci il tarixli 733 nömrəli Sərəncam əsasında hər il iyunun 17-i "Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü" kimi qeyd edilir. Onu da xatırlamaq yerinə düşər ki, yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı aparılan mübarizədə, həmçinin Birinci Qarabağ və Vətən müharibəsi dövründə də tibb işçiləri təcrübə və peşəkarlıqları, özlərinin ən üstün şəxsi keyfiyyətləri və qətiyyətləri ilə yaxından iştirak ediblər.

Xüsusilə, qeyd edilməlidir ki, Azərbaycan Respublikası səhiyyə sahəsində qarşıda duran mühüm vəzifələrin həyata keçirilməsi üçün ölkənin müxtəlif dövlət və ictimai qurumları ilə, habelə dünyanın ayrı-ayrı dövlətləri, beynəlxalq tibb təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri yarada bilmişdir. Məhz ulu öndər Heydər Əliyev tərəfindən bu sahədə hüquqi tənzimləməni təmin edən silsilə sənədlər seriyası imzalanmışdır.

Müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi, sosial-iqtisadi və hərbi vətənpərvərlik kursunu dövrün tələblərinə uyğun yeni proqmatik çalarlarla zənginləşdirərək uğurla və düşünülmüş addımlarla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Cənab Prezidentin ifadə etdiyi belə bir tezis olduqca maraqlıdır ki, "İnsanların sağlamlığı bizim üçün əsas məsələdir. Azərbaycanda keyfiyyətli, səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar vardır və dövlət öz tərəfindən bu sahəyə böyük investisiyalar qoymaqla bu vacib missiyanı yerinə yetirir"; "Azərbaycanın artan iqtisadi inkişafı, iqtisadi potensialı imkan verir ki, sosial sahəyə diqqət daha da böyük olsun. Əlbəttə ki, sosial sahənin əsas istiqaməti insanların sağlamlığıdır".

Danılmaz həqiqətdir ki, inkişaf dinamikasına görə dünya dövlətləri arasında liderlər sırasında yer alan və səhiyyə sahəsində mövqeyini daim möhkəmləndirməkdə olan Azərbaycan regionda həyata keçirilən transmilli layihələrin əsas təkanvericisi hesab olunur. Müasir dövrdə yaradılmış koordinasiya nəticəsində Azərbaycan beynəlxalq aləmdə tibb sahəsində çox böyük uğurlara imza atmışdır. İlk növbədə, qeyd etməliyik ki, tibbi fəaliyyətlə məşğul olmaq üçün ölkədə münbit şərait yaradılmışdır. Belə ki, Azərbaycanın bölgələrində möasir standartlara uyğun tibbi müalicə kompleksləri istifadəyə verilmişdir, paytaxtda isə ən müasir tibbi infrastruktur obyektləri fəaliyyət göstərir. Əlbəttə, həm dövlət sektorunda, həm də özəl sektorda yaradılmış 700-dən çox klinika, modul tipli xəstəxana və digər tibbi reabilitasiya müəssisələri, xüsusilə, önəmlidir. Son dövrlərdə Azərbaycan səhiyyə sahəsində keçirilən beynəlxalq tədbirlərdə fəal iştirak etməklə, tibb mütəxəssisləri zəruri praktik təcrübə və yüksək tibbi biliklərə nail olmuşlar. Təsadüfi deyil ki, ölkəmizdə hər il nüfuzlu beynəlxalq tibb tədbirləri, konfranslar, sərgi, festifal və forumlar keçirilir və Azərbaycan belə tədbirlərə evsahibliyi edir: məsələn, "Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək" Tvininq layihəsi çərçivəsində Beynəlxalq Konfrans (2018-ci il), Beynəlxalq Tibb İnnovasiyaları Sərgisi "Medinex" (2019-cu il); "Beynəlxalq Tibb Bacısı Günü"nə həsr olunmuş Tədbir, həmçinin BMT-nin Uşaq Fondunun (UNİCEF)

Azərbaycandakı nümayəndəliyi və Avropa İttifaqının dəstəyi ilə yaradılmış Resurs Mərkəzinin açılışı (2022-ci il); "I Beynəlxalq Pediatriya, Uşaq cərrahiyyəsi və Tibb bacıları Konqresi" (2022-ci il); "Süni İntellekt əsrində Tibb Hüququ" adlı Beynəlxalq Konfrans (2022-ci il) və s.

Səhiyyə və tibb sferasında idarəetmənin hüquqi cəhətdən optimal tənzimlənməsində və tibbi xidmət coğrafiyasının genişləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış sənədlər toplusu mühüm əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, səhiyyə və tibb sahəsi hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Bu gün Azərbaycanda müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf və beynəlxalq səhiyyə sisteminə inteqrasiya tibbi xidmət infrastrukturunun təkmilləşdirilməsini, onun maddi-texniki bazasının modernləşdirilməsini, bütün istiqamətlərdə tibb işinin beynəlxalq standartlara tam uyğun aparılmasını, bütövlükdə səhiyyə idarəetmə sisteminin ölkənin sosial-iqtisadi inkişafındakı rolunun daha da artırılmasını zəruri edir. Bunu nəzərə alaraq, Heydər Əliyev Fondu səhiyyə sahəsinin inkişafını öz fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir və tibbi fəaliyyət sferasına aid proqram və layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, İSESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva tərəfindən ölkədə səhiyyənin inkişafına, gənc tibb kadrları nəslinin formalaşmasına göstərilən diqqət və qayğı, eləcə də verilən real töhfələr təqdirəlayiqdir. Göstərilən fundamental amilləri və tibb fəaliyyəti sferasında ictimai münasibətlərin pozitiv inkişaf meyillərini diqqətə çəkərək, bu kontekstdə beynəlxalq tibb hüquq elmi sahəsinin müasir meyar və standartlar çərçivəsində tədqiq olunmasına zərurət yaranmışdır. Azərbaycan Respublikasında, ilk dəfə olaraq, hazırlanmış və hüquq ictimaiyyətinə təqdim edilən bu əsər məhz beynəlxalq tibb hüququnun ömumi möddəalarına həsr edilmişdir. Ölkə daxilində tibb fəaliyyəti ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir. Bu kimi hüquq normalarının məcmu halında birləşməsi tibb hüququ adlanır

və o, Azərbaycan Respublikasının hüquq və insan haqları sistemində yarımsahə statusuna malik olan tərkib hissə kimi formalaşma mərhələsindədir.

Əgər tibb fəaliyyəti sahəsində yaranan ictimai münasibətlər dövlət sərhədlərindən kənara çıxarsa, belə münasibətlər öz xarakterinə görə beynəlxalq-hüquqi forma alır və beynəlxalq tibb hüququ ilə tənzimlənir.

Məhz bu səbəbdən oxucu auditoriyası tibb hüququ barədə zəruri biliklərə yiyələnməli, onun ibarət olduğu ayrı-ayrı hüquq normaları haqqında elmi təsəvvürlərə malik olmalıdır. Zəruri biliklərə yiyələnmək və elmi təsəvvürlərə malik olmaq isə, yalnız tibb hüquq elminin vasitəsi və köməyi ilə mümkün ola bilər ki, sözügedən əsər həmin məqsədə xidmət edir. Belə bir monoqrafiyanın yazılması və nəşr edilməsi, hesab edirik ki, müasir dövrdə Azərbaycan Respublikasının beynəlxalq səhiyyə və tibb əlaqələrinə inteqrasiyası şəraitində olduqca aktualdır.

Oxucu-tələbə auditoriyasına təqdim olunan bu əsər oxucuları həm də tibb hüquq elmi (tibb hüquq doktrinası) haqqında lazımi biliklərlə təmin edir. Tibb hüquq elmi ictimai həyatda yaranan sosial-hüquqi hadisə və məsələlər barədə elmi fikir, nəzəriyyə, postulat, konsepsiya və ideyaların sistemidir ki, onsuz tibb hüququna dair anlayışların, məfhum aparatının mahiyyətini dərindən və hərtərəfli başa düşmək qeyri-mümkündür.

Əsəri fərqləndirən xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, o, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin təklif və tövsiyələri nəzərə alınmaqla hazırlanmışdır. Zənnimizcə, monoqrafiya müasir dövrdə tibb fəaliyyəti sahəsində baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin bu istiqamətdə maariflənməsi, habelə cəmiyyətdə hüquqi düşüncə və tibb mədəniyyətinin formalaşması baxımından, mühüm əhəmiyyətə malikdir.

Müasir beynəlxalq tibb münasibətləri sahəsində ən yeni normativ hüquqi sənədlər və çoxsaylı elmi mənbələr əsasında yazılmış bu fundamental əsər Azərbaycan milli hüquq sistemində və onun tərkib hissəsi olan tibb hüququ sferasında mövcud olan boşluqların doldurulmasına, habelə hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir.

Əsərdən ali məktəb tələbələri, müəllimlər, elmi işçilər, hüquqşünaslar, tibb fəaliyyəti sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilər.

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı,
dosent, hüquq üzrə fəlsəfə doktoru **Zaur Əliyev**

Hüquq və İnsan Haqları İnstitutunun İdarə
Heyətinin sədri, hüquq üzrə fəlsəfə doktoru **Məhəmməd Quluzadə**

I FƏSİL. BEYNƏLXALQ TİBB HÜQUQUNUN ANLAYIŞI, PREDMETİ, SİSTEMİ VƏ HÜQUQİ STATUSU

1.1.Beynəlxalq tibb hüququnun təşəkkülü və formalaşması

1.1.1. Beynəlxalq tibb hüququnun yaranma əlamətləri

Bəşəriyyətdə beynəlxalq tibb hüququnun yaranmasının əsas **genezis elementi** – əmələgəlmə əlaməti dünyada insanların sağlamlığının qorunması, yüksək səviyyəli tibbi xidmətlərin inkişaf etdirilməsi, müxtəlif xəstəliklərə qarşı aparılan mübarizənin qlobal xarakter alması, əhalinin möntəzəm şəkildə tibbi müayinələrə cəlb olunması, insanların bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması, yeni səhiyyə infrastruktur komplekslərinin yaradılması, eləcə də sağlamlığın qorunması kontekstində çoxsaylı beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərin kütləvi xarakter almasıdır. Başqa sözlə desək, **beynəlxalq tibb fəaliyyətinin** ümumdünya universal səviyyədə və dövlətlərarası əməkdaşlıq miqyasında həyata keçirilməsi, onun hüquqi cəhətdən tənzimlənməsi və nizama salınması zərurəti **beynəlxalq tibb hüququnun** (BTH) yaranmasını şərtləndirir. Müasir süni intellekt dövründə beynəlxalq sosial-iqtisadi münasibətlər sisteminin mühüm komponenti olan **insanların sağlamlığının qorunması üzrə fəaliyyət** ictimai-sosial hadisə kimi hər bir ölkənin milli infrastrukturunda xüsusi yer tutur. Təhsil və səhiyyə sistemində, vətəndaşların iş, yaşayış və istirahət yerlərində, hərbi-müdafiə və xidməti-tətbiqi sahələrdə, cəzaçəkmə müəssisələrində, həmçinin uşaq-gənclər kontingenti arasında və s. yerlərdə həyata keçirilən **sanitariya-epidemioloji xidmət** [1] və digər sağlamlıq tədbirləri nəticəsində tibb fəaliyyəti vahid kompleks şəklində birləşir. Cəmiyyətin ümumi mədəniyyətinin ayrılmaz hissəsi və insan fəaliyyətinin mühüm növü olan **tibb xidmətləri** tarixən insanlarda sağlam həyat tərzini formalaşdıran, fiziki və əqli inkişafı möhkəmləndirən sosial fəaliyyət sahəsi kimi onun ahəngdar işi məhz səhiyyə

obyektlərinin və müəssisələrinin müntəzəm fəaliyyət göstərməsindən funksional şəkildə asılıdır.[1]

---

[1]Sanitariya-epidemioloji xidmət barədə ətraflı bax: Kütləvi Tibb Ensiklopediyası. Bir cilddə / Baş redaktor – İsmayıl Vəliyev. Bakı, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, s.301-302.

[1] Həkimliyin və tibbin tarixi barədə ətraflı bax: məsələn, Медицинское право России: учебник / отв. ред. А.А.Мохов. – Москва: Проспект, 2022, с.3-12; Məmmədov V.Q. Tibbi hüquq və bioetikanın Azərbaycan Respublikasında formalaşması və müasir inkişaf tendensiyaları // Elmlər doktoru elmi

Artıq dünya birliyinə də məlumdur ki, Azərbaycan iqtisadiyyatın artım tempinə görə regionda lider dövlətə çevrilmişdir. Müstəqil dövlətimizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş qlobal iqtisadi layihələrin – Böyük "İpək yolu"nun bərpası, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan Əsas İxrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və digər iri layihələrin reallaşdırılması Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdə tamhüquqlu suveren dövlət kimi iştirak etməsini zərurətə çevirdi. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin proqmatik daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi, həm də beynəlxalq tibb münasibətlərinin sürətli inkişaf tempi kontekstində göz önündədir.

Səhiyyə işinin ölkəmizdə və onun hüdudlarından kənarda təhlükəsiz və səmərəli formada təşkil edilməsi məsələsi vacib yer tutur. Müasir dövrdə yaradılmış **koordinasiya nəticəsində** Azərbaycan beynəlxalq aləmdə səhiyyə sahəsində çox böyük uğurlara imza atmışdır. İlk növbədə, qeyd etməliyik ki, tibbi fəaliyyətlə məşğul olmaq üçün ölkədə münbit şərait yaradılmışdır. Belə ki, Azərbaycanın bölgələrində müasir standartlara uyğun tibbi müalicə kompleksləri istifadəyə verilmişdir, paytaxtda isə ən müasir tibbi infrastruktur obyektləri mövcuddur. Əlbəttə, həm dövlət sektorunda, həm də özəl sektorda yaradılmış 700-dən çox klinika, modul tipli xəstəxana və digər tibbi reabilitasiya müəssisələri, xüsusilə, önəmlidir. Əhalinin sağlamlığının qorunması kontekstində tibb münasibətlərinin qaydaya salınması və nizamlanması mühüm məsələlərdən biridir. Belə tənzimləmə, məlum olduğu kimi, hər bir dövlətdə milli hüquq sistemi vasitəsilə, ümumdünya səviyyəsində isə beynəlxalq tibb-hüquq normaları əsasında həyata keçirilir. Göstərilən faktorlar beynəlxalq tibb hüququnun **yaranma əlamətləri** kimi vacib rol oynayır.

1.1.2. Beynəlxalq tibb hüququnun formalaşması

Qeyd etməliyik ki, son dövrlərdə Azərbaycan səhiyyə sahəsində keçirilən beynəlxalq tədbirlərdə fəal iştirak etməklə, tibb mütəxəssisləri zəruri praktik təcrübə və yüksək tibbi biliklərə nail olmuşlar. Təsadüfi deyil ki, ölkəmizdə hər il nüfuzlu beynəlxalq tibb tədbirləri, konfranslar, sərgi, festival və forumlar keçirilir ; Azərbaycan belə tədbirlərə **evsahibliyi** edir: məsələn, "Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək" Tvininq layihəsi çərçivəsində Beynəlxalq Konfrans (2018-ci il), Beynəlxalq Tibb İnnovasiyaları Sərgisi "Medinex" (2019-cu il); "Beynəlxalq Tibb Bacısı Günü"nə həsr olunmuş Tədbir, həmçinin BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyi və Avropa İttifaqının dəstəyi ilə yaradılmış Resurs Mərkəzinin açılışı (2022-ci il); "I Beynəlxalq Pediatriya, Uşaq cərrahiyyəsi və Tibb bacıları Konqresi" (2022-ci il); "Süni İntellekt əsrində Tibb

dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2022, 56 s.

Hüququ" adlı Beynəlxalq Konfrans (2022-ci il); Naxçıvan Muxtar Respublikasında "I Beynəlxalq Tibbi Forum" (2022-ci il) və s.[1] Göründüyü kimi, Dövlət başçısının rəhbərliyi altında ölkədə tibb və səhiyyə sahəsində mötəbər beynəlxalq tədbirlərin yüksək səviyyədə və təhlükəsiz keçirilməsi, səhiyyə sahəsində qazanılmış uğurlarımız xoş həyacan müjdəsi verir ki, Azərbaycan beynəlxalq arenada stabil ölkə kimi böyük nüfuz qazanmışdır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Azərbaycanın artan iqtisadi inkişafı, iqtisadi potensialı imkan verir ki, sosial sahəyə diqqət daha da böyük olsun. Əlbəttə ki, sosial sahənin əsas istiqaməti insanların sağlamlığıdır".

Təqdirəlayiq haldır ki, xalqımızın sağlamlığının qorunması və möhkəmlənməsində, gənclərimizin fiziki inkişafında, ölkəmizin beynəlxalq aləmdə daha da uca zirvələrə yüksəlməsində səhiyyə xidmətinin əhəmiyyətini və rolunu nəzərə alaraq, Azərbaycan Respublikası 1992-ci il 2 oktyabr tarixində **Ümumdünya Səhiyyə Təşkilatına** (ÜST) üzv qəbul olunmuşdur və həmin təşkilatın ölkəmizdə ofisi fəaliyyət göstərir. Həmçinin Azərbaycan Respublikası 27 iyun 2019-cu il tarixli 1613-VQ nömrəli Qanunla **"Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"**nə (BHTK) qoşulmuşdur. Ümummilli lider Heydər Əliyevin imzaladığı 04.06.2001-ci il tarixli 733 nömrəli Sərəncam əsasında hər il iyunun 17-i **"Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü"** kimi qeyd olunur. Onu da xatırlamaq yerinə düşər ki, yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı aparılan mübarizədə, həmçinin Birinci Qarabağ və Vətən müharibəsi dövründə də tibbi işçiləri təcrübə və peşəkarlıqları, özlərinin ən üstün şəxsi keyfiyyətləri və qətiyyətləri ilə yaxından iştirak ediblər.

Qeyd etmək lazımdır ki, tibb xidmətlərinin göstərilməsində həkim personalı xüsusi yer tutur. Təsadüfi deyildir ki, dünyanın bir çox ölkələrində hər il oktyabr ayının birinci bazar ertəsi **"Beynəlxalq Həkimlər Günü"** kimi qeyd olunur. Bu gün bütün dünya həkimlərinin həmrəylik və birliyini nümayiş etdirir. Bu bayramın yaradılmasının təşəbbüskarları Ümumdünya Səhiyyə Təşkilatı və "Sərhədsiz həkimlər" Beynəlxalq Tibbi-humanitar Təşkilatıdır.

Səhiyyə müəssisələrinin fəaliyyətini təmin edən nümunəvi tibbi-informasiya sisteminin hazırlanması və tətbiqinə 2007-ci ildən başlanılmışdır - **"Elektron səhiyyə" sistemi**. Eləcə də, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 yanvar 2008-ci il 2620 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası" təsdiq edilmiş, habelə Dövlət başçısının 24 noyabr 2016-cı il tarixli 1125 nömrəli Fərmanı ilə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yaradılmış, həmçinin Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2018-ci il tarixli Sərancamı ilə "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmiş, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına müvafiq olaraq, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxs yaradılmış və s. islahatlar

[1] https://its.gov.az/bloq/;https://azxeber.com/az/sosial/; https://globalmedforum.com/ (18.09.2022-ci il).

aparılmışdır. Eyni zamanda, əhalinin sağlamlığının qorunması sahəsində **beynəlxalq əməkdaşlıq çərçivəsində** Azərbaycan Respublikası çoxtərəfli universal və regional konvensiya və sazişlərə qoşulmuşdur: məsələn, BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istsfadəsi üzrə" Konvensiyası (2000-ci il) [1], "Su və sağlamlıq haqqında" Protokol (2002-ci il), "Biomüxtəliflik haqqında" Konvensiyaya "Biotəhlükəsizlik haqqında" Kartahen Protokolu (2005-ci il), "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası (2003-cü il), "Avropa Sosial Xartiyası" (2004-cü il), "Digər ölkə ərazisinə müvəqqəti gələn şəxslərə tibbi xidmət göstərilməsi haqqında" Avropa Sazişi (1996-cı il), "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Saziş (2002-ci il), "GUAM-a üzv-dövlətlərin səhiyyə nazirlikləri arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında" Saziş (2007-ci il) və s. beynəlxalq-hüquqi aktlar. Azərbaycan Respublikasının dünya dövlətləri ilə **səhiyyə və tibb elmi** sahəsində həyata keçirilən ikitərəfli əməkdaşlıqla bağlı imzaladığı beynəlxalq sənədlər sırasında aşağıdakıları göstərmək olar:

- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Ukrayna Səhiyyə Nazirliyi arasında təbabət və səhiyyə sahəsində əməkdaşlıq haqqında" Saziş (1997-ci il);
- "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (1999-cu il);
- "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (2004-cü il);
- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Latviya Respublikası Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığa dair" Saziş (2006-cı il);
- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (2007-ci il);
- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İordaniya Haşimilər Krallığı Səhiyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Saziş (2007-ci il);
- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Belarus Respublikası Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (2008-ci il);
- "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu (2010-cu il);
- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Rumıniya Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (2011-ci il);
- " Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında" Saziş (2014-cü il);

[1] Mötərizədə Azərbaycan Respublikasının müvafiq beynəlxalq müqaviləyə qoşulduğu il göstərilir.

“Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında” Saziş (2016-cı il);

- “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Serbiya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumu (2018-ci il);
- “Azərbaycan Səhiyyə Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumu (2020-ci il);
- “ Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Rusiya Federasiyası Səhiyyə Nazirliyi arasında "Səhiyyə və tibb elmi sahəsində yenilənmiş əməkdaşlıq” Sazişi (2021-ci il) və s. dövlətlərlə bağlanmış ikitərəfli müqavilələr.[1] Beləliklə, Azərbaycan səhiyyə və tibb elmi sahəsində öz maraqlarını tam şəkildə qorumaq şərti ilə **xarici dövlətlərlə səmərəli beynəlxalq əməkdaşlığını** davam etdirir. Beynəlxalq tibb münasibətlərinin və əlaqələrinin inkişafı, təşviqi, habelə beynəlxalq arenaya çıxışın təmin edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilir və nəticədə Avropa, Asiya, Amerika, Afrika və digər qitə dövlətləri arasında beynəlxalq əməkdaşlığın həcmi əhəmiyyətli dərəcədə artmışdır. Tibb sahəsi institusional baza baxımından, genişləndirilmiş və təkmilləşdirilmiş, eləcə də dövlət və özəl sektorda müalicə-tibb müəssisələri infrastrukturunun yenilənməsi və inkişafı, uzlaşdırılmış səhiyyə siyasətinin aparılması, münbit investisiya mühitinin yaradılması, kadrların hazırlanması, sərhəd-keçid və gömrük prosedurlarının sadələşdirilməsi, habelə əhalinin sağlamlığının qorunması istiqamətində təhlükəsizliyin təmin edilməsi sahəsində vacib regional proqramlar icra olunmuşdur.

Göründüyü kimi, Azərbaycan Respublikası bu kontekstdə xeyli sayda beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur, eləcə də tibb fəaliyyətinin nizama salınması məqsədi ilə zəruri **normativ hüquqi baza** yaradılmışdır. Beynəlxalq tibb münasibətlərinin tənzimlənməsində dünya birliyi də, xüsusilə, maraqlıdır.

Belə bir şəraitdə beynəlxalq tibb hüququnun formalaşması, onun səmərəliliyi, beynəlxalq səhiyyə-tibb müqavilələrin müddəalarının həyata keçirilməsi və beynəlxalq öhdəliklərə əməl olunması ölkə daxilində aparılan **hüquqi islahatlar çərçivəsində** həyata keçirilən təşkilati və hüquqi tədbirlərdən əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan, beynəlxalq tibb münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsi məsələsi əhalinin sağlamlığının qorunması kontekstində dünya dövlətlərinin maraqlarına uyğun olmaqla, həlledici əhəmiyyətə malikdir. Yuxarıda göstərilən amillər Azərbaycanda beynəlxalq tibb hüququnun **təşəkkül tapmasında və formalaşmasında** vacib rol oynayır.

[1] Ətraflı bax:Hüseynova F.E. Sağlamlığın qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı,”Kooperasiya” nəşriyyatı, 2016, s.154-157; https://e-qanun.az/framework/13227 və https://www.sehiyye.gov.az/huquqi-senedler/qanunlar/ (19.09.2022-ci il).

1.2.Beynəlxalq tibb hüququnun anlayışı və predmeti

1.2.1.Beynəlxalq tibb hüququ anlayışı

Hər şeydən əvvəl, qeyd etməliyik ki, beynəlxalq hüquq doktrinasından məlum olduğu kimi, dövlətlərarası beynəlxalq əməkdaşlıq ictimai mönasibətlərin müxtəlif sahələrində (siyasi, sosial-iqtisadi, insan hüquqları, elm və təhsil, səhiyyə, ekoloji və s. sferalarda) həyata keçirilir. Müasir dövrdə beynəlxalq əməkdaşlıq həm də **tibb fəaliyyəti sferasında** yaranmış və bu fəaliyyət növü bəşəriyyətdə kütləvi xarakter alaraq, obyektiv zəmində əhəmiyyətli və ayrıca real ictimai münasibətlər qrupuna çevrilmişdir. Belə ki, sağlamlıq, səhiyyə və tibb cəmiyyətdə ictimai həyat sisteminin mühüm komponenti olmaqla sosial fəaliyyət sahəsidir. Qeyd etməliyik ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) sağlamlıq anlayışını "yalnız xəstəliklərin və ya zəifliyin olmaması kimi deyil, tamamilə fiziki, əqli və sosial rifah halı kimi" müəyyən edir.[1] Eyni zamanda, fərdin sağlamlığı (yəni ayrıca şəxsin sağlamlığı) və əhalinin sağlamlığı (insan qruplarının sağlamlığı və ya ictimai sağlamlıq) kimi kateqoriyalar fərqləndirilir. **"Fərdin sağlamlığı"** insanın həyat fəaliyyətinin ən mühüm göstəricilərinin geniş surətdə dəyişilməsi, orqanizmin uyğunlaşma imkanlarının vəziyyəti ilə əlaqədardır. Sağlamlıq xəstəliyə zidd vəziyyət olsa da, xəstəlikönü vəziyyət vasitəsilə onunla bağlı ola bilər. Bu zaman hələ xəstəlik olmasa da, orqanizmin mühafizə-uyğunlaşma qüvvələri kəskin surətdə zəifləyir və belə halda adi şəraitdə xəstəliyə səbəb olmayan zərərli amil xəstəlik törədə bilir. Bundan başqa, sağlamlıq vəziyyəti orqanizmdə hələ aşkar olmamış xəstəliktörədici səbəbin, insanın əhvalında dəyişikliklərin və hətta fizioloji normadan müəyyən dərəcədə kənara çıxmaların olmasını istisna etmir.

Bütünlükdə **əhalinin sağlamlığı** (ictimai sağlamlıq) doğum, ölüm, uşaq ölümü, xəstələnmə, insanların fiziki inkişaf səviyyəsi, orta ömür müddəti və s. kimi sanitariya-statistik göstəricilər kompleksi ilə müəyyən edilir; ona bioloji, təbii və sosial amillər də təsir edir. Əhalinin sağlamlığı sosial mühitdən və insanların həyat şəraitindən, o cümlədən real əmək haqqının miqdarından, iş gününün müddətindən, əmək və mənzil şəraitindən, qidalanma səviyyəsindən, səhiyyənin inkişafından, ölkənin sanitariya vəziyyətindən və s. amillərdən çox asılıdır. Sosial-gigiyenik tədqiqatlar vasitəsilə müəyyən edilmişdir ki, sağlamlığa insanın, əhali qruplarının həyat tərzi bilavasitə təsir edir. Bu və ya digər ölkə sakinlərinin sağlamlığı barədə mühakimə yürütmək üçün birmənalı meyar yoxdur. Hətta orta ömür müddətinin göstəricisi də kompleks sosial-bioloji tədqiqatların nəticəsidir. Ayrı-ayrı şəxslərin, kollektivlərin və bütünlükdə əhalinin sağlamlığının mühafizəsinin **elmi təşkili** insan orqanizminin mühafizə-uyğunlaşma mexanizmlərini mökəmləndirmək üçün

[1] https://www.coe.int/az/web/compass/health (22.09.2022-ci il).

tədbirlər kompleksinin işlənib hazırlanması, eləcə də insanın mənfi amillərlə təmasda olması imkanının qarşısını alan və ya onların təsirini zəiflədən ətraf mühitin qorunması, istehsalatda əməyin mühafizəsi və təhlükəsizlik texnikası, epidemiya əleyhinə tədbirlər, əhalinin sanitariya mədəniyyətinin yüksəldilməsi, həmçinin sağlam həyat tərzi, işdə və ailədə sağlam və xeyirxah şərait yaradılması istiqamətində qurulmalıdır. Başqa sözlə desək, əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzunömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli **tədbirlərin məcmusundan** ibarətdir.[1]

Səhiyyə dedikdə ümumi əhalinin və hər bir insanın sağlamlığının mühafizəsi və yaxşılaşdırılması üçün aparılan kompleks sosial, iqtisadi, tibbi tədbirlər sistemi başa düşülür. Səhiyyənin məzmunu və xarakteri, cəmiyyətin sosial və dövlət quruluşundan, istehsal qüvvələrinin inkişaf dərəcəsindən, elm və texnikanın inkişaf səviyyəsindən asılıdır. Əhalinin sağlamlığının mühafizəsi sahəsində səhiyyənin vəzifələrinin yerinə yetirilmə dərəcəsi, əsasən, onun maddi-texniki bazası, ixtisaslı tibb kadrlarının olması, tibb elmlərinin inkişaf səviyyəsi ilə sıx əlaqədardır. Bu da, əhalinin müxtəlif qruplarının sağlamlığının mühafizəsi işində dövlətin maraqlı olması ilə müəyyən edilir. Səhiyyə insanların ən humanist fəaliyyət dairəsidir; o, ölkənin iqtisadiyyatına da böyük təsir göstərir. **Tibb** anlayışı isə elmi və praktik fəaliyyətin müəyyən bir istiqamətini ehtiva edir, həm də insan orqanizminin sağlamlığını qorumaq üçün sağlam və xəstə insanların orqanizmində gedən prosesləri öyrənir, eləcə də xəstəliklərin müalicə və profilaktikası tədbirlərini işləyib hazırlayır. Tibb insanın elmi və praktik fəaliyyətində xüsusi yer tutur. Belə ki, hər bir adam öz sağlamlığını möhkəmləndirməkdə, xəstələndikdə isə effektli müalicə almaqda maraqlıdır. Tibb uzun tarixi inkişaf sayəsində xəstəliklərin diaqnozunun təyin olunması və profilaktikasında müəyyən müvəffəqiyyətlər qazanmışdır. Lakin, buna baxmayaraq, bir çox xəstəliklərin səbəbi və müalicəsi barədə məsələ hələlik qəti həll olunmamışdır. Hələ də, müəyyən xəstəliklərə görə, insanların çox hissəsi özlərinin baş verəcək təbii ölümlərinə qədər yaşamır, müxtəlif xəstəliklərdən və onların fəsadlarından əziyyət çəkir, vaxtından əvvəl ölüm halı insanın həyatının çiçəkləndiyi, müəyyən təcrübəyə və biliyə malik olduğu dövrdə baş verdikdə isə, cəmiyyətin əqli gücünə və istehsalata əvəzolunmaz dərəcədə zərər dəyir.[1]

Bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, müasir dövrdə hər bir

---

[1] Ətraflı bax: "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli 360-IQ nömrəli Qanunu // https://e-qanun.az/framework/4078 (23.09.2022-ci il).

[1] Sağlamlıq, səhiyyə və tibb anlayışları barədə daha ətraflı bax: Kütləvi Tibb Ensiklopediyası. Bir cilddə / Baş redaktor – İsmayıl Vəliyev. Bakı, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, s.299,307,344.

ölkədə tibb fəaliyyəti sahəsində müvafiq **dövlət siyasəti** həyata keçirilir və bu fəaliyyət növü ümumtanınmış spesifik sferalarından biridir, onun beynəlxalq ictimai əhəmiyyəti günbəgün artmaqda davam edərək, universal xarakter almışdır. Tibb fəaliyyəti coğrafiyasının ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq miqyaslı funksiyalara malik olması amili onun beynəlxalq-hüquqi tənzimlənməsini zəruri edir.Təbii ki, belə tənzimləmə **beynəlxalq tibb hüququ** vasitəsilə həyata keçirilir.

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq aləmdə tibb fəaliyyətini tənzimləyən hüquqi qurum kimi doktrinada müxtəlif adlı terminlərdən istifadə olunmasına rast gəlinir: məsələn, beynəlxalq sağlamlığın qorunması hüququ (international health law, droit international de la sante),[2] beynəlxalq sanitar hüquq (international sanitary law),[3] beynəlxalq tibb hüququ (international medical law) [4] , qlobal sağlamlıq hüququ (global health law) [5] və s. Həmçinin sovet hüquq ədəbiyyatında "beynəlxalq tibb hüququ" termininin işlədilməsinə təsadüf olunur.[1]

---

[2] Хендель Н. В. Международное здравоохранительное право в системе международного права / Н. В. Хендель // Таджикистанский ежегодник международного публичного и частного права. 2016. Душанбе, Издательство «Эр-граф», 2016, с. 134-143.

[3] Vitta C. Le droit sanitaire international // 1930. 33 R.C.A.D.I. Haaqa Beynəlxalq Hüquq Akademiyasında 1930-cu ildə professor S.Vitta müvafiq kurs apararkən qeyd etmişdir ki, **beynəlxalq sanitar hüquq** – beynəlxalq ümumi hüququn bir sahəsi olub, dövlətlər arasında sanitar idarəetmə münasibətlərini nizamlayır // Tibb hüququ.Dərs vəsaiti / Mustafazadə A.İ.,Aslanov Z.N. Bakı,"Elm", 2017, s.194.

[4] **Шаяхметов С.Ш. История международного медицинского права.** Вестник КазНМУ,2014 // https://kaznmu.edu.kz/press/2014/09/25/ (23.09.2022- ci il); Гнатик Е.А., Долженкова Ю.В. **Международное медицинское право: история и перспективы развития** // Вестник РУДН, 2014,с.281-288; Mustafazadə A.İ.,Aslanov Z.N. Tibb hüququ.Dərs vəsaiti. Bakı,"Elm", 2017, XII fəsil.Beynəlxalq tibb hüququ, s.191-200; Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. I cild.Ümumi hissə.Bakı,2018, s.65-66 və s.

[5] Məsələn,bax: Gian Luca Burci and Brigit Toebes (eds). Research Handbook on Global Health - https: //www.researchgate.net/publication/350290761_Book_Review_Research_Handbook_on_Global_Health_Law (26.09.2022-ci il).

[1] Belə ki, sovet hüquq ədəbiyyatında "beynəlxalq tibb hüququ" termini, ilk dəfə olaraq, 1963-cü ildə V.S.Mixaylov tərəfindən işlədilmişdir; bu barədə ətraflı bax: məsələn, *Михайлов В.С.* К *вопросу* о *международном медицинском праве* / *Советский ежегодник международного права*. *М. – 1963* - https://www.google.com/search?q (25.09.2022-ci il). Müasir dövrdə də bu termin işlədilir – məsələn, bax: РАБОЧАЯ ПРОГРАММА ДИСЦИПЛИНЫ «Международное медицинское право». Международно-правовые основы права на здоровье [Электронный ресурс]: Учебное пособие / А.Х. Абашидзе, Белоусова А.А., Маличенко В.С., Семенова Н.С. - Электронные текстовые данные. - М.: Изд-во РУДН, 2016, 325 с. və b.

Şərh olunanları və müasir dövrdə tibb xidmətlərinin beynəlmiləlləşməsi prosesini nəzərə alaraq, zənnimizcə, doktrinada formalaşmaqda olan və nisbətən yeni hüquqi qurum kimi "beynəlxalq tibb hüququ" termininin tətbiq edilməsi daha ağlabatan, əhatəli və uğurlu variantdır.[2] Bu terminin həm də beynəlxalq-hüquqi sənədlərdə və qanunvericilik aktlarında işlədilməsi müşahidə olunur. Bəs, beynəlxalq tibb hüququ dedikdə nə başa düşürük?

İlk növbədə, qeyd etməliyik ki, beynəlxalq tibb hüququ (BTH) fenomeni müxtəlif variantlarda işləndiyinə görə **çoxaspektli** anlayışdır. Belə ki, o, aşağıda göstərilən **dörd əsas mənada** işlədilir:

-elm və tədqiqat sahəsi kimi beynəlxalq tibb hüququ;

-tədris kursu mənasında beynəlxalq tibb hüququ;

- qanunvericilik mənasında beynəlxalq tibb hüququ;

-obyektiv mənada beynəlxalq tibb hüququ.

Elm və tədqiqat sahəsi kimi beynəlxalq tibb hüququ dedikdə beynəlxalq tibb hüququna aid olan anlayışlar (beynəlxalq tibb hüququnun subyektləri, beynəlxalq tibb hüququnun mənbələri, beynəlxalq tibb hüququnun prinsipləri, beynəlxalq tibb münasibətləri və digər məsələlər) barədə fikirlər, ideyalar, nəzəriyyə, postulat, konsepsiya, elmi-tədqiqat və s. mülahizə və elmi işlərin məcmusu başa düşülür. Bu mənada o, həm də beynəlxalq tibb hüquq elmi (doktrina) adlanır. Beynəlxalq tibb hüquq doktrinası BTH-yə aid olan məsələləri tədqiq edir, öyrənir. **Beynəlxalq tibb hüququ tədris fənni kimi** tələbələrə və oxucu auditoriyasına BTH barədə biliklər və sistemləşdirilmiş informasiya verən tədris kursudur; bu mənada ona beynəlxalq tibb hüquq tədris fənni deyilir.[1] **Qanunvericilik mənasında beynəlxalq tibb hüququ** dedikdə beynəlxalq tibb münasibətlərini tənzimləyən beynəlxalq-hüquqi sənədlərin – beynəlxalq müqavilələrin məcmusu başa düşülür. Tibb xidmətinin

[2] Artıq elmi dövriyyədə bu anlayışın işlədilməsinə rast gəlinir. Məsələn, bax: Əliyev E.Ə., Hüseynova F.E. Beynəlxalq publik hüquq kursu. Dərslik. I cild. Ümumi hissə / Z.H.Əliyevin ümumi redaktəsi ilə. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2023.

[1] Məsələn, bax, "Tibbi hüququn aktual problemləri" tədris fənninin magistr təhsil pilləsi üçün Proqramı / Tərtib edənlər: Rzayeva G.A., Sadıqova T.R. Bakı, BDU, 2022,16 c.

göstərilməsi barədə müqavilələr, həkim kadrlarının dövriyyəsi, transfer və ödənişlər, səhiyyə və tibb sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, maliyyə və digər məsələlər haqqında beynəlxalq sazişlər beynəlxalq tibb qanunvericiliyinə daxildir.

Obyektiv mənada beynəlxalq tibb hüququ dedikdə, bir qayda olaraq, beynəlxalq tibb münasibətlərini tənzimləyən hüquq normalarının sistemi və məcmusu başa düşülür; onlara beynəlxalq tibb-hüquq normaları deyilir. Buna görə də, obyektiv mənada beynəlxalq tibb hüququ müvafiq beynəlxalq tibb-hüquq normalarından ibarətdir; bu normaların əsas təyinatı və başlıca funksiyası beynəlxalq tibb münasibətlərini tənzimləməkdən ibarətdir.

Obyektiv mənada beynəlxalq tibb hüququ, qeyd etməliyik ki, hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir. Obyektiv mənada beynəlxalq tibb hüququ bundan sonra, sadəcə olaraq, **"beynəlxalq tibb hüququ"** termini ilə əhatə olunacaqdır. Buna görə də, təbii ki, "obyektiv mənada beynəlxalq tibb hüququ" və "beynəlxalq tibb hüququ" ifadələri eynimənalı, sinonim anlayışlar kimi başa düşülməlidir.

Beynəlxalq tibb münasibətlərinin yaranması və inkişaf prosesləri aşağıda göstərilən **üç vacib obyektiv faktordan** əhəmiyyətli dərəcədə asılıdır:

1) beynəlxalq aləmdə insanlara xas olan fiziki sağlamlıq tələbatının təmin edilməsi ilə bağlı yaranan ictimai münasibətlər – tibb münasibətləri;

2) bu sahədə mövcud ictimai münasibətlərin dəqiq müəyyənləşdirilmiş beynəlxalq qaydalarla nizama salınmasında dövlətlər birliyinin maraqlı olması;

3) müvafiq sferada əsas dialektik başlanğıc norma, reqlament və qaydaları maraqlı dövlətlərin müəyyən etməsi və bunun sistemli şəkildə beynəlxalq birlik tərəfindən ümumtanınmış formada qəbul edilməsi.

Göstərilən faktorlar müasir dövrdə beynəlxalq praktikada artıq öz real əksini tapmışdır, bu sahədə kompleks hüquq normalar sistemi mövcuddur və bunun vasitəsilə beynəlxalq tibb fəaliyyətinin effektiv şəkildə tənzimlənməsi həyata keçirilir.

Beləliklə, şərh edilənləri nəzərə alaraq, beynəlxalq tibb hüququna aşağıdakı kimi **lakonik definisiya** formalaşdıra bilərik:

-beynəlxalq tibb hüququ dedikdə beynəlxalq arenada dövlətlərarası tibb fəaliyyətini və bu fəaliyyətdən yaranan ictimai tibb münasibətlərini nizama salan, bir-birilə qarşılıqlı dialektik əlaqədə olan kompleks hüquq normalarının sistemi başa düşülür.

1.2.2.Beynəlxalq tibb hüququnun predmeti

Hüquq sisteminin hər bir tərkib hissəsinin özünəməxsus nizamasalma predmeti vardır. Bu sözləri, eynilə, BTH barədə də söyləmək olar. Belə ki, BTH özünəxas nizamasalma predmetinə malikdir; onun nizamasalma predmeti belə bir suala cavab verir: beynəlxalq tibb hüququ nəyi, hansı növ ictimai münasibətləri tənzimləyir?

Qeyd etməliyik ki, BTH vasitəsi ilə hansı növ ictimai münasibətlər tənzimlənirsə, o münasibətlər də məhz onun nizamasalma predmetini təşkil edir. Bu münasibətləri müəyyənləşdirmək üçün, ilk növbədə, nəzərə almalıyıq ki, əvvəllərdə də qeyd etdiyimiz kimi, beynəlxalq tibb fəaliyyəti BTH-nin genezis-əmələgəlmə əlamətidir. Bu baxımdan,**"beynəlxalq tibb fəaliyyəti"** anlayışı ilə tanış olmaq, onun mahiyyətinə aydınlıq gətirmək lazımdır. "Beynəlxalq tibb hüququ" anlayışında "beynəlxalq" ifadəsinin işlədilməsi onu göstərir ki, beynəlxalq tibb hüququnun əsas "işi" məhz beynəlxalq tibb fəaliyyətinin həyata keçirilməsi nəticəsində yaranan münasibətləri tənzimləməkdən ibarətdir. Məsələ burasındadır ki, beynəlxalq tibb münasibətləri kifayət dərəcədə geniş coğrafi xarakterli anlayış olub, özündə subyekt baxımından, həm beynəlxalq dövlətlərarası / hökumətlərarası tibb münasibətlərini, həm də beynəlxalq qeyri-dövlətlərarası tibb münasibətlərini birləşdirir.

Hüquq ədəbiyyatında göstərildiyi kimi, **beynəlxalq münasibətlər** dedikdə dövlətlərin sərhədlərindən kənara çıxan bütün ictimai münasibətlər başa düşülür.[1] Həmin münasibətlər müxtəlif sahələrdə (siyasi, iqtisadi, hərbi, mədəni, elmi, təhsil, tibb və digər sferalarda) əmələ gələ bilər. Əgər beynəlxalq münasibətlər tibb

[1] Богуславский М.М. Международное экономическое право. М., 1986, с.5.

fəaliyyəti sahəsində əmələ gələrsə, onlara **beynəlxalq tibb münasibətləri** deyilir; məhz bu münasibətlər BTH ilə tənzimlənərək onun nizamasalma predmetinə daxildir.[2] Bu isə, öz növbəsində, bizə belə bir fikir söyləməyə əsas verir ki, beynəlxalq tibb hüququnun nizamasalma predmetinin zəminində beynəlxalq tibb fəaliyyəti nəticəsində yaranan ictimai münasibətlər durur.

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq tibb fəaliyyəti özündə, mahiyyət etibarilə, aşağıdakı **əsas istiqamətləri** ehtiva edir:

-ümumi səlahiyyətli beynəlxalq təşkilatlarda (məsələn, BMT, Avropa Şurası və b.), tibb fəaliyyəti ilə bağlı beynəlxalq hərəkat və tədbirlərdə iştirak etmək, habelə ÜST, BHTK və digər qurumlarla, o cümlədən onların milli və regional strukturları ilə qarşılıqlı əlaqələrin yaradılması;

-beynəlxalq tibb münasibətlərində dövlətlərin, milli səhiyyə təşkilatlarının, tibb müəssisələrinin, həkimlərin və digər milli subyektlərin fəaliyyəti;

- beynəlxalq tibb fəaliyyəti sahəsində, həmçinin digər beynəlxalq səhiyyə-tibb tədbirlərinin, müvafiq konfrans, sərgi və simpoziumların təşkili və həyata keçirilməsi;

-tibbi fəaliyyətin konstitusiya və beynəlxalq-hüquqi aspektləri;

-beynəlxalq tibb münasibətləri sferasında əqli mülkiyyət hüququ;

- beynəlxalq tibb fəaliyyətində əmək və sosial münasibətlər;

-tibb fəaliyyətinin maliyyələşdirilməsinin hüquqi tənzimlənməsi və sığorta münasibətləri, həmçinin tibb fəaliyyəti sferasında beynəlxalq maddi dəstək və xarici sərmayə yatırımı;

-əczaçılıq fəaliyyəti, bioetika münasibətləri, tibbi xidmətlərin ixracı və tibbi turizm münasibətləri; [1]

-xalq təbabəti sahəsində dövlət nəzarəti, pasiyentlərin və tibbi personalın qanuni mənafelərinin müdafiəsinin hüquqi formaları;

---

[2] Bax: Mustafazadə A.İ.,Aslanov Z.N. Tibb hüququ.Dərs vəsaiti. Bakı,"Elm", 2017, XII fəsil.Beynəlxalq tibb hüququ, s.193.

[1] "Tibbi turizm" anlayışı, bəzən, "sağlamlaşdırma turizmi" kimi anlayışla ifadə edilir: məsələn, bax: Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı, "NAT" MMC, 2011, s.28, 42 və s.

-tibbi fəaliyyət sahəsində məsuliyyət və cinayətkarlığa qarşı mübarizə aparılmasında beynəlxalq əməkdaşlıq və s. məsələlər.[2]

Göstərilən siyahı qəti deyil. Belə ki, o, müasir dövrdə beynəlxalq tibb fəaliyyətinin yeni yaranan digər istiqamətləri ilə də genişləndirilə bilər.

Beynəlxalq tibb fəaliyyətinin sadalanan istiqamətləri ilə bağlı müxtəlif subyektlər arasında yaranan orqanik kompleks ictimai münasibətlər – tibb münasibətləri beynəlxalq tibb hüququnun tənzimləmə predmetini təşkil edir.

Beynəlxalq tibb münasibətləri öz məzmununa görə son dərəcə müxtəlifdir. Belə ki, həmin münasibətlər beynəlxalq tibb əməkdaşlığının digər sahələrində yarana bilər. Bu baxımdan, yəni **məzmununa görə** beynəlxalq tibb münasibətlərini aşağıdakı növlər (qruplar) özrə fərqləndirmək mümkündür:

-beynəlxalq tibb elmi sahəsində həyata keçirilən əməkdaşlıq münasibətləri;

-təbii fəlakətlər, texnogen qəzalar və fövqəladə hallar zamanı insanların xilas edilməsi, əhalinin sağlamlığının qorunması ilə bağlı beynəlxalq münasibətləri;

-ayrı-ayrı kateqoriya şəxslərin (hərbi qulluqçular, əməkçi miqrantlar, əlillər, turistlər və s.) sağlamlığının qorunması ilə bağlı beynəlxalq tibb münasibətləri;

-beynəlxalq tibb maliyyə-kredit, sığorta və investisiya münasibətləri;

-beynəlxalq tibb sferasında əmək, sosial və əqli mülkiyyət münasibətləri;

- əczaçılıq fəaliyyəti, bioetika, tibbi xidmətlərin ixracı, xalq təbabəti, tibbi turizm və digər istiqamətlərdə yaranan beynəlxalq tibb münasibətləri;

-dünyada özəl tibb fəaliyyətinin kommersiyalaşdırılması münasibətləri;

-tibb fəaliyyəti sferasında beynəlxalq əməkdaşlıq münasibətləri və s.[1]

Göstərilən beynəlxalq tibb münasibətləri qrupu məcmu halında birləşərək BTH-nin nizamasalma predmetini təşkil edir. Elə buradaca, dərhal qeyd etməliyik ki, həmin münasibətlər, əsasən, dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında yaranır. Belə ki, beynəlxalq tibb münasibətlərində öz hüquqi statusuna və xarakterinə görə müxtəlif subyektlər iştirak edirlər; subyekt tərkibindən asılı olaraq,

[2] Ətraflı bax: Публичное медицинское право: учебное пособие / Е.Б. Лупарев, Е.В. Епифанова. – Краснодар: Кубанский государственный университет, 2021, 191 с.

[1] Ətraflı bax:Hüseynova F.E. Sağlamlığın qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı, ”Kooperasiya” nəşriyyatı, 2016, s.156-164.

həmin münasibətləri ənənəvi şəkildə **iki növ (qrup) halında** təsnifləşdirmək mümkündür:

-dövlətlərarası beynəlxalq tibb münasibətləri;

-qeyri-dövlətlararası beynəlxalq tibb münasibətləri.

Dövlətlərarası beynəlxalq tibb münasibətləri dedikdə dövlətlər arasında, habelə dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar arasında, eləcə də belə təşkilatların öz aralarında beynəlxalq tibb fəaliyyətinə dair əməkdaşlığın ayrı-ayrı sahələrində yaranan hakimiyyət xarakterli münasibətlər başa düşülür; bu münasibətlərin əsas və başlıca xüsusiyyəti ondan ibarətdir ki, onlar hakimiyyətlərarası, hakimiyyət xarakterli münasibətlərdir.[2] Ona görə ki, belə münasibətlər, bir qayda olaraq, hakimiyyət subyekti olan suveren dövlətlər arasında əmələ gəlir. **Dövlət** – hakimiyyət səlahiyyətinə malik olan siyasi təşkilatdır; o, hakimiyyət funksiyasını yerinə yetirir. Məhz bu səbəbdən dövlətlər arasında yaranan istənilən münasibət hakimiyyət xarakteri daşıyır.

Hökumətlərarası beynəlxalq təşkilatlara gəldikdə, qeyd etməliyik ki, belə təşkilatların üzvləri, əsasən və başlıca olaraq, dövlətlərdən ibarət olur. Üzv olmaqla dövlətlər öz suveren hakimiyyət səlahiyyətlərinin bir qismini həmin təşkilatlara verirlər.[3] Buna görə də, hökumətlərarası beynəlxalq təşkilatların öz aralarında, habelə onlarla dövlətlər arasında yaranan hər hansı münasibət, o cümlədən tibb fəliyyəti sahəsindəki münasibətlər hakimiyyət xarakterinə malik olur.

Digər tərəfdən, hər bir hökumətlərarası beynəlxalq təşkilat dövlətlərin birlik formasıdır.[1] Buna görə də, bu kimi təşkilatların iştirak etdikləri münasibətlər (bu təşkilatların öz aralarında, eləcə də həmin təşkilatlarla dövlətlər arasında yaranan münasibətlər), mahiyyətcə, dövlətlərarası münasibətlərdir.

Dövlətlərarası beynəlxalq tibb münasibətləri də üç növə (qrupa) **ayrılır**:

-dövlətlərin öz aralarında yaranan beynəlxalq tibb münasibətləri;

---

[2] Мюллерсон Р.А. Коллизионные и отсылочные нормы в регулировании международных отношений // Вестник МГУ. Серия 11. Право, 1983, № 5, с.46.

[3] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с.63.

[1] Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.29.

-dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar arasında yaranan beynəlxalq tibb münasibətləri;

-hökumətlərarası beynəlxalq təşkilatların öz aralarında yaranan beynəlxalq tibb münasibətləri.

Dövlətlərarası beynəlxalq tibb münasibətləri beynəlxalq tibb hüququ ilə tənzimlənir; onu **beynəlxalq publik tibb hüququ** da adlandırmaq olar . Buna görə də, onun nizamasalma predmeti yalnız dövlətlərarası beynəlxalq publik tibb münasibətlərindən ibarətdir.

Qeyri-dövlətlərarası beynəlxalq tibb münasibətlərinə gəldikdə isə, qeyd etməliyik ki, bu münasibətlərə beynəlxalq tibb sahəsində xüsusi (mülki) münasibətlər deyilir; həmin münasibətlər qeyri-hakimiyyət xarakteri daşıyır [2] və **beynəlxalq xüsusi tibb hüququ** ilə tənzimlənir.

Beynəlxalq tibb münasibətləri hüquqi məkan, hüquqi qüvvədəolma meyarı baxımından, **iki növə** bölünür: universal beynəlxalq tibb münasibətləri (məsələn, ümumdünya miqyasında yaranan beynəlxalq tibb münasibətləri), regional beynəlxalq tibb münasibətləri (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, MDB və s. regionlar üzrə tibbi fəaliyyət sferasında həyata keçirilən əməkdaşlıqla bağlı yaranan münasibətlər). Beynəlxalq tibb münasibətlərini həm də konkret **tibbi fəaliyyət növləri** üzrə həyata keçirilən beynəlxalq tədbirlərə görə təsnifləşdirmək olar: məsələn, həkim-kadr hazırlığı üzrə beynəlxalq tibb münasibətləri, təcrübə mübadiləsi və qabaqcıl müalicə metodlarının öyrənilməsi üzrə beynəlxalq tibb münasibətləri, səhiyyə sektorunda müasir innovasiya və yüksək texnologiyaların tətbiq edilməsi ilə bağlı yaranan beynəlxalq tibb münasibətləri və s.

Beynəlxalq tibb fəaliyyəti sahəsində yaranan xüsusi (mülki) tibb münasibətləri dedikdə ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri (həkimlər, özəl tibb təşkilatları, ictimai tibb birlikləri, tibbi assossiasiyalar və s.), habelə onlarla xarici dövlət və beynəlxalq tibb təşkilatları, federasiyaları arasında yaranan xüsusi

[2] Мюллерсон Р.А. О соотношении международного публичного, международного частного и национального права // Советское государство и право, 1982, № 2, с.78-89.

(mülki) münasibətlər başa düşülür; bu münasibətlər beynəlxalq xüsusi tibb hüququ ilə tənzimləndiyindən onun nizamasalma predmetinə daxil olur.

Beləliklə, beynəlxalq tibb hüququna **iki aspektdən** yanaşmaq lazımdır:

-birinci, beynəlxalq publik tibb hüququ kimi;

-ikinci, beynəlxalq xüsusi tibb hüququ kimi.

Beynəlxalq **publik tibb hüququnun nizamasalma predmetini** dövlətlər arasında, habelə dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar arasında yaranan hakimiyyət xarakterli beynəlxalq tibb münasibətləri təşkil edir. O, beynəlxalq tibb fəaliyyəti sahəsində dövlətlərarası qarşılıqlı münasibətləri tənzimləyir. Məsələn, 2019-cu ildən Yer planetində geniş yayılmış "COVİD-19" pandemiyasına qarşı ÜST tərəfindən həyata keçirilən beynəlxalq tibb tədbirləri ilə əlaqədar dövlətlər arasında yaranan münasibətlər hakimiyyət xarakterli beynəlxalq publik tibb münasibətləridir və buna görə də, həmin münasibətlər beynəlxalq publik tibb hüququnun nizamasalma predmetini təşkil edir.[1]

Beynəlxalq **xüsusi tibb hüququnun nizamasalma predmetini** isə beynəlxalq tibb fəaliyyəti prosesinin iştirakçıları (pasiyentlər, həkimlər, tibb bacıları, tibb mütəxəssisləri və s. şəxslər) arasında yaranan qeyri-hakimiyyət xarakterli beynəlxalq xüsusi tibb münasibətləri təşkil edir. Qeyri-hakimiyyət xarakterli beynəlxalq xüsusi tibb münasibətləri dedikdə isə xarici elementli (beynəlxalq elementli) tibbi xidmət öhdəlikləri başa düşülür ki, bu öhdəliklərdə fiziki şəxslər, özəl hüquqi şəxslər və/və ya dövlət iştirak edir. Məhz bu öhdəliklər beynəlxalq xüsusi tibb hüququnun nizamasalma predmetini təşkil edir.

1.2.3.Beynəlxalq tibb hüququnun metodu

Hər şeydən əvvəl, qeyd etməliyik ki, beynəlxalq hüquq doktrinasına görə, istənilən hüquqi qurumun (sahə, yarımsahə, institut və s.) özünün ayrıca, yəni özünəxas **hüquqi tənzimetmə metodu** (yunanca "methodes" - üsul) olmalıdır.

[1] Ətraflı bax: Aynurə Əliyeva, Fatimə Hüseynova, Etibar Əliyev. Azərbaycanda "COVİD-!9" pandemiyası: tibbi və hüquqi aspektlər // "Hüquqi müstəvi" elmi-nəzəri,təcrübi jurnal. Bakı, 2020, № 4, s.65-76.

Hüquqi tənzimetmə metodu dedikdə elə üsul və vasitələr başa düşülür ki, həmin üsul və vasitələrin köməyi ilə hüquq ictimai münasibətlərə təsir göstərir.[1] Düzdür, bu şərt həlledici amil olmasa da, hüquqi qurumun ayrı-ayrı tərkib hissələrə bölünməsinin əsas meyarlarından və əlamətlərindən biridir.

Beynəlxalq tibb hüququnun əsas anlayışlarından biri onun **nizamasalma metodu** hesab edilir. Lakin, buna baxmayaraq, müasir dövrün beynəlxalq hüquq elmində (doktrinada) bu məsələ kifayət dərəcədə öyrənilməmiş və demək olar ki, ümumiyyətlə, ətraflı elmi-əsaslandırılmış kontekstdə tədqiq edilməmişdir. Beynəlxalq tibb hüququn nizamasalma metodu onun nizamasalma predmeti ilə sıx surətdə bağlıdır; onlar arasında qarşılıqlı dialektik əlaqə mövcuddur. Belə ki, beynəlxalq tibb hüququnun nizamasalma metodu onun nizamasalma predmeti ilə şərtlənir; məhz beynəlxalq tibb hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinin konkret məzmunu beynəlxalq tibb hüququnun nizamasalma metodunu müəyyən edir.

Qeyd etmək lazımdır ki, hüquqi tənzimetmə metodu – cəmiyyətdə insanların davranışına təsir göstərmək metodudur və o, ictimai münasibətlərin hüquqi tənzimlənməsinə dair hüquqi vasitə və üsulların məcmusundan ibarətdir. Başqa sözlə desək, **inzibati idarəetmənin metodu** idarəetmənin məqsəd və vəzifələrinə nail olmaq üçün inzibati idarəetmə subyektlərinin inzibati idarəetmə obyektinə göstərdiyi təsir üsuludur.[2] Tibb hüququnun metodu, şübhəsiz ki, inzibati hüquq metodundan törəmə olsa da, öz təsiretmə hüdudlarında müəyyən spesifik cəhətlərə malikdir.

Beynəlxalq tibb hüququnun **özünəxas metodunun mahiyyəti** onun predmeti ilə şərtlənir, ikinci dərəcəli əhəmiyyət kəsb edir, predmetdən asılı olub, ondan törəyir. Hüququn predmeti obyektiv məzmuna malik olmaqla, prinsip etibarilə, qanunvericinin iradəsindən asılı deyildir. Metod isə, predmetdən fərqli olaraq, subyektiv xarakter daşıyır. Belə ki, nizama salınan münasibətlərin xarakteri və

[1] Bu barədə ətraflı bax: Allahverdiyev S.S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik. Bakı, 2018, s.141-142.
[2] Ətraflı bax: Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. İnzibati hüquq, Dərslik. Bakı, 2008, s.122.

təbiəti bu və ya digər metoddan istifadə olunmasına əsas verir. Metod qanunvericinin iradəsindən mühüm dərəcədə asılıdır. Metod predmetlə sıx surətdə bağlı və qarşılıqlı əlaqədə olmaqla, birlikdə beynəlxalq tibb hüququnun hüquqi qurum kimi ayrılması üçün əsas rol oynayır, beynəlxalq tibb hüquq sisteminin strukturunun qurulmasında və formalaşmasında vacib əhəmiyyət kəsb edir.

Beynəlxalq tibb hüququnun nizamasalma metodu dedikdə beynəlxalq tibb hüququnun tənzimetmə predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinə onun göstərdiyi təsir üsulları (vasitələri) başa düşülür. Başqa sözlə desək, tibb fəaliyyəti sahəsində şəxslərin üzərinə onların aktiv davranışına dair vəzifələrin qoyulması (pozitiv məcburetmə, sərəncamvermə), sərbəst hərəkət etmələrinə aid hüquqların verilməsi (icazəvermə, səlahiyyətvermə) və hüquqazidd əməllərin törədilməsindən çəkinmək öhdəliyinin qoyulması (qadağanetmə) üzrə ictimai münasibətlərin hüquqi tənzimlənməsinin hüquqi vasitə və üsullarının məcmusu sözügedən hüquqi qurumun nizamasalma metodunu təşkil edir.

Tibb hüququnda yuxarıda göstərdiyimiz **hüquqi tənzimetmə üsulları** müxtəlif proporsiya və nisbətdə həyata keçirilməklə yanaşı, əsas tənzimləyici funksiyanı qadağanedici normalar yerinə yetirir. Bu o deməkdir ki, qadağanedici normalar tibb fəaliyyəti sahəsində subyektlərin davranışına təsir göstərmək üsulu kimi əsas və başlıca yer tutsa da, eyni zamanda, digər təsir üsulları kimi müəyyən dərəcədə mühafizəedici rola da malikdir.

Qadağan – subyektlərin müəyyən əməllərdən çəkinməsini nəzərdə tutan "passiv" hüquqi vəzifədir və o, müəyyən şəxslərin üzərinə tibb-hüquq pozuntularının törədilməsindən çəkinmək vəzifəsi qoyur və buna görə də, tibb fəaliyyəti sahəsində şəxslərin (fiziki və hüquqi şəxslərin) davranışını tənzimləyir. Hüquqi qadağanlar tibb hüququnun predmetini təşkil edən ictimai münasibətlərin reqlamentləşdirilməsində vacib rol oynayır.

Beləliklə, qeyd etmək lazımdır ki, tibb hüququnun özünəməxsus metodunun formalaşmasında mərkəzi yer tutan qadağanedici normalar, daha doğrusu, tənzimləyici-qadağanedici normalar müəyyənedici (sərəncamverici) və icazəverici normalardan təcrid edilmiş halda deyil, onlarla birlikdə fəaliyyət göstərir. Bu hüquqi

vasitə və üsulların sistemi və məcmusu bütövlükdə tibb hüququnun özünəxas **vahid metodunu** yaradır.

Beynəlxalq-hüquqi tənzimetmənin necə həyata keçirilməsi, tənzimetmə zamanı hansı üsullardan, hüquqi vasitələrdən istifadə edilməsi və lazımi hüquqi nəticənin necə əldə olunması beynəlxalq tibb hüququnun nizamasalma metodu anlayışının **mahiyyətini** təşkil edir.

Beynəlxalq tibb hüququnun nizamasalma metodunun **növləri** barədə məsələyə nəzər salaq. Belə ki, beynəlxalq tibb hüququnun nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq tibb münasibətlərinin əhatə dairəsi kifayət qədər genişdir; bu münasibətlər tibb fəaliyyəti sferasında dövlətlərarası beynəlxalq əməkdaşlığın ayrı-ayrı istiqamətlərində (xarici səhiyyə-tibb əlaqələri, profilaktik müalicə və qarşılıqlı yardım, iqtisadi, ekologiya, təhlükəsizlik, humanitar, cinayətkarlıqla mübarizə, insan hüquqlarının qorunması və s.) yaranır. Məzmunca müxtəlif olduğuna görə həmin münasibətlərə, təbii ki, hüquqi nizamasalma metodunun müxtəlif növləri tətbiq edilir; həm də ona görə ki, dövlətlərarası beynəlxalq sistem iştirakçıları arasındakı qarşılıqlı münasibətlər mürəkkəb xarakterə malikdir. Odur ki, tibb fəaliyyəti sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək üçün beynəlxalq tibb hüququnun nizamasalma metodunu müxtəlif əsaslara görə təsnif etmək mümkündür.

Dövlətlərarası münasibət iştirakçıları üçün **hüquq və vəzifələr müəyyənləşdirmək üsuluna** görə, beynəlxalq publik hüquqda olduğu kimi,[1] beynəlxalq tibb hüququnun da nizamasalma metodunun **iki növü** fərqləndirilir:

-saziş metodu;

-adət metodu.

Beynəlxalq müqavilə vasitəsi ilə tibb fəaliyyəti sferasında dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün müvafiq hüquq və vəzifələrin müəyyənləşdirilməsi **saziş metodunun** mahiyyətini təşkil edir. Əgər sözügedən

[1] Beynəlxalq hüququn nizamasalma metodu və onun növləri barədə ətraflı bax:Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə.I cild.Ümumi hissə. Bakı,2018, s.67-78.

sferada münasibət iştirakçıları üçün hüquq və vəzifələr müəyyənləşdirilərsə, deməli, həmin münasibət hüquqi cəhətdən tənzimlənir. Bu zaman beynəlxalq müqavilə göstərilən münasibət iştirakçıları üçün müvafiq münasibətləri hüquqi tənzimetmənin üsulu (metodu) kimi çıxış edir. Bu, beynəlxalq tibb hüququnun nizamasalma metodunun əsas növü sayılır.

Adət metodunun mahiyyəti beynəlxalq-hüquqi adətlər vasitəsi ilə tibb fəaliyyəti sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün hüquq və vəzifələrin müəyyənləşdirilməsindən ibarətdir. Belə ki, nəzəri cəhətdən, beynəlxalq-hüquqi adət beynəlxalq tibb hüququnun nizamasalma predmetinə daxil olan münasibətləri tənzimləməkdən ötrü tətbiq edilə bilən üsuldur.

Beynəlxalq tibb hüquq normalarında təsbit edilməsindən asılı olaraq, beynəlxalq tibb hüququnun nizamasalma metodunun **üç növü** mövcuddur:

-icazə metodu;

-məcburetmə metodu;

-qadağanetmə metodu.

Qeyd edək ki, beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində tənzimetmə üsuluna (metoduna) görə, beynəlxalq publik hüquq normaları müəyyənləşdirdiyi **hüquq və vəzifələrin xarakterindən** asılı olaraq, üç növə bölünür:[1]

-səlahiyyətverici beynəlxalq hüquq normaları;

-məcburedici beynəlxalq hüquq normaları;

-qadağanedici beynəlxalq hüquq normaları.[2]

Bu cür elmi-nəzəri bölgünü eynilə beynəlxalq tibb hüququna da tətbiq etmək mümkündür. **Səlahiyyətverici beynəlxalq tibb hüquq normaları** dedikdə tibb fəaliyyəti sferasında dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən fəaliyyəti həyata keçirmək hüququ verən normalar başa düşülür. Məsələn, dövlətlərə qarşılıqlı razılıq əsasında beynəlxalq tibb tədbirlərinin həyata keçirilməsi

[1] Мясялян, бах: Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.112; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2009, с.129 вя б.

[2] Beynəlxalq xüsusi hüquq normalarının əsas xüsusiyyətləri barədə bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. II nəşr. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı, 2021, s.118-139.

üçün infrastruktur obyektlərindən istifadə etmək hüququ verən norma səlahiyyətverici beynəlxalq tibb hüquq normasıdır. **İcazə metodu** da məhz səlahiyyətverici beynəlxalq tibb hüquq normaları vasitəsi ilə tətbiq edilir. Qeyd etməliyik ki, icazə, mahiyyətcə, ictimai münasibətləri tənzimetmə üsullarından (metodlarından) biridir. Belə ki, tibb fəaliyyəti sahəsində beynəlxalq münasibət iştirakçılarına müəyyən fəaliyyəti həyata keçirməyə icazə vermək yolu ilə beynəlxalq tibb hüququ həmin münasibətləri tənzimləyir.

Məcburedici beynəlxalq tibb hüquq normaları dedikdə müəyyən hərəkətlərin edilməsinə yönəlmiş vəzifələr müəyyənləşdirən hüquq normaları başa düşülür; belə normalar göstərir ki, tibb fəaliyyəti sferasında dövlətlərarası beynəlxalq münasibət iştirakçıları necə davranmalı və qarşıya qoyulan məqsədə çatmaq üçün hansı hərəkətləri etməlidirlər. Məsələn, beynəlxalq tibb tədbirlərinin həyata keçirilməsi zamanı təhlükəsizliyin təmin edilməsi və ya digər infeksion xəstəliklərin yayılma riski barədə xəbər verilməsi haqqında norma məcburedici beynəlxalq tibb hüquq normasıdır. **Məcburetmə metodu** da məhz məcburedici beynəlxalq tibb hüquq normaları vasitəsi ilə tətbiq olunur. Təsadüfi deyil ki, məcburetmə, mahiyyətcə, tənzimetmənin metodlarından (üsullarından) biri sayılır.

Qadağanedici beynəlxalq tibb hüquq normaları dedikdə tibb fəaliyyəti sferasında dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etməyi yasaqlayan normalar başa düşülür. Məsələn, həkim personalı tərəfindən sağlamlığa zərər vuran hərəkətlərin qəsdən edilməsini, pasiyentlər arasında irqi, dini, milli, etnik, sosial və digər əlamətlərə görə ayrı-seçkiliyə yol verilməsini, başqa dövlətlərin daxili işlərinə qarışmağı, qadağan olunmuş dərman vasitələrinin tətbiqini və sairə halları yasaq edən normalar qadağanedici beynəlxalq tibb hüquq normalarına aiddir. **Qadağanetmə metodu** da məhz qadağanedici beynəlxalq tibb hüquq normalarının tətbiq olunmasını nəzərdə tutur. Qadağanetmə də, mahiyyətcə, tənzimetmə üsullarına (metodlarına) daxildir.

Xüsusilə, qeyd etməliyik ki, beynəlxalq tibb hüququ qadağanetmə, icazə və məcburetmə kimi tənzimetmə metodlarının sistemidir; bu sistem tibb fəaliyyəti sferasında dövlətlərarası münasibət iştirakçılarının iradə ifadəsi olub, onlar

tərəfindən həmin münasibətləri tənzimləmək üçün formalaşdırılmışdır. Həmin metodlar isə, müvafiq olaraq, beynəlxalq hüququn qadağanedici, səlahiyyətverici və məcburedici normalarında əks olunur.[1]

Eyni zamanda, hüquq ədəbiyyatı səhifələrində **normativ tənzimetmənin qətiliyi** baxımından, beynəlxalq tibb hüququnun nizamasalma metodunun iki növü fərqləndirilir: [2]

-imperativ metod;

-dispozitiv metod.

İmperativ tənzimetmə metodu dedikdə beynəlxalq imperativ hüquq normaları vasitəsilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; beynəlxalq imperativ hüquq normaları isə dövlətlərarası beynəlxalq münasibət iştirakçıları üçün dəqiq və dürüst hakimiyyət davranış qaydaları müəyyən edir; onlar bu qaydalardan kənara çıxa bilməzlər. Məsələn, tibbi fəaliyyət sahəsində dövlətlər üçün müəyyənləşdirilmiş lisenziyalaşdırma, standartlaşdırma, sertifikatlaşdırma, habelə məcburi müalicə, tibbi müayinə və sanitar-profilaktik tədbirlərin təmin edilməsi barədə öhdəlik müəyyənləşdirən beynəlxalq tibb-hüquq normaları beynəlxalq imperativ hüquq norması sayılır. Bu metod, ilk növbədə, publik hakimiyyət-tibb münasibətləri üçün xarakterikdir.

Dispozitiv tənzimetmə metodu dedikdə beynəlxalq dispozitiv hüquq normalarının köməyi ilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; beynəlxalq dispozitiv hüquq normaları isə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına konkret haldan və yaranmış tibbi fəaliyyət situasiyasından asılı olaraq, istədikləri davranış variantını seçmək, özləri üçün qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirmək imkanı verir. Bu metod tibb-hüquq münasibətləri iştirakçılarının hüquq bərabərliyini nəzərdə tutur. Müasir dövrdə dispozitivliyə əsaslanan mülki hüquq münasibətləri daha çox insanlarla özəl tibb müəssisələri arasında yaranır. Həmçinin sanatoriya-kurort müalicə hüququ, donorluq və transplantasiya hüququ,

[1] Бах: Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.45.
[2] Məsələn, bax: Mustafazadə A.İ.,Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. Bakı,"Elm", 2017, s.9-11; Медицинское право России: учебник / отв. ред. А.А.Мохов. – Москва: Проспект, 2022, с.15-16.

tibbi eksperimentdə iştirak hüququ və s. bu kimi tibbi hüquqların reallaşdırılması prosesində yaranan ictimai münasibətlərin tənzimlənməsində dispozitivlik metodu tətbiq edilir.

Dövlətlərarası beynəlxalq münasibət iştirakçılarının maraq və məqsədi baxımından, beynəlxalq tibb hüququnda iki növ nizamasalma metodu tətbiq edilə bilər:

-subordinasiya tənzimetmə metodu;

-əlaqələndirmə (koordinasiya) tənzimetmə metodu.

Subordinasiya tənzimetmə metodu beynəlxalq hüquq üçün tipik və xarakterik olan nizamasalma üsuludur. Ona görə ki, subordinasiya tənzimetmə metodu iyerarxiya qaydasında hakimiyyət xarakterli məcburiyyət-tabeçilik nizamasalma üsuludur; bu üsul tərəflər arasında hüquqi statusa görə tabeçilik və iyerarxiya asılılığı olan münasibətləri tənzimləmək üçün tətbiq edilir (məsələn, Avropa İttifaqı çərçivəsində tətbiq olunur).

Beynəlxalq tibb hüququ ilə tənzimlənən dövlətlərarası beynəlxalq tibb münasibətlərinin, o cümlədən müxtəlif beynəlxalq tibb təşkilatlarının iştirakçıları arasında isə nə asılılıq, nə də tabeçilik vardır; həmin münasibətlər hüquqca bərabər olan iştirakçılar arasında yaranır. Buna görə də, beynəlxalq tibb hüququ üçün **əlaqələndirmə (koordinasiya) tənzimetmə metodu** xarakterikdir; həm də ona görə ki, beynəlxalq hüquq koordinasiya xarakterli hüquqdur.

Göstərilənlərdən başqa, beynəlxalq tibb hüququnda tənzimetmə metodunun **aşağıdakı növlərindən** də istifadə oluna bilər:

-birtərəfli tənzimetmə metodu;

-ikitərəfli tənzimetmə metodu;

-çoxtərəfli tənzimetmə metodu.

Birtərəfli tənzimetmə metodunun mahiyyəti bundan ibarətdir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları birtərəfli qaydada öz üzərlərinə hər hansı beynəlxalq-hüquqi öhdəlik götürürlər. Beynəlxalq hüquq praktikası göstərir ki, bu metodu, əsasən, dövlətlər tətbiq edirlər. Birtərəfli tənzimetmə metodu

həm də dövlətlərin birtərəfli aktı formasında tətbiq oluna bilər.[1] Belə aktlar, mahiyyətcə, məcburi davranış qaydaları müəyyən edir və buna görə də, onlar beynəlxalq-hüquqi əhəmiyyətə malik olur.

İkitərəfli tənzimetmə metodu dövlətlərarası / hökumətlərarası beynəlxalq tibb münasibətlərinin iki iştirakçısı arasındakı qarşılıqlı əlaqələrə tətbiq olunur; bu metod beynəlxalq tibb hüququnun başlıca tənzimetmə metodu sayılır.

Çoxtərəfli tənzimetmə metodu dövlətlərarası beynəlxalq tibb münasibətlərinin çoxsaylı iştirakçıları arasında yaranan qarşılıqlı əlaqələrə tətbiq edilir. Bu cür tənzimetmə metodu, əsasən, beynəlxalq səhiyyə-tibb təşkilatları (məsələn, BMT-nin ixtisaslaşdırılmış təsisatı kimi ÜST, BHTK və s.), yaxud beynəlxalq tibbi assosiasiya və federasiyalar (məsələn, Dünya Tibbi Hüquq Assosiasiyası, Beynəlxalq Əlillər Federasiyası, Dünya Stomatologiya Federasiyası və s.), eləcə də qitə və regional tibbi təşkilatlar, yaxud birliklər (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, MDB, TDT və s.) səviyyəsində həyata keçirilir; həmin metod ya universal səviyyədə (universal çoxtərəfli tənzimetmə metodu), ya da regional səviyyədə (regional çoxtərəfli tənzimetmə metodu) tətbiq edilə bilər.

Hansı normaların köməyi ilə nizamlamasından asılı olaraq, beynəlxalq tibb hüququnda tənzimetmə metodunun iki növünü fərqləndirmək mümkündür:

-beynəlxalq-hüquqi tənzimetmə metodu;

-siyasi-mənəvi tənzimetmə metodu.

Beynəlxalq-hüquqi tənzimetmə metodu dedikdə beynəlxalq tibb hüquq normaları vasitəsilə tətbiq olunan nizamasalma üsulu başa düşülür. Beynəlxalq tibb hüququ öz tənzimlədiyi dövlətlərarası səhiyyə-tibb münasibətlərinə beynəlxalq müqavilə normaları vasitəsilə tətbiq olunan tənzimetmə metodu ilə, xüsusilə, təsir göstərir. Bununla yanaşı, dövlətlərarası tibb münasibətlərinin hüquqi tənzimetmə mexanizmində beynəlxalq-adət hüquq normaları da əhəmiyyətli rol oynayır.

Siyasi-mənəvi tənzimetmə metodu dedikdə beynəlxalq tibb hüquq normaları sayılmayan davranış qaydaları vasitəsilə həyata keçirilən nizamasalma

[1] Daha ətraflı: Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.123-128.

üsulu başa düşülür. Beynəlxalq tibb hüquq normaları sayılmayan davranış qaydalarına isə, ilk növbədə, siyasi-mənəvi normalar aiddir. Siyasi-mənəvi normalar dedikdə "mülayim hüquq" kateqoriyasına aid normaları başa düşülür.

Qeyd etmək lazımdır ki, son zamanlar "mülayim hüquq" kimi konsepsiya inkişaf etmişdir. **"Mülayim hüquq"**[1] dedikdə məcburi hüquqi qüvvəsi olmayan və beynəlxalq müqavilə sayılmayan tövsiyə xarakterli beynəlxalq aktlar (beynəlxalq təşkilat və orqanların qətnamələri, birgə bəyanatlar, konfransların qərarları, rəsmi məlumatlar və s. aktlar) başa düşülür. Belə sənədlər beynəlxalq-normativ hüquqi aktlar hesab edilmir; həmin sənədlərdə beynəlxalq hüquq normaları deyil, siyasi-mənəvi normalar ifadə olunur. Buna görə də, onlar məcburi hüquqi qüvvəyə malik deyillər. Lakin, buna baxmayaraq, "mülayim hüquq" normalarının praktikada böyük mənəvi-siyasi əhəmiyyəti vardır. Belə ki, həmin normalar məcburi hüquqi qüvvəsi olan beynəlxalq hüquq normaları ilə eyni dərəcədə tibb fəaliyyəti sahəsində dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına siyasi-mənəvi təsir etmək xüsusiyyətinə malikdir. Digər tərəfdən, "mülayim hüquq" normaları əsasında dövlətlərin müvafiq praktikası vasitəsilə **beynəlxalq-adət hüquq normaları** yarana bilər.[1]

"Mülayim hüquq" normalarının, xüsusilə, beynəlxalq səhiyyə-tibb təşkilatlarının (assosiasiya, federasiya, ittifaq, cəmiyyət və s. ictimai birliklərin) fəaliyyəti üçün vacib əhəmiyyəti vardır; beynəlxalq səhiyyə-tibb təşkilat və orqanlarının fəaliyyəti sayəsində isə beynəlxalq tibb münasibətlərinin geniş dairəsi tənzimlənir."Mülayim hüquq" normaları vasitəsilə həyata keçirilən tənzimetmə metodu **tövsiyə xarakterli nizamasalma** üsuludur; o, siyasi-mənəvi nizamasalma metodu hesab edilir.

Bununla yanaşı, BTH özünəməxsus **xüsusi tənzimetmə metodlarına** malikdir ki, onlar beynəlxalq tibb hüququnda tətbiq edilən və yuxarıda adını

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu.Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. I cild. Ümumi hissə. Bakı, 2018, s.76-78; Shelton D. Normative Hierarchy in International Law // American Journal of International Law. Vol.100, 2006, № 2, p.292; щямчинин URL:http://www.en.m.wikipedia.org (02.10.2022-ci il).

çəkdiyimiz ümumi metodları tamamlayır. Bu kontekstdə BTH-nin xüsusi metodları sırasında aşağıdakıları **fərqləndirmək mümkündür**:

-beynəlxalq səhiyyə-tibb təşkilatlarının, o cümlədən universal, regional və milli tibb assosiasiyalarının, komitə, federasiya, ittifaq və inteqrasiya birliklərinin yaradılması, habelə dövlətlər və milli tibb təşkilatları tərəfindən müvafiq hakimiyyət səlahiyyətlərinin bu orqanlara verilməsi, eləcə də tibb fəaliyyətini idarəetmədə monopolizmdən müdafiə olunma ;

-beynəlxalq tibb xidmətləri sferasında subyektlərin fəaliyyəti nəticəsində qarşılıqlı maraqlara nail olunmasına təsir göstərilməsinin məqsədəuyğunluğu;

-beynəlxalq səhiyyə-tibb hərəkatının cəmiyyətin birləşməsinə, bütövlükdə əhalinin sağlamlığının qorunmasına, ətraf mühitin mühafizəsinə, bəşəriyyətdə sülhün möhkəmləndirilməsinə və beynəlxalq əməkdaşlığa istiqamətlənməsi;

-tibbi xidmərlərin spesifik cəhətlərinin – siyasi, iqtisadi, sosial, kommersiya və s. eləcə də sağlamlıq, elmi-təhsil, informasiya, təşviqat, ictimailəşmə, rekreasiya və reabilitasiya funksiyalarının nəzərə alınması;

-tibbi fəaliyyət sferasında insan hüquq və azadlıqlarının təmin olunması, habelə beynəlxalq tibb sahəsində, tibbi biznesdə və tibb sənayesində rəqabətin həvəsləndirilməsi;

-düzgün tibbi xidmət göstərilməsi qaydalarının təmin edilməsi, dərman preparatlarının yersiz tətbiqinə qarşı mübarizə aparılması, tibb mübahisələrinin inzibati, mülki, mediasiya və məhkəmə mexanizmləri vasitəsilə tənzimlənməsi sisteminin dəstəklənməsi, habelə beynəlxalq tibbi etikanın ciddi gözlənilməsi və s. xüsusi metodlar.

Bir məqamı da, xüsusilə, qeyd etməliyik ki, tibbi fəaliyyət sferasında düzgün seçilmiş metod (və ya metodlar) daha **effektiv nəticələrə** nail olunmasına imkan yaradır. BTH isə, bütövlükdə, ölkələrdə beynəlxalq səhiyyə-tibb hərəkatının həyata keçirilməsinin effektiv təminolunma metodu kimi çıxış edir.

1.2.4.Beynəlxalq tibb hüququnun sistemi və statusu

Beynəlxalq tibb hüququnun sistemi beynəlxalq hüquq elmində (doktrinada) az tədqiq olunan və öyrənilən məsələlərdən biridir. Zənn edirik ki, bu, beynəlxalq tibb hüququnun hələ ki, təşəkkültapma mərhələsində olması və beynəlxalq hüququn tərkibində formalaşmaqda olan nisbətən **"cavan" struktur hissə** hesab edilməsi ilə bağlıdır. BTH-nin sistemi nəinki kifayət dərəcədə tədqiq edilməmiş, həmçinin mübahisə predmeti olan məsələdir və bununla bağlı elmi polemika bu gün də davam edir.[1] Belə ki, alimlərin bu məsələyə münasibəti birmənalı deyil.

Qeyd etmək lazımdır ki, BTH-nin nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq tibb münasibətləri yalnız beynəlxalq hüquq normaları ilə tənzimlənir; bu normalar xaotik və qarışıq şəkildə deyil, onlar arasında daxili qarşılıqlı dialektik əlaqə nəzərə alınmaqla, ayrı-ayrı hüquqi qurumlar üzrə düzlənirlər ki, bunun da nəticəsində beynəlxalq tibb hüququnun tamlığı və bütövlüyü təmin olunur. Beynəlxalq hüquq normalarının belə düzümü, onların hüquqi struktur tərkib (institut, yarıminstitut, subinstitut və s.) üzrə qruplaşdırılması beynəlxalq tibb hüququnun sistemini yaradır. Başqa sözlə, beynəlxalq tibb münasibətlərinin tənzimlənməsi prosesində mövcud hüquqi norma, qayda və əsasnamələrdən onların statuslarına görə müvafiq ardıcıllıqla istifadə olunması BTH-nin sistemini təşkil edir. BTH-nin sistemi həm də onu ifadə edir ki, dövlətlərarası beynəlxalq tibb münasibətlərini tənzimləyən beynəlxalq hüquq normaları bir-birinin ardınca müəyyən quruluş üzrə, sistemli şəkildə düzlənir.

Beynəlxalq tibb hüququnun sistemi dedikdə dövlətlərarası beynəlxalq tibb münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarının öz aralarında qarşılıqlı dialektik əlaqə nəzərə alınmaqla, onların institut, yarıminstitut, subinstitut və s. tərkib hissələr üzrə qruplaşdırılması başa düşülür.

---

[1] Ətraflı bax: məsələn, Məmmədov V.Q. Tibbi hüquq və bioetikanın Azərbaycan Respublikasında formalaşması və müasir inkişaf tendensiyaları // Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2022, 56 s.; Доника А.Д. Медицинское право: Европейские традиции и международные тенденции // Биоэтика. 2012, №2,с 59-62; Рубанова Н.А. Медицинское право как новая отрасль права // Наука и образование. 2010, №4, с.86-88; Радченко М.В. Медицинское право как составляющая гуманитарной отрасли права // Вестник Южно-Уральского государственного университета. Серия: Право, 2011, №6, с.81-83; Полубинская С.В. Медицинское право в современном государстве // Право и политика. 2013, №7, с 934-937 və başqaları.

BTH-nin nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq tibb münasibətlərinin eyninövlü olması elə normaların ayrılmasına imkan verir ki, həmin normaları istənilən dövlətlərarası beynəlxalq tibb münasibətlərini tənzimləməkdən ötrü tətbiq etmək mümkündür. Belə normaların məcmusu beynəlxalq tibb hüququnun ümumi hissəsi sayılır.

Beynəlxalq tibb hüququnun ümumi hissəsi dedikdə tibb fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərə dair ümumi məsələləri tənzimləyə bilən və ümumi qaydalar müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusu başa düşülür.

BTH-nin ümumi hissəsinin özü bir neçə struktur tərkib hissədən (hüquq institutu, yarıminstitut, subinstitut və s.) ibarətdir. Həmin tərkib hissələrə aiddir: ümumi müddəalar, hüquq subyektliyi, mənbələr, prinsiplər və s.

BTH-nin ümumi hissəsinə daxil olan normalar onun xüsusi hissəsi üçün ümumi əhəmiyyətə malikdir. Belə ki, xüsusi hissə ilə tənzimlənən ayrı-ayrı, konkret münasibətlər (məsələn, beynəlxalq tibb fəaliyyətinin həyata keçirilməsi, əczaçılıq, bioetika, xalq təbabəti, bu sahədə əqli mülkiyyət hüquqlarının qorunması, əmək, sosial, maliyyə, sığorta və digər istiqamətlərdə yaranan münasibətlər) hüquqi cəhətdən nizamlanan zaman həmin normalardan istifadə etmək mümkündür. Bu isə, əlbəttə, beynəlxalq tibb qanunvericiliyin həcmini xeyli dərəcədə azaldır, onun praktiki tətbiqini asanlaşdırır, dövlətlərarası beynəlxalq tibb münasibətlərin hüquqi cəhətdən eyni cür tənzimlənməsini təmin edir, beynəlxalq tibb hüququnun ayrı-ayrı struktur bölmələrində hüquq normalarının təkrarlanmasının qarşısını alır. Bunlar onu deməyə əsas verir ki, beynəlxalq tibb hüququnda ümumi hissə mühüm əhəmiyyətə malikdir.

BTH-nin nizamasalma predmetinə həm də elə münasibətlər daxildir ki, həmin münasibətlər özünəxas əlamətlərlə, spesifik cəhətlərlə xarakterizə olunur. Belə münasibətlər bu səbəbdən də, ümumi deyil, xüsusi (konkret) xarakterli münasibətlər hesab edilir. Buna görə də, BTH-nin nizamasalma predmetinə dövlətlərarası beynəlxalq tibb münasibətlərinin aşağıdakı növləri daxildir: tibbi fəaliyyətin beynəlxalq-hüquqi tənzimlənməsilə bağlı münasibətlər, beynəlxalq tibb maliyyə-

kredit, sığorta və investisiya münasibətləri, beynəlxalq tibb sferasında əmək, sosial və əqli mülkiyyət münasibətləri, əczaçılıq fəaliyyəti, bioetika, tibbi xidmətlərin ixracı, xalq təbabəti, tibbi turizm və digər istiqamətlərdə yaranan beynəlxalq tibb münasibətləri,ümumdünya miqyasında həyata keçirilən özəl tibb fəaliyyətinin kommersiyalaşdırılması münasibətləri, tibb fəaliyyəti sferasında beynəlxalq əməkdaşlıq münasibətləri və s. Bu münasibətlərdən hər biri, ayrıca olaraq, konkret beynəlxalq hüquq normaları ilə tənzimlənir. Həmin normaların məcmusu beynəlxalq tibb hüququnun xüsusi hissəsi adlanır.

Beynəlxalq tibb hüququnun xüsusi hissəsi dedikdə onun nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq tibb münasibətlərini tənzimləyən konkret növ beynəlxalq hüquq normalarının sistemi və ya məcmusu başa düşülür. BTH-nin xüsusi hissəsi onunla tənzimlənən dövlətlərarası beynəlxalq tibb münasibətlərinin konkret növlərinə uyğun olaraq, bir neçə struktur hissələrə bölünür. Həmin hüquqi qurumlar BTH-nin xüsusi hissəsinin ayrılmaz tərkibləridir.

Qeyd etməliyik ki, göstərdiyimiz hüquqi qurumlar ümumi nizamasalma predmetinə (obyektinə), ümumi məqsəd və prinsiplərə malik olan vahid beynəlxalq hüquq sahəsinin strukturu olan BTH-də tam və bütöv halda birləşir; birləşməklə bərabər, onlar arasında sıx bağlılıq və əlaqə vardır. Başqa sözlə, BTH-nin tərkib elementləri bir-biri ilə qırılmaz surətdə bağlıdır.[1]

Beləliklə, BTH-nin sistemini təşkil edən beynəlxalq hüquq normaları (məsələn, əhalinin sağlamlığının qorunması, insan hüquqlarının mühafizəsi, yaşamaq hüququnun təmin olunması, tibbi sığorta, fiziki şəxslərin özəl tibbi kommersiya fəaliyyəti, azad tibbi sahibkarlıq fəaliyyəti və s. ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normaları), məzmunca, **insan hüquqları kateqoriyasına** malik olmaqla, onların bir qismi ümumi hissəyə, digər qismi isə xüsusi hissəyə daxildir. Buna görə də, qeyd edə bilərik ki, beynəlxalq hüququn

[1] Bu məsələlərə, qismən də olsa, toxunulur: bax, "Tibbi hüququn aktual problemləri" tədris fənninin magistr təhsil pilləsi üçün Proqramı / Tərtib edənlər: Rzayeva G.A., Sadıqova T.R. Bakı, BDU, 2022,16 c.

müstəqil sahəsi olan beynəlxalq insan haqları hüququnun [2] tərkibində BTH yarımsahə statusuna malikdir və **onun sistemi iki hissəyə** bölünür:

-ümumi hissə;

-xüsusi hissə.

Eyni zamanda, fikrimizcə, BTH-nin sisteminə - həm ümumi hissəyə, həm də xüsusi hissəyə daxil olan hüquqi qurumlar elmi-nəzəri cəhətdən BTH-nin institutları, yarıminstitutları və ya subinstitutları adlanır. Lakin, tibb hüququ sahəsində çalışan əksər hüquqşünas alimlər tərəfindən bu məsələnin hələlik ətraflı, geniş formatda və qəti şəkildə araşdırılması müşahidə olunmur. Buna görə də, beynəlxalq tibb hüququnun sistemini tədqiq etmək və öyrənmək müasir dövrdə beynəlxalq hüquq elminin (doktrinanın) qarşısında duran ən vacib vəzifələrdən biri sayılır.

Beynəlxalq hüquq, beynəlxalq insan haqları hüququ, beynəlxalq tibb hüququ və beynəlxalq xüsusi (mülki) hüquq arasındakı **qarşılıqlı əlaqəyə** diqqət yetirək.

Beynəlxalq hüquq dedikdə dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür. Beynəlxalq hüququn ibarət olduğu hüquq normaları (beynəlxalq hüquq normaları) həm də dövlətlərarası beynəlxalq tibb münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir; belə funksiyanı yerinə yetirən beynəlxalq hüquq normalarının məcmusu beynəlxalq tibb hüququ adlanır. Bu isə, onu göstərir ki, beynəlxalq hüquqla beynəlxalq tibb hüququ arasında sıx, qırılmaz əlaqə və bağlılıq mövcuddur. Fəlsəfi planda onlar arasında münasibət **təkcə (xüsusi) və ümumi kateqoriyalar** arasındakı əlaqə kimidir. Belə ki, əgər fəlsəfi nöqteyi-nəzərdən beynəlxalq hüquq ümumidirsə, beynəlxalq tibb hüququ təkcədir, xüsusidir.

Fəlsəfi baxımdan, beynəlxalq hüquqla beynəlxalq tibb hüququ arasındakı münasibət **tam və hissə** kimi fəlsəfi kateqoriyalar arasındakı əlaqənin eynidir. Belə ki, əgər beynəlxalq hüquq tamdırsa, beynəlxalq tibb hüququ tamın, yəni beynəlxalq

[2] Beynəlxalq insan haqları hüququn beynəlxalq hüququn müstəqil sahəsi olması barədə ətraflı bax: məsələn, Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild. Xüsusi hissə. Bakı, 2018, s.233-293.

hüququn bir hissəsidir; hüquqi aspektdən yanaşsaq, BTH, qeyd etdiyimiz kimi, beynəlxalq hüququn müstəqil sahələrindən biri olan beynəlxalq insan haqları hüququnun yarımsahəsidir.

Beynəlxalq hüquqla beynəlxalq insan haqları hüququ və beynəlxalq tibb hüququ arasında **sıx əlaqənin mövcud olması**, hər şeydən əvvəl, bunda ifadə olunur ki, BTH-nin nizamasalma predmetinə daxil olan ictimai münasibətlər – dövlətlərarası beynəlxalq insan hüquqları, o cümlədən tibb münasibətləri **beynəlxalq hüquq normaları** ilə nizamlanır. Beynəlxalq tibb münasibətləri isə, əvvəllərdə qeyd etdiyimiz kimi, öz məzmun etibarilə, insan hüquqları xarakterinə malikdir və beynəlxalq insan hüquq münasibətlərinin bir növüdür. Hüquq nəzəriyyəsindən məlum olduğu kimi, dövlətlərarası beynəlxalq insan hüquq münasibətləri isə yalnız beynəlxalq hüquq normaları ilə tənzimlənə bilər.[1]

Beynəlxalq hüquqla beynəlxalq insan haqları hüququ və onun tərkib hissəsi olan beynəlxalq tibb hüququ arasında sıx əlaqə, qarşılıqlı ünsiyyət [2] həm də bunda ifadə olunur ki, **beynəlxalq hüququn prinsipləri** beynəlxalq insan haqları hüququ üçün vacib əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq insan haqları hüququnun nizamasalma predmetinə daxil olan münasibətlər, o cümlədən tibb münasibətləri tənzimlənərkən həmin prinsiplər nəzərə alınır.

Beynəlxalq hüquqla beynəlxalq insan haqları hüququ arasında əlaqənin mövcudluğundan danışarkən nəzərə almalıyıq ki, müasir dövrdə beynəlxalq tibb hüququ, zənnimizcə,beynəlxalq insan haqları hüquq sistemində formalaşmaqdadır, beynəlxalq insan haqları hüququ isə, məlum olduğu kimi, beynəlxalq hüququn ayrılmaz möstəqil tərkib hissədir.

Beynəlxalq tibb hüququ beynəlxalq insan haqları hüququ və beynəlxalq xüsusi (mülki) hüquqla da bağlıdır. Onları birləşdirən cəhət, hər şeydən əvvəl, bundan ibarətdir ki, həm beynəlxalq insan haqları hüququ, həm beynəlxalq tibb

[1] Bu barədə ətraflı bax: məsələn, Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, "Nurlar" nəşriyyatı, 2019, 352 s.; Права человека. Учебник. Отв. ред. Е. А. Лукашева. 2-е изд., перераб. М., НОРМА, 2009, 560 с. və b.

[2] Bu barədə qismən də olsa bax: Aslanov Z.N. Sağlamlığın qorunması hüququ insan və vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi / Z.N.Aslanov.Bakı: Elm və təhsil, 2019, 182 s.

hüququ, həm də beynəlxalq xüsusi hüquq aidiyyəti üzrə beynəlxalq insan hüquqları ilə bağlı münasibətləri, o cümlədən tibb münasibətlərini **tənzimləmək funksiyasını** yerinə yetirir. Onların hər birinin də nizamasalma predmetində **beynəlxalq insan hüquqları-tibb münasibətləri** vacib yer tutur.

Beynəlxalq insan haqları hüququ ilə (o cümlədən beynəlxalq tibb hüququ ilə) beynəlxalq xüsusi hüquq arasında əlaqə, digər tərəfdən, bunda ifadə olunur ki, həm beynəlxalq insan haqları hüququ, həm beynəlxalq tibb hüququ, həm də beynəlxalq xüsusi hüquq ilə tənzimetmənin əsasında beynəlxalq hüququn **eyni prinsipləri** durur.

Bununla yanaşı, onların arasında **fərqlər** də vardır; onlar, hər şeydən əvvəl, özlərinin **nizamasalma predmetinə** görə fərqlənirlər. Belə ki, beynəlxalq insan haqları hüququnun (söhbət həm də beynəlxalq publik tibb hüququndan gedir) nizamasalma predmetini dövlətlərarası beynəlxalq insan hüquqları (o cümlədən publik tibb hüquqları) ilə bağlı münasibətlər təşkil edir; sözügedən beynəlxalq münasibətlər ancaq ya dövlətlər, ya dövlətlərlə hökumətlərarası beynəlxalq təşkilatlar və yaxud da bu təşkilatların özləri arasında yarana bilər. Başqa sözlə, beynəlxalq insan haqları hüququnun nizamasalma predmetinə yalnız beynəlxalq hüququn subyektləri (dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar) arasında əməkdaşlıq sahəsində yaranan ictimai münasibətlər daxildir.

Belə ki, məlum olduğu kimi, beynəlxalq hüquq dövlətlərarası hüquqdur. Onda, təbii ki, beynəlxalq hüququn tərkib hissəsi olan beynəlxalq publik tibb hüququ da dövlətlərarası hüquq kimi tanınır. Bu isə, sözsüz, qeyri-dövlətlərarası beynəlxalq tibb münasibətlərinin beynəlxalq tibb hüququnun nizamasalma predmetinə daxil olmasını mümkünsüz edir; həm də ona görə ki, qeyri-dövlətlərarası beynəlxalq münasibətlər hakimiyyət xarakterli olmadıqlarına görə beynəlxalq mülki münasibətlər sayılır;[1] beynəlxalq mülki münasibətlər isə, öz növbəsində, beynəlxalq

[1] Мюллерсон Р.А. О соотношении международного публичного, международного частного и национального права // Советское государство и право, 1982, № 2, с. 78-89; Мюллерсон Р.А. Коллизионные и отсылочные нормы в регулировании международных отношений // Вестник МГУ. Серия 11. Право, 1983, № 5, с.46; Шумилов В.М. Международное экономическое право. Книга 1 (учебно-методическое пособие). М., 2002, с.36.

publik tibb hüququnun deyil, beynəlxalq xüsusi (mülki) hüququn nizamasalma predmetinə aiddir. Təsadüfi deyil ki, beynəlxalq xüsusi hüquq beynəlxalq mülki münasibətləri tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir.[1] Nəzərə almalıyıq ki, beynəlxalq, regional və milli tibb xidmətlərinin göstərilməsi sahəsində müəyyən qurumlar (assosiasiya, federasiya, ittifaq və s. subyektlər) öz hüquqi statusuna görə ictimai qeyri-hökumət xarakterli təşkilatlar ola bilər. Bu səbəbdən də tibb fəaliyyəti sahəsində sözügedən qeyri-hökumət xarakterli subyektlər arasında yaranan beynəlxalq, regional və milli tibb münasibətləri beynəlxalq xüsusi tibb hüququ ilə tənzimlənir.

Beynəlxalq iqtisadi hüquq beynəlxalq xüsusi hüquqdan nəinki nizamasalma predmetinə (yəni tənzimlədiyi münasibətlərin məzmununa) görə, həmçinin **subyektlərinə** görə fərqlənir. Belə ki, beynəlxalq iqtisadi hüququn subyekti yalnız dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar ola bilər. Buna görə də, ayrı-ayrı ölkələrin fiziki, yaxud hüquqi şəxsləri (özəl firmalar, müəssisələr, korporasiyalar, kompaniyalar, transmilli qurumlar və s.) beynəlxalq iqtisadi hüququn subyekti ola bilməzlər.

Beynəlxalq xüsusi hüququn, həm də beynəlxalq xüsusi tibb hüququnun subyektlərinə gəldikdə, qeyd etməliyik ki, buraya həm dövlət, həm beynəlxalq təşkilatlar (hökumətlərarası beynəlxalq təşkilatlar və beynəlxalq qeyri-hökumət təşkilatları), həm fiziki, həm də hüquqi şəxslər daxildir. Dövlət və hökumətlərarası beynəlxalq təşkilat yalnız o halda beynəlxalq xüsusi hüququn və (və ya) beynəlxalq xüsusi tibb hüququnun subyekti ola bilər ki, bunların iştirak etdikləri beynəlxalq mülki-tibb münasibətlərində qarşı tərəf rolunda ya xarici vətəndaş, ya xarici hüquqi şəxs, ya da beynəlxalq qeyri-hökumət təşkilatı çıxış etsin; əgər bu zaman qarşı tərəf hər hansı dövlətdən və ya hökumətlərarası beynəlxalq təşkilatdan ibarət olarsa, onda dövlət beynəlxalq xüsusi tibb hüququnun deyil, beynəlxalq publik tibb hüququnun subyekti hesab edilir, çünki həmin münasibət dövlətlərarası münasibətdir. Məsələn, " COVİD-19 " pandemiyasına qarşı mübarizə tədbirləri kontekstində Azərbaycan

[1] Ətraflı bax: məsələn, Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik.II nəşr. Bakı, 2021, s. 9-12.

Respublikası ÜST və bir sıra dövlətlərlə beynəlxalq müqavilə-əməkdaşlıq münasibətləri qurmuşdur; bu zaman həmin münasibətlərin iştirakçısı olan hər bir tərəf (dövlət, beynəlxalq təşkilat və s.) beynəlxalq publik tibb hüququnun subyekti sayılır. Əgər dövlət tibb tədbirlərinin həyata keçirilməsi üçün xarici kommersiya bankından kredit alarsa və bundan ötrü onunla kredit müqaviləsi bağlayarsa, belə halda o, beynəlxalq xüsusi tibb hüququnun subyekti kimi çıxış edir.

Beynəlxalq tibb hüququ beynəlxalq xüsusi hüquqdan həm də **məzmununa** görə fərqlənir. Belə ki, məsələn, BTH-nin nizamasalma predmetinə daxil olan publik-tibb münasibətləri yalnız beynəlxalq tibb-hüquq normaları ilə tənzimlənir. Buna görə də, BTH-nin məzmunu beynəlxalq tibb-hüquq normalarından ibarətdir; başqa sözlə, beynəlxalq publik tibb hüququ dövlətlərarası / hökumətlərarası tibb münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarının məcmusudur.

Beynəlxalq xüsusi hüquqa gəldikdə isə, qeyd etməliyik ki, onun nizamasalma predmetinə daxil olan beynəlxalq xüsusi (mülki) münasibətlər həm beynəlxalq hüquq, həm də dövlətdaxili (milli) hüquq normaları ilə tənzimlənir. Odur ki, beynəlxalq xüsusi hüququn məzmununa həm beynəlxalq hüquq, həm də dövlətdaxili (milli) hüquq normaları aiddir.

BTH, eyni zamanda, **hüquq sistemində tutduğu yerə** görə beynəlxalq xüsusi hüquqdan fərqlənir. Qeyd etdiyimiz kimi, BTH beynəlxalq hüquq sistemində müstəqil hüquq sahəsi kimi mövqe tutan beynəlxalq insan haqları hüququnun yarımsahəsidir. Beynəlxalq xüsusi hüquqa gəldkdə, qeyd etməliyik ki, onun hüquq sistemində tutduğu yer hüquq doktrinasında ən çox müzakirə olunan, mübahisəli məsələlərdən biridir. Beynəlxalq xüsusi hüquq elmində bu barədə bir-birindən fərqli dörd müxtəlif fikir irəli sürülür. Bir qrup alim belə hesab edir ki, beynəlxalq xüsusi hüquq beynəlxalq hüquqa aid olub, onun sahəsi – tərkib hissəsidir.[1] Tam əminliklə deyə bilərik ki, bu, dəqiq söylənilməmiş fikirdir. Belə ki, özündə dövlətdaxili (milli)

[1] Məsələn, bax: Фельдман Д.И. О системе международного права // СЕМП. 1977. М., 1979.

hüquq normalarını birləşdirən beynəlxalq xüsusi hüququ dövlətlərarası hüquq olan beynəlxalq hüquqa birbaşa aid etmək məntiqəuyğun yanaşma deyildir.

Müəlliflərdən R.A.Müllerson hesab edir ki, beynəlxalq xüsusi hüquq qismən də dövlətdaxili (milli) hüquqa aid olunur; o, buna görə də, beynəlxalq xüsusi hüquqa "yarımsistem halında olan kompleks" kimi baxır.[1] Bu fikirlə də, çətin ki, razılaşmaq mümkün olsun. Ona görə ki, dünyada yalnız iki hüquq sistemi mövcuddur: beynəlxalq hüquq sistemi və dövlətdaxili (milli) hüquq sistemi. Bu səbəbdən beynəlxalq xüsusi hüquq ya beynəlxalq hüquqa, ya da dövlətdaxil (milli) hüquqa aid olmalıdır. Məhz bu səbəbdən N.Y.Yerpılyevanın söylədiyi belə bir fikir həqiqətdən uzaqdır ki, guya beynəlxalq xüsusi hüquq müstəqil sistem olduğuna görə, onu nə beynəlxalq hüquqa, nə də dövlətdaxili (milli) hüquqa aid etmək olar.[2]

Alimlərin böyük əksəriyyəti beynəlxalq xüsusi (mülki) hüququ dövlətdaxili (milli) hüquqa aid edirlər.[3] Qeyd etməliyik ki, bu fikir beynəlxalq xüsusi hüquq elmində (doktrinada) geniş yayılaraq, son dərəcə üstünlük təşkil edir. Lakin, beynəlxalq xüsusi hüququn dövlətdaxili (mill) hüquq sistemində hansı yeri tutması məsələsində həmin alimlərin mövqeləri ayrılır. Belə ki, bir qrup müəllif beynəlxalq xüsusi hüquqa müstəqil hüquq sahəsi kimi,[4] digərləri isə mülki hüququn yarımsahəsi kimi baxırlar.[5] Azərbaycanlı alimlərdən E.Ə.Əliyev də beynəlxalq xüsusi hüququn məhz mülki hüququn yarımsahəsi olması ideyasına tərəfdar çıxaraq onu qəbul etmişdir.[6] Bunun üçün kifayət dərəcədə tutarlı arqumentlər vardır. Ən əsas və başlıca arqument isə, bundan ibarətdir ki, beynəlxalq xüsusi hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq mülki münasibətlər mülki hüquqla tənzimlənir.

---

[1] Мюллерсон Р.А. О соотношении международного публичного, международного частного и национального права // Советское государство и право, 1982, № 2.
[2] Ерпылева Н.Ю. Международное частное право. Учебник. М., 2004, с.13.
[3] Мясялян, бах: Международное частное право. Учебник / Под ред. Г. К. Дмитриевой. М., 2004, с.39.
[4] Мясялян, бах: Богуславский М.М. Международное частное право. Учебник. М., 1998, с.27.
[5] Аллащвердийев С.С.Азярбайъан Республикасынын бейнялхалг хцсуси (мцлки) щцгуг курсу. Дярслик. Бакы, 2007, с.39-40.
[6] Ялийев Е.Я. Бейнялхалг хцсуси (мцлки) щцгугун ясаслары / Азярбайъан Республикасы Конститусийасынын вя щцгугунун ясаслары. Дярслик (йенидян ишлянмиш вя ялавя олунмуш 6-ъы няшр) китабында. Бакы, 2009, ХВЫ фясил, с.382-398.

Beynəlxalq tibb hüququ öz **mənbəyinə** və digər **əlamətlərə** görə də beynəlxalq xüsusi hüquqdan fərqlənir.

1.2.5. Beynəlxalq tibb hüququnun funksiyaları

Beynəlxalq tibb hüququ Yer kürəsində həyata keçirilən tibbi fəaliyyət sahəsində yaranan ictimai münasibətlərin tənzimlənməsi və onların hüquq pozuntularından mühafizəsi istiqamətində müəyyən funksiyalar yerinə yetirir. **Beynəlxalq tibb hüququnun funksiyaları** dedikdə onun beynəlxalq tibb münasibətlərinə göstərdiyi təsir istiqamətləri başa düşülür. Beynəlxalq tibb hüququ **iki əsas funksiyanı** həyata keçirir:

-tənzimləyici funksiya;

-qoruyucu funksiya.

Beynəlxalq tibb hüququ **tənzimləyici funksiyasına** görə, beynəlxalq tibb fəaliyyəti sahəsində münasibətləri nizamlayır və onları qaydaya salır. Beynəlxalq tibb hüququ beynəlxalq tibb fəaliyyəti sahəsində subyektlərin, beynəlxalq səhiyyə-tibb müqaviləsi iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Bu, onun özünəməxsus tənzimləyici funksiya həyata keçirməsini ifadə edir.

Beynəlxalq tibb hüququ **qoruyucu funksiyasına** görə, beynəlxalq tibb fəaliyyəti sahəsində münasibətləri hüquq pozuntularından mühafizə edir və bu cür beynəlxalq münasibətlərin normal inkişafını təmin edir. Əgər həmin münasibətlər pozularsa, beynəlxalq tibb hüququ onları müdafiə edir və təqsirli şəxslərə qarşı müvafiq məsuliyyət tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur. Beynəlxalq tibb hüququ, xüsusən, həkim personalının məsuliyyət məsələsinə prioritet əhəmiyyət verir. Çünki, həkim personalı tibbi-müalicə prosesini həyata keçirən əsas subyektlərdən biri sayılır.[1]

Eyni zamanda, qeyd etməliyik ki, tibb hüququ öz nizamasalma predmetinə

[1] Tənzimləyici və qoruyucu funksiyaların mahiyyəti barədə ətraflı bax: Медицинское право России: учебник / отв. ред. А.А.Мохов. – Москва: Проспект, 2022, с.16-17.

daxil olan ictimai münasibətlərlə bağlı funksiyalarını inzibati, mülki, iqtisadi, əmək, ekoloji və digər hüquqi qurumların tərkibinə daxil olan aidiyyəti normalarla qarşılıqlı kompleks əlaqədə və ya vəhdətdə yerinə yetirir.

1.3. Beynəlxalq tibb hüququ elm və tədris fənni kimi

1.3.1. Beynəlxalq tibb hüququ elm sahəsi kimi

Hər şeydən əvvəl, obyektiv mənada hüquq yarımsahəsi kimi beynəlxalq tibb hüququnu **elmi mənada beynəlxalq tibb hüququndan,** yəni beynəlxalq tibb hüquq elmindən fərqləndirmək lazımdır. Belə ki, hüquq yarımsahəsi kimi beynəlxalq tibb hüququ beynəlxalq hüquq normalarından olmaqla, dövlətlərarası / hökumətlərarası və təşkilatlararası beynəlxalq tibb münasibətlərini tənzimləyir. Beynəlxalq tibb hüquq elminə gəldikdə isə, qeyd etməliyik ki, bu elm sahəsi hüquqi qurum kimi beynəlxalq tibb hüququna aid olan məsələləri öyrənir və tədqiq edir. Bu səbəbdən də, beynəlxalq tibb hüquq elminin öz tədqiqetmə (öyrənmə) predmeti vardır. Obyektiv mənada beynəlxalq tibb hüququ isə spesifik nizamasalma predmetinə malikdir.

Qeyd etmək lazımdır ki, beynəlxalq tibb hüquq elmi dövlətlərarası beynəlxalq tibb münasibətlərini hüquqi tənzimetmənin qanunauyğunluqlarını öyrənir; bu proses nəticəsində beynəlxalq tibb-hüquq məsələləri barədə elmi fikirlər, ideyalar, nəzəriyyələr, konsepsiyalar və s. yaranır, şəraitə müvafiq olaraq daim yenilənir, təkmilləşir və operativ işlək forma alır.

Beynəlxalq tibb hüquq elmi dedikdə beynəlxalq tibb hüququna aid olan anlayışlar - beynəlxalq tibb hüququnun subyektləri, beynəlxalq tibb hüququnun prinsipləri, beynəlxalq tibb münasibətləri və digər məsələlər barədə fikirlər, ideyalar, nəzəriyyə, postulat, konsepsiya, fərziyyə, şərh və s. mülahizələrin məcmusu başa düşülür. Elm mənasında o, adətən, **beynəlxalq tibb hüquq doktrinası** adlanır. Beynəlxalq tibb hüquq doktrinası BTH-yə aid olan məsələləri tədqiq edir, öyrənir.

Beynəlxalq tibb hüquq elminin nələri tədqiq etməsi, onun öyrənmə predmetinə hansı məsələlərin daxil olması, ümumiyyətlə, hüquq ədəbiyyatı

səhifələrində ətraflı şəkildə işıqlandırılmır. Buna görə də, beynəlxalq tibb hüquq elminin **öyrənmə (tədqiqetmə) predmetinin** müəyyənləşdirilməsi aktual vəzifələrdən sayılaraq, xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, obyektiv mənada beynəlxalq tibb hüququ müəyyən tibb-hüquq normalarından ibarətdir; məhz bu normaların köməyi və vasitəsilə beynəlxalq tibb fəaliyyəti sahəsində normativ-hüquqi tənzimetmə həyata keçirilir. Buna görə də, beynəlxalq tibb hüquq elminin öyrənmə predmetinə, ilk növbədə, həmin **tibb-hüquq normaları** daxildir. Bu normaların məzmununu öyrənməklə beynəlxalq tibb hüquq elmi onların hüquqi müstəvidə və praktikada düzgün və adekvat tətbiq olunmasına kömək edir.

Beynəlxalq tibb hüquq elminin öyrənmə predmetinə həm də **beynəlxalq tibb qanunvericiliyi** – dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq tibb münasibətlərini tənzimləyən beynəlxalq-hüquqi aktlar daxildir; o, beynəlxalq tibb qanunvericiliyini öyrənməklə onun perspektiv inkişaf və təkmilləşdirilmə yollarını müəyyən edir.

Beynəlxalq tibb hüquq elmi dövlətlərarası **beynəlxalq tibb münasibətlərini** də tədqiq edir. Bu, onun öyrənmə predmetinə daxil olan vacib məsələlərdən biridir. Həmin münasibətləri tənzim edən beynəlxalq hüquq normalarının praktikada tətbiqi, şübhəsiz, mühüm əhəmiyyət kəsb edən məsələdir. Buna görə də, qeyd etməliyik ki, dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq tibb münasibətlərini tənzim edən beynəlxalq hüquq normalarının tətbiq praktikasını öyrənmək beynəlxalq tibb hüquq elminin qarşısında duran aktual vəzifələrdən biridir.

Beynəlxalq tibb hüquq elminin öyrənmə predmetinə **xarici ölkələrin beynəlxalq tibb hüquq elmi də** (doktrina) daxildir. Ona görə ki, sözügedən elm sahəsində inkişaf etmiş qabaqcıl ölkələrin elmi təcrübə, elmi mübadilə və nailiyyətlərin üstünlüklərinin öyrənilməsi Azərbaycan Respublikasında beynəlxalq tibb hüquq elminin dinamik inkişaf prosesinə pozitiv təsir göstərən amildir.

1.3.2.Beynəlxalq tibb hüququ tədris fənni kimi

Beynəlxalq tibb hüququ, əvvəllərdə qeyd etdiyimiz kimi, həm də tədris fənni (kursu) mənasında işlədilir. Başqa sözlə, o, beynəlxalq tibb hüququ barədə məsələlərin təhsil müəssisələrində tələbələrə öyrədilməsində tədris fənni (kursu) kimi vacib rol oynayır. **Tədris kursu mənasında beynəlxalq tibb hüququ** dedikdə tələbələrə və oxucu auditoriyasına BTH barədə biliklər və sistemləşdirilmiş informasiya verən tədris fənni başa düşülür; bu mənada o, həm də **beynəlxalq tibb hüquq tədris fənni** adlanır.

Qeyd etməliyik ki, beynəlxalq tibb hüquq fənni, mahiyyət etibarilə, nə tənzimləyir, nə tədqiq edir, nə də öyrənir; o, yalnız öyrədir. Buna görə də, beynəlxalq tibb hüquq fənninin özünəməxsus **öyrətmə predmeti** vardır.

Beynəlxalq tibb hüquq fənninin öyrətmə predmetinə, hər şeydən əvvəl, obyektiv mənada beynəlxalq tibb hüququnun özü daxildir. Başqa sözlə, beynəlxalq tibb hüquq fənni dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq tibb münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarını və onların **tətbiq praktikasını** tələbələrə və oxucu auditoriyasına öyrədir.

Eyni zamanda, beynəlxalq tibb hüquq fənninin öyrətmə predmetinə beynəlxalq tibb hüquq elmi – doktrina da daxildir.

Beləliklə, beynəlxalq tibb hüquq fənninin **vəzifəsi**, əsasən, birinci, beynəlxalq tibb hüququnun məzmununu, ikinci, beynəlxalq tibb hüquq elmini tələbələrə öyrətməkdən ibarətdir. Buna görə də, beynəlxalq tibb hüquq fənni tələbələrə bu iki məsələ haqqında sistemləşdirilmiş informasiya və elmi biliklər verir. Bununla da, o, beynəlxalq tibb münasibətləri sahəsində hüquqi işlər görmək qabiliyyətinə malik olan mütəxəssis kadrlar hazırlayır. Bu isə, dünyada tibb münasibətlərinin qloballaşması dövründə vacib əhəmiyyət kəsb edən vacib məsələdir.

Beynəlxalq tibb hüquq fənni həm də tələbələrə, habelə digər aidiyyəti kadrlara öz seçdikləri peşə ixtisası üzrə hüquqi-praktiki fəaliyyət bacarığı və iş qabiliyyəti aşılayır və təlqin edir ki, bunun da nəticəsində onlar real həyatda beynəlxalq tibb münasibətləri sferasında yaranan ayrı-ayrı hallara beynəlxalq tibbi qanunvericilik aktlarının norma və müddəalarını düzgün tətbiq edə bilərlər.

II FƏSİL. BEYNƏLXALQ TİBB HÜQUQUNUN SUBYEKTLƏRİ

2.1.Beynəlxalq tibb hüququnun subyektləri institutu və anlayışı

2.1.1. Beynəlxalq tibb hüququnun subyektləri institutu

Müasir dövrdə formalaşmış hüquqi qurumlardan biri olan beynəlxalq tibb hüququnun ümumi hissəsi bir neçə hüquq institutundan ibarətdir; beynəlxalq tibb hüququnun subyektləri həmin **institutlardan** biri sayılır. Beynəlxalq tibb fəaliyyətinin həyata keçirilməsində sözügedən institutun vacib əhəmiyyətə malik olması və mühüm rol oynaması şəksizdir. Belə ki, beynəlxalq tibb hüququnun nizamasalma predmetinə daxil olan və onunla tənzimlənən dövlətlərarası beynəlxalq tibb münasibətləri məhz beynəlxalq tibb hüququnun subyektləri arasında əmələ gəlir. Subyektlər (subyekt tərkibi) həmin beynəlxalq tibb münasibətlərinin yaranmasının, eləcə də onların mövcud olmasının vacib şərti, mütləq və məcburi elementidir. Əgər subyektlər olmazsa, onda, təbii ki, dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq tibb münasibətləri də yarana bilməz. Beynəlxalq tibb hüququnun subyektləri institutunun özünə gəldikdə isə, qeyd etməliyik ki, bu institut beynəlxalq tibb hüququnun subyektləri və onların statusu ilə bağlı münasibətləri tənzimləyərək qaydaya salır.

Beynəlxalq tibb hüququnun subyektləri institutu dedikdə dövlətlərarası, hökumətlərarası və təşkilatlararası beynəlxalq tibb münasibətləri iştirakçılarının hüquqi statusunu, tibb fəaliyyəti sahəsində onların hüquq və vəzifələrini müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusu başa düşülür.

Beynəlxalq tibb hüququn göstərilən subyektlər institutu onun ümumi hissəsinə daxil olan digər institutlar, habelə tərkib hissələr ilə sıx dialektik əlaqədədir. Onların hamısı birlikdə dünyada beynəlxalq tibb hüququnun təşəkkül tapması və formalaşması prosesində mühüm yer tutur.

2.1.2.Beynəlxalq tibb hüququnun subyektləri anlayışı

Qeyd etməliyik ki, əgər hər hansı subyekt beynəlxalq tibb fəaliyyəti sferasında beynəlxalq tibb hüququ ilə tənzimlənən dövlətlərarası, hökumətlərarası və təşkilatlararası tibb münasibətlərində iştirak edərsə və bunun üçün zəruri olan müvafiq hüquq və vəzifələrə malik olarsa, o, beynəlxalq tibb hüququnun subyekti sayılır. Buna görə də, dövlətlərarası beynəlxalq tibb münasibətlərinin müəyyən hüquq və vəzifələrə malik olan iştirakçıları beynəlxalq tibb hüququnun subyektləri sırasına aid edilir.

Beynəlxalq tibb hüququnun subyektləri dedikdə beynəlxalq tibb fəaliyyəti sahəsində yaranan tibb münasibətlərinin elə mümkün (potensial) iştirakçıları başa düşülür ki, bundan ötrü onlar bu sferada müvafiq hüquq və vəzifələrə malik ola bilirlər.

Bu kontekstdə beynəlxalq tibb sferasında fəaliyyət göstərən subyektləri aşağıdakı **kateqoriyalar** üzrə fərqləndirə bilərik:

- beynəlxalq tibb fəaliyyəti sferasında dövlətlər;

-tibb sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar;

-tibb fəaliyyəti sferasında milli təşkilatlar;

-ayrı-ayrı fərdlər və tibb mütəxəssisləri.

Göstərilənlərlə yanaşı, tibb xidmətləri sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar **iki növə** bölünür: ümumi səlahiyyətli beynəlxalq tibb təşkilatları; xüsusi səlahiyyətli beynəlxalq tibb təşkilatları.

Bundan başqa, tibbi fəaliyyət sferasında mövcud olan beynəlxalq təşkilatları **üzvlük xarakterinə** görə aşağıdakı kimi təsnif etmək mümkündür: dövlətlərarası / hökumətlərarası beynəlxalq tibb təşkilatları; qeyri-dövlətlərarası / qeyri-hökumətlərarası beynəlxalq tibb təşkilatları.

Həmçinin tibb sahəsində mübahisələrin həlli istiqamətində fəaliyyət göstərən təşkilatların yeni **xüsusi növü** dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yaradılan və funksional hüquq subyektliyi qabiliyyətinə malik olan **məhkəmə strukturları** (məsələn,Tibbi Arbitraj Məhkəməsi, Milli Tibb Palatası və s.) sayılır. İnzibati tibb hüquq münasibətlərindən irəli gələn mübahisələrə məhkəmədənkənar alternativ həll üsulu kimi qarşılıqlı razılıq əsasında **mediasiya orqanları** tərəfindən

baxıla bilər. Tibb sahəsində müxtəlif profil üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatlar **hüquqi statusuna** görə də fərqləndirilir: universal beynəlxalq təşkilatlar (məsələn, Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Dünya Tibbi Hüquq Assosiasiyası, Beynəlxalq Bioetika Assosiasiyası və s.); regional beynəlxalq təşkilatlar (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, Avropa Tibb Assosiasiyaları, Amerika İctimai Sağlamlıq Assosiasiyası, Afrika Əqli Sağlamlıq Fondu və b.).

Beynəlxalq tibb sferasında fəaliyyət göstərən zaman **hakimiyyət səlahiyyətinə malik olub-olmaması** baxımından, BTH-nin subyektlərini, praktiki olaraq, iki qrupa bölmək mümkündür:

-beynəlxalq publik tibb hüququnun subyektləri;

-beynəlxalq xüsusi tibb hüququnun subyektləri.

2.2.Beynəlxalq tibb hüququ subyektlərinin xarakteristikası

2.2.1.Beynəlxalq publik tibb hüququnun subyektləri

İlk növbədə, qeyd etməliyik ki, **beynəlxalq publik tibb hüququnun subyektləri** rolunda yalnız **dövlətlər və hökumətlərarası / dövlətlərarası beynəlxalq tibb təşkilatları** çıxış edə bilər. Ona görə ki, beynəlxalq publik tibb hüququ ilə hakimiyyət xarakterli beynəlxalq tibb münasibətləri tənzimlənir. Bu münasibətlərdə subyekt qismində iştirak etmək üçün iştirakçının hakimiyyət səlahiyyətinə (funksiyasına) malik olması tələb edilir. **Dövlətlər** isə belə səlahiyyətlərə malikdir. Hökumətlərarası / dövlətlərarası beynəlxalq tibb təşkilatlarına gəldikdə isə, qeyd etməliyik ki, onların üzvləri ayrı-ayrı dövlətlərdən ibarətdir. Dövlətlər üzv olmaqla öz hakimiyyət səlahiyyətlərini qismən, məhdud şəkildə həmin tibb təşkilatlarına vermiş olur. Nəticədə **hökumətlərarası / dövlətlərarası beynəlxalq tibb təşkilatları** məhdud hakimiyyət səlahiyyətinə (funksiyasına) malik olaraq, funksional (məhdud) beynəlxalq hüquq subyektliyi[1] əldə etməklə hakimiyyət xarakterli beynəlxalq münasibətlərində, o cümlədən beynəlxalq tibb münasibətlərində subyekt qismində iştirak edirlər (bundan sonra –

[1] Веляминов Г.М.Международное экономическое право и процесс. М., 2004, с.63.

hökumətlərarası və dövlətlərarası anlayışlar eynimənalı sinonim anlayış kimi işlədilir).

Hər hansı qurumun (dövlətin, beynəlxalq təşkilatın və s.) beynəlxalq tibb hüququnun subyekti kimi tanınması həmin qurumun nə hüquqi status və təbiətindən, nə də onun malik olduğu beynəlxalq tibb-hüquq və vəzifələrin həcmindən asılıdır. Əsas və başlıca şərt ondan ibarətdir ki, belə qurum beynəlxalq tibb hüququ ilə bilavasitə tənzimlənən münasibətlərdə iştirak etmək qabiliyyətinə və imkanına malik olmalıdır. "Beynəlxalq publik tibb hüququnun subyektləri" anlayışı "dövlətlərarası beynəlxalq publik tibb-hüquq münasibətlərinin subyektləri" anlayışından fərqlənir. Belə ki, bir az əvvəldə qeyd etdiyimiz kimi, beynəlxalq publik tibb hüququnun subyektləri dedikdə elə qurumlar başa düşülür ki, onların dövlətlərarası beynəlxalq **tibb münasibətlərində iştirak etmək qabiliyyəti** vardır. Dövlətlərarası beynəlxalq publik tibb-hüquq münasibətlərinin subyektlərinə gəldikdə isə, qeyd etməliyik ki, onlar həmin münasibətlərin **real-faktiki** iştirakçısıdırlar; beynəlxalq tibb hüququnun subyektləri belə münasibətlərin real deyil, **mümkün-potensial** iştirakçılarıdır. Onların arasında mövcud olan münasibət fəlsəfi planda "imkan" və "gerçəklik" kimi kateqoriyalar (anlayışlar) arasındakı əlaqə kimidir. Əgər " beynəlxalq tibb hüququnun subyektləri " imkandırsa, " beynəlxalq dövlətlərarası tibb-hüquq münasibətlərinin subyektləri " gerçəklikdir, reallıqdır. Bu baxımdan, müəlliflərdən R. O. Xalfina düzgün olaraq, qeyd edir ki, mahiyyət etibarilə, "hüquq münasibətinin iştirakçısı" anlayışı artıq "hüququn subyekti " anlayışıdır.[1] Bu və ya digər qurumun beynəlxalq tibb hüququnun subyekti kimi tanınması üçün onun beynəlxalq hüquq subyektliyinə malik olması tələb edilir. Hüquq subyektliyi (o cümlədən beynəlxalq hüquq subyektliyi) şəxslərin özündən ayrılmaz olub, onların ictimai-hüquqi xüsusiyyətidir.[2]

Beynəlxalq hüquq subyektliyi dedikdə subyektlərin beynəlxalq hüquq normaları ilə tənzimlənən münasibətlərdə, yəni dövlətlərarası beynəlxalq hüquq

[1] Халфина Р.О. Общее учение о правоотношениях. М., 1974, с. 115.
[2] Алексеев С.С. Общая теория права. Том 2. М., 1982, с.139.

münasibətlərində, o cümlədən beynəlxalq tibb-hüquq münasibətlərində iştirak etmək qabiliyyəti (imkanı) başa düşülür. Başqa sözlə, beynəlxalq hüquq subyektliyi beynəlxalq hüququn subyekti olmaq imkanı, beynəlxalq hüquq və vəzifələr daşımaq, onları həyata keçirmək qabiliyyəti deməkdir.

Beynəlxalq hüquq subyektliyi **ümumiləşdirilmiş** anlayışdır**.** Bu o deməkdir ki, onun struktur tərkibi ayrı-ayrı elementlərdən ibarətdir. Belə ki, beynəlxalq hüquq subyektliyi özündə **üç əsas struktur elementi** birləşdirir. Həmin elementlərə aşağıdakılar aiddir: [1]

-beynəlxalq hüquq qabiliyyəti;

-beynəlxalq fəaliyyət qabiliyyəti;

-beynəlxalq delikt qabiliyyəti.

Beynəlxalq hüquq qabiliyyəti dedikdə beynəlxalq hüquq subyektinin beynəlxalq hüquqlara malik olmaq və beynəlxalq vəzifələr daşımaq qabiliyyəti başa düşülür; əgər beynəlxalq hüquq subyekti beynəlxalq hüquq və vəzifələr daşımaq imkanına (burada söhbət hüquqi imkandan gedir) malik olarsa, bu o deməkdir ki, həmin subyekt beynəlxalq hüquq qabiliyyətlidir. Təsadüfi deyil ki, «beynəlxalq hüquq subyekti» anlayışı üçün xarakterik olan əsas əlamətlərdən biri onun beynəlxalq hüquq və vəzifələr daşıyıcısı olmaq imkanıdır.[2]

Beynəlxlaq fəaliyyət qabiliyyəti dedikdə beynəlxalq hüquq subyektinin öz müstəqil beynəlxalq hərəkətləri ilə beynəlxalq hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün beynəlxalq vəzifələr yaratmaq və icra etmək qabiliyyəti başa düşülür.

Beynəlxalq delikt qabiliyyəti dedikdə beynəlxalq hüquq subyektlərinin öz törətdikləri beynəlxalq hüquq pozuntusuna görə beynəlxalq hüquq məsuliyyəti daşımaq qabiliyyəti başa düşülür. Belə qabiliyyətə malik olduğu üçün beynəlxalq hüquq subyektləri başqa subyektlərə vurduğu zərərin əvəzini ödəyirlər.

[1]Məsələn, bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. I cild.Ümumi hissə. Bakı, 2018, s.471-484.

[2] Международное публичное право. Учебник /Отв. ред. К.А.Бекяшев. М., 2009, с.180.

Əgər bu və ya digər qurum göstərdiyimiz hər üç qabiliyyətə malik olarsa, bu onu ifadə edir ki, həmin qurumun beynəlxalq hüquq subyektliyi vardır. Hesab edirik ki, beynəlxalq hüququn subyektləti, eyni zamanda, beynəlxalq tibb hüququnun subyektləri kimi tanınır.

Məlum məsələdir ki, beynəlxalq hüququn **başlıca funksiyası** dövlətlərarası beynəlxalq münasibətləri tənzimləməkdən ibarətdir;[1] dövlətlərarası beynəlxalq münasibətlər dedikdə suveren dövlətlər arasında yaranan əlaqələr başa düşülür. Belə münasibətlər həm də dövlətlərin təsis etdikləri hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların iştirakı ilə əmələ gələ bilər. Belə ki, hökumətlərarası (dövlətlərarası) beynəlxalq təşkilatların üzvləri yalnız dövlətlərdən ibarətdir; deməli, belə təşkilatlar arasında yaranan münasibətlər də dövlətlərarası münasibətlər hesab edilir.

Dövlətlərarası beynəlxalq münasibətlərdə, o cümlədən beynəlxalq tibb münasibətlərində isə, subyekt qismində ancaq dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar iştirak edə bilərlər. Buna görə də, beynəlxalq hüququn subyektləri onlardan ibarətdir; çünki yalnız dövlətlərin və hökumətlərarası beynəlxalq təşkilatların beynəlxalq hüquq subyektliyi vardır.

Beynəlxalq hüquq elmində, ənənəvi olaraq, beynəlxalq hüququn subyekti kimi dövlətlər və hökumətlərarası beynəlxalq təşkilatlar tanınır. Buna uyğun olaraq, həmin subyektlər də məhz beynəlxalq tibb hüququnun subyekti hesab edilir. Odur ki, beynəlxalq publik tibb hüququnun subyektləri dövlət və beynəlxalq hökumətlərarası təşkilatlardan ibarətdir.

Beləliklə, beynəlxalq publik tibb hüququnun iki kateqoriyada subyekti vardır: dövlət və hökumətlərarası beynəlxalq təşkilatlar, o cümlədən beynəlxalq tibb təşkilatları və tibbi təhsil müəssisələri. Dövlət universal (ümumi) beynəlxalq hüquq subyektliyinə, hökumətlərarası beynəlxalq təşkilatlar isə məhdud (funksional) beynəlxalq hüquq subyektliyinə malikdir.

[1] Лукашук И.И. Международное право. Общая часть. М., 1997, с.1.

2.2.2.Beynəlxalq xüsusi tibb hüququnun subyektləri

Beynəlxalq xüsusi tibb hüququnun subyektləri qismində qeyri-hökumət beynəlxalq tibb təşkilatlara gəldikdə isə, qeyd etmək lazımdır ki, onların üzvləri dövlətlərdən deyil, ayrı-ayrı ölkələrin fərdlərindən və şəxslərindən ibarətdir. Odur ki, belə təşkilatlar hakimiyyət səlahiyyətinə malik olmurlar. Bu xüsusiyyət isə onları beynəlxalq publik tibb hüququnun subyekti olmaq imkanından məhrum edir. Bu səbəbdən ayrı-ayrı ölkələrin fiziki və hüquqi şəxsləri beynəlxalq publik tibb hüququnun deyil, beynəlxalq xüsusi tibb hüququnun subyekti hesab edilir.

Beynəlxalq xüsusi tibb hüququnun subyektləri dedikdə beynəlxalq tibb fəaliyyəti prosesində, yəni xarici elementli tibb münasibətlərində (tibb-hüquq öhdəliklərində) iştirak edən şəxslər başa düşülür. Bu münasibətlər qeyri-hakimiyyət xarakterli əlaqələr olduğuna görə onlarda hakimiyyət səlahiyyətli (funksiyalı) subyektlərin iştirak etmələri tələb olunmur. Buna görə də, beynəlxalq xüsusi tibb hüququnun subyektləri aşağıdakılardan idarətdir: həkim, tibb bacısı, özəl tibb birlikləri, milli tibb federasiyaları, milli tibb assosiasiyaları, tibb sektorunda çalışan digər mütəxəssislər və s. Qeyd etməliyik ki, əgər dövlət beynəlxalq tibb tədbirlərinin keçirilməsi zamanı, məsələn, tibb obyektinin sahibi rolunda çıxış edərsə, bu halda o, beynəlxalq xüsusi tibb hüququnun subyekti kimi tanınır. Dövlət bu zaman beynəlxalq xüsusi tibb hüququnun subyekti qismində hakimiyyət səlahiyyətindən (funksiyasından) istifadə etmir və qarşı tərəflə, yəni kontragentlə bərabər hüquqlu sayılır. Belə hallarda dövlət mülki hüquq subyektliyinə malik olur.

Ümumilikdə götürsək, beynəlxalq xüsusi tibb hüququnun **subyektləri qismində** aşağıda göstərilənlər çıxış edə bilərlər:

- dövlətlər;
- dövlətlərarası / hökumətlərarası beynəlxalq tibb təşkilatları;
- beynəlxalq tibb təşkilatları, assosiasiya, ittifaq və federasiyalar;
- Beynəlxalq Tibb Mərkəzi;

-özəl tibb təşkilatları, həkim personalı və digər subyektlər.

Qeyri-dövlət təsisatlarına (məsələn, fiziki və hüquqi şəxslər, ictimai tibb birlikləri, özəl tibbi-təsərrüfat və təhsil subyektləri, transmilli tibbi korporasiya və forumlar, tibb sferasında fəaliyyət göstərən beynəlxalq qeyri-hökumət təşkilatları və s.) gəldikdə, qeyd etməliyik ki, onlar da beynəlxalq xüsusi tibb hüququnun nizamasalma predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinin iştirakçısı ola bilərlər. Beynəlxalq hüquq subyektliyinə malik olmadıqlarına görə, onların publik tibb münasibətlərdə subyekt rolunda iştirak etmələri qeyri-mümkündür; həm də ona görə ki, müvafiq dövlətin hakimiyyəti və yurisdiksiyası altında olduqları üçün qeyri-dövlət təsisatları müstəqil statusa (hüquqi vəziyyətə) malik deyillər. Bu səbəbdən onlar yalnız beynəlxalq xüsusi tibb hüququnun subyekti kimi çıxış edə bilərlər.

2.3.Beynəlxalq tibb hüququnun əsas subyektləri

2.3.1.Beynəlxalq tibb hüququ subyektlərinin növləri

Beynəlxalq tibb hüququnun subyektləri ayrı-ayrı meyarlar baxımından, müxtəlif növlərə bölünür. **Daimi olmaq** kimi meyar üzrə onlar iki növə bölünür:

-daimi subyektlər;

-müvəqqəti subyektlər.

Həmişəlik fəaliyyət göstərmək üçün yaradılan qurumlara beynəlxalq tibb hüququnun **daimi subyektləri** deyilir. Dövlət BTH-nin daimi subyekti sayılır; çünki yarandığı andan dövlət beynəlxalq hüquq qabiliyyətli olur və BTH-nin subyekti kimi tanınır.

Fəaliyyəti daimi olmayan subyektlər isə beynəlxalq tibb hüququnun **müvəqqəti subyektləri** adlanır; onlar, adətən, müəyyən məqsədə çatmaq üçün yaradılır. Qarşıya qoyulan məqsədə nail olunduqda, bu növ subyektin fəaliyyətinə xitam verilir. Məsələn, "COVİD-19" yeni koronovirus xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə, 2020-ci il yanvar ayının 28-də Baş Nazirin sədrliyi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah orqanı

yaradılmışdır; [1] müvəqqəti yaradılmış bu orqanın mövcudluğuna ölkə ərazisində pandemiya aradan qalxdıqdan sonra xitam veriləcəkdir.

Öz hüquqi təbiətindən və mənşəyindən asılı olaraq, beynəlxalq tibb hüquq subyektlərinin iki növü fərqləndirilir:

-ilkin subyektlər;

-törəmə subyektlər.

Beynəlxalq tibb hüququnun **ilkin subyektləri** dedikdə elə müstəqil və öz-özünü idarə edən qurumlar başa düşülür ki, onlar əmələ gəldiyi (yarandığı) andan beynəlxalq hüquq subyektliyinə malik olurlar; onların beynəlxalq hüquq subyektliyi hər hansı xarici iradədən asılı deyildir və obyektiv xarakter daşıyır. Belə subyektlərin mövcudolma faktının (ipso facto) özü kifayətdir ki, onlar beynəlxalq hüquq və vəzifələrin daşıyıcısı olsunlar.

Qeyd etməliyik ki, BTH-nin ilkin subyekti dövlət hesab edilir; ona görə ki, BTH-nin ilkin subyektini səciyyələndirən əlamətlərə məhz dövlət uyğun gəlir. Beynəlxalq ilkin hüquq subyektliyi yalnız dövlətlərə məxsusdur.[2]

Beynəlxalq tibb hüququnun **törəmə subyektləri** odur ki, onlar dövlətlərin iradəsi ilə yaranır; belə subyektlərin yaranması barədə dövlətlərin qərarı təsis sənədində (aktında) ifadə olunur. BTH-nin törəmə subyekti dövlətlər tərəfindən yarandığına görə, onların beynəlxalq hüquq subyektliyi törəmə xarakter daşıyır; dövlətlərin sazişi və razılağa gəlmələri onların beynəlxalq hüquq subyektliyinin mənbəyidir. Hökumətlərarası beynəlxalq tibb təşkilatları (məsələn, Beynəlxalq Hərbi Tibb Komitəsi) BTH-nin törəmə subyekti sayılır; ona görə ki, onlar dövlətlər tərəfindən yaradılır.

Əsas subyekt olması baxımından, BTH-nin subyektləri iki növə bölünür:

-əsas subyektlər;

-ikinci dərəcəli subyektlər.

[1] Bax:Aynurə Əliyeva, Fatimə Hüseynova, Etibar Əliyev. Azərbaycanda "COVİD-19" pandemiyası: tibbi və hüquqi aspektlər // Hüquqi müstəvi. Bakı, 2020, № 4, s.68-69.

[2] Hüseynov L. Beynəlxalq Hüquq. Dərslik. Bakı, 2000, s.47.

Beynəlxalq tibb hüququnun **əsas subyekti** dedikdə siyasi təşkilat olan dövlət başa düşülür. Bu ondan irəli gəlir ki, müasir dövrdə beynəlxalq hüquq ədəbiyyatı səhifələrində əksər müəlliflər, məsələn, İ.İ.Lukaşuk,[1] A.Y.Kapustin,[2] Q.V.İqnatenko,[3] Y.E.Karlov[4] və digərləri[5] dövləti beynəlxalq hüququn əsas subyekti kimi xarakterizə edirlər. Ona görə ki, məhz beynəlxalq hüquqla dövlətlərarası beynəlxalq münasibətlər tənzimlənir. Məlum məsələdir ki, belə münasibətlərdə əsas subyekt qismində yalnız dövlətlər iştirak edə bilər. Beynəlxalq hüququn subyekti kimi dövlətin yaranması obyektiv reallıqdır, təbii-tarixi və ictimai-siyasi prosesin nəticəsidir. Dövlətlər həm də suverenliyə malikdir ki, bu xüsusiyyət onların beynəlxalq münasibətlərdə, o cümlədən beynəlxalq tibb münasibətlərində müstəqil və heç kəsdən asılı olmadan iştirak etmələrini şərtləndirir. Beynəlxalq hüququn əsas subyekti kimi tanınan dövlət, təbii ki, BTH-nin də əsas subyekti sayılır. Bu səbəbdən də, o, dövlətlərarası beynəlxalq tibb münasibətlərin başlıca iştirakçısı hesab olunur.

Beynəlxalq tibb hüququn **ikinci dərəcəli subyekti** dedikdə hökumətlərarası beynəlxalq tibb təşkilatları başa düşülür; bu təşkilatlar, əvvəllərdə qeyd etdiyimiz kimi, dövlətlər tərəfindən yaradılır və onların verdiyi hüquq əsasında beynəlxalq tibb münasibətlərdə subyekt qismində iştirak edirlər. Buna görə də, həmin təşkilatlar dövlətlərə münasibətdə ikinci dərəcəli subyekt hesab olunur.

2.3.2.Dövlət beynəlxalq tibb hüququnun əsas subyekti kimi

Yer kürəsində beynəlxalq tibb sisteminin yaranmasına və inkişafına böyük təsir göstərən əsas subyektlərdən biri də dövlətlərdir. Beynəlxalq tibb fəaliyyəti sferasında hər bir dövlət aşağıdakı **hüquqi status formalarına** malikdir:

---

[1] Лукашук И.И. Международное право. Общая часть. М., 1997, с.11.
[2] Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.110.
[3] Международное право. Учебник/ Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.73.
[4] Международное право. Учебник / Отв.ред.Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.78.
[5] Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.183.

-**ümumi beynəlxalq-hüquqi status**, yəni bütövlükdə beynəlxalq hüquq və onun əsas prinsipləri ilə bütün dövlətlər üçün eyni dərəcədə müəyyən edilmiş hüquq və vəzifələrin daşıyıcısı olmaq;

-**xüsusi beynəlxalq-hüquqi status**, yəni dövlətlərin spesifik vəziyyəti, xüsusi müqavilələr və ya üzvlük statutu ilə bağlı müəyyən edilmiş hüquq və vəzifələrin daşıyıcısı olmaq;

-**fərdi beynəlxalq-hüquqi status**, yəni konkret dövlətin öz qanunvericiliyi ilə müəyyənləşdirdiyi hüquq və vəzifələrin məcmusuna malik olmaq.

Bütün dövlətlər hüquq subyektliyi əldə etməkdə bərabərdirlər, lakin hüquq subyektliyinin həcmi müxtəlif dövlətlərdə eyni deyildir. Belə ki, dövlətlər tibb fəaliyyətinin nizama salınmasına dair məsələlər üzrə beynəlxalq müqavilələri de-yure eyni dərəcədə bağlaya bilərlər, ancaq praktiki cəhətdən ayrı-ayrı dövlətlərdə belə müqavilələrin sayı və onlardan irəli gələn hüquq və vəzifələrin həcmi də eyni olmayaraq, de-fakto fərqlidir.

Müasir dövrdə dövlətlər arasında həyata keçirilən fəal əməkdaşlıq sayəsində müəyyən tibb münasibətləri yaranmışdır. Bunun da nəticəsində müxtəlif ölkələrin tibb müəssisələri və beynəlxalq tibb fəaliyyəti subyektləri arasında qarşılıqlı fəaliyyət göstərilməsinə dair müvafiq **daxili hüquqi rejim** formalaşmışdır. Dövlətlər belə hüquq münasibətləri çərçivəsində daxili qanunvericilikdə baş verən bu və ya digər dəyişikliyi bir-birləri ilə birtərəfli, ikitərəfli, çoxtərəfli və ya universal qaydada razılaşdırırlar və daxili hüquqi rejim qaydalarının uzlaşdırılması prosesi, yəni hansısa hüquqi unifikasiya baş verir. Bu zaman BTH öxünəməxsus **"çərçivə hüquq"** rolunu oynayır, müxtəlif ölkələrin milli tibb hüquq sistemlərinin uzlaşdırılmış fəaliyyət göstərmələri üçün münbit şərait yaradır.

BTH-nin subyekti kimi dövlətin hüquqi vəziyyəti belə bir spesifik əlamətlə xarakterizə olunur ki, dövlət **universal beynəlxalq hüquq subyektliyinə** malikdir. Buna görə də, o, dövlətlərarası beynəlxalq tibb münasibətlərinin istənilən sahəsində subyekt qismində iştirak edə bilər. BTH-nin subyekti kimi dövlətin iştirak etdiyi münasibətlərin dairəsi kifayət qədər geniş və müxtəlifdir. Qeyd etmək lazımdır ki, süni intellekt əsrində sosial-iqtisadi inteqrasiya proseslərinin qloballaşması və tibb

xidmətləri spektrinin beynəlmiləlləşməsi şəraitində beynəlxalq tibb münasibətlərində dövlətin iştiraketmə formaları da artır. Müasir dövrdə dövlətlər qlobal beynəlxalq bioetika və səhiyyə-tibb tədbirlərində fəal surətdə iştirak edirlər. Bu zaman onlar aidiyyəti üzrə müəyyən tibb müqavilələri bağlamaqla zəruri beynəlxalq hüquq əldə edə və onları həyata keçirə, habelə özləri üçün müvafiq beynəlxalq vəzifələr yarada və bu vəzifələri icra edə bilərlər; beynəlxalq hüquq subyektliyinin universallığı həm də məhz bunda ifadə olunur.

Beynəlxalq tibb münasibətlərinin subyekti kimi dövləti səciyyələndirən əsas xarakterik cəhətlərdən biri də ondan ibarətdir ki, o, **suverenliyə** malikdir. Suverenlik (sovereignty) yalnız dövlətə məxsusdur; onun malik olduğu bütün başlıca hüquqların əsasını məhz suverenlik təşkil edir. Dövlətin fərqləndirici siyasi-hüquqi xüsusiyyəti hesab edilən suverenlik aşağıda göstərilən **iki formada** təzahür edir:

-daxili suverenlik;

-xarici suverenlik.

Daxili suverenlik dövlətin öz sərhədləri hüdudunda və ərazisində tibb xidmətlərinin göstərilməsi sferasında üstünlüyünü, heç kəsə tabe olmamasını ifadə edir. **Xarici suverenlik** isə beynəlxalq münasibətlər və xarici işlər sahəsində dövlətin müstəqil olması (asılı olmaması) deməkdir. Məhz xarici suverenlik dövlətə imkan verir ki, o, başqa dövlətlərlə və beynəlxalq təşkilatlarla beynəlxalq tibb münasibətlərini öz istəyinə uyğun olaraq müəyyənləşdirsin.

Suverenliyin məhdud mənada təzahür forması **yurisdiksiya** (jurisdiction) adlanır.[1] Bu, mahiyyət etibarı ilə, dövlətin, dövlət orqanlarının öz daxili (milli) hüququna uyğun olaraq işlərə baxıb həll etməsi üzrə səlahiyyətlərinin məcmusudur. Yurisdiksiya anlayışı həm də dövlət məcburetməsi deməkdir və dövlətin, habelə onun orqanlarının (qurumlarının) səlahiyyətlərinin şamil olunduğu ictimai münasibətlər sferasını ehtiva edir. Bu və ya digər meyardan asılı olaraq, yurisdiksiyanın **bir neçə növü** fərqləndirilir:

[1] Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.952.

-hakimiyyət xarakterinə görə - qanunverici yurisdiksiya , icra yurisdiksiyası və məhkəmə yurisdiksiyası;

-tətbiq sferasına görə - milli yurisdiksiya (ərazi yurisdiksiyası, şəxsi yurisdiksiya), eksterritorial yurisdiksiya;

-həcm əlamətinə görə - tam yurisdiksiya, məhdud yurisdiksiya.

Praktikada tez-tez belə hallara rast gəlinir ki, həkim personalı bir ölkənin tibb müəssisəsindən digər ölkənin tibb müəssisəsinə keçərkən hüquqi konflikt (məsələn - mübahisə) yaranır. Bu zaman həkim personalının öz ölkəsinin tibb müəssisəsi ilə bağladığı kontraktın qüvvədəolma müddəti bitənədək **rəqabət yurisdiksiyası** vəziyyəti yaranır, yəni maraqlı olan iki və daha çox dövlət yaranmış situasiya ilə bağlı işə baxılmasında öz yurisdiksiyalarının həyata keçirilməsində iddialı olurlar və bununla da müəyyən problemlər ortaya çıxır. Belə problemlər, bir qayda olaraq, beynəlxalq tibb müqavilələri və (və ya) beynəlxalq tibb adətləri əsasında həll edilir.

Universal beynəlxalq hüquq subyektliyi və suverenlik dövlətləri belə bir hüquqla təmin edir ki, onlar özləri **beynəlxalq tibb hüquq normaları yaradır və tətbiq edirlər.** Təsadüfi deyil ki, BTH normaları yaratmaq dövlətin beynəlxalq hüquq subyektliyinin xarakterik əlamətlərindən biri sayılır; həmin normalar isə beynəlxalq müqavilələr (sazişlər) bağlamaq yolu ilə yaradılır.[1]

Dövlətlər başqa dövlətlərlə beynəlxalq tibb münasibətlərinin istənilən sahəsində həm çoxtərəfli, həm də ikitərəfli **beynəlxalq müqavilə (saziş)** bağlaya bilər ki, bu, onların beynəlxalq tibb münasibətlərində iştiraketmə formalarından biridir; beynəlxalq tibb fəaliyyəti sahəsində müqavilələr (sazişlər) bağlamaqda yalnız onlar tam beynəlxalq fəaliyyət qabiliyyətinə malikdirlər. Bu məsələdə dövlətlər BTH-nin yeganə subyekti hesab edilir. İstənilən beynəlxalq müqavilənin (sazişin) tərəfləri ancaq dövlətlərdən ibarətdir. Düzdür, BTH-nin digər subyekti olan hökumətlərarası beynəlxalq tibb təşkilatları da beynəlxalq müqavilə bağlaya

[1] Bax:Hüseynova F.E. Sağlamlığın qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı, "Kooperasiya" nəşriyyatı, 2016, s.154-155.

bilərlər; lakin onların bu sahədə hüquqi imkanı məhdud olub, dövlətlərdə olduğu kimi geniş deyildir.

Dövlətlərin beynəlxalq dövlətlərarası tibb münasibətlərində iştirakı təkcə bununla, yəni beynəlxalq tibb müqavilələri bağlamaqla bitmir; onlar həm də **beynəlxalq hökumətlərarası tibb təşkilatlarında** iştirak edə bilərlər. Tibb fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ayrı-ayrı dövlətlərin həm universal (məsələn, BMT, ÜST, UNESCO, ÜƏMT və s.), həm də regional (məsələn, Avropa İttifaqı, Afrika İttifaqı, MDB və s.) dövlətlərarası / hökumətlərarası beynəlxalq səhiyyə-tibb təşkilatlarında iştirak etməsi mümkündür.

Öz məzmununa görə kifayət dərəcədə müxtəlif olan beynəlxalq dövlətlərarası tibb münasibətlərində dövlətlər müstəqil surətdə iştirak etmək hüququna malikdirlər; bu zaman dövlətlər malik olduqları suverenlik hüququ əsasında hərəkət edirlər. Məhz suverenlik kimi siyasi-hüquqi xüsusiyyət dövlətlərə imkan verir ki, onlar BTH-nin universal subyekti hesab edilsinlər. Suverenliyin daşıyıcısı olan dövlət öz tibb fenomeni funksiyasını reallaşdıraraq ölkəni beynəlxalq tibb münasibətlərində təmsil edir, beynəlxalq hüquq və vəzifələri həyata keçirmək qabiliyyətinə malik olur.

Eyni zamanda, BTH-nin subyekti kimi dövlətin hüquqi vəziyyətini xarakterizə edən əsas cəhətlərdən biri ondan ibarətdir ki, o, immunitetdən istifadə edir; immunitet BTH-nin subyekti olan dövlətin hüquqi statusunun vacib elementidir.

Qeyd etməliyik ki, dövlət immuniteti beynəlxalq hüququn əsas prinsiplərindən biri sayılır; hüquq ədəbiyyatında ona həm də beynəlxalq xüsusi (mülki) hüququn prinsipi kimi baxılır.[1] Bununla bərabər, bu prinsipin BTH üçün də mühüm əhəmiyyəti vardır. Belə ki, immunitet prinsipi, ilk növbədə, dövlətlərin iştirak etdikləri beynəlxalq tibb münasibətlərdə də təzahür edir, orada öz əksini tapır.

[1] Ətraflı bax: məsələn, Allahverdiyev S.S. Azərbaycan Respublikasının Beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. II nəşr. Bakı, 2021, s.311-344; Богуславский М.М. Иммунитет государства. М., 1962; Богуславский М.М. Иммунитет иностранного государства // СЕМП. 1980. М., 1981, с.228-242 və b.

BTH-nin subyekti kimi dövlət başqa dövlətlərlə, eləcə də hökumətlərarası beynəlxalq tibb təşkilatları ilə beynəlxalq tibb münasibətlərinə girir; bu zaman o, beynəlxalq hüququn prinsipinə əsasən, dövlət immunitetindən istifadə edir.

Dövlət immuniteti dedikdə suveren dövlətin başqa dövlətlərin qanunverici, icra və məhkəmə hakimiyyətinin hər hansı hərəkətinə tabe olmaması başa düşülür. Əgər hansı dövlətə başqa dövlətin yurisdiksiyası aid və şamil olunmazsa, bu onu ifadə edir ki, həmin dövlət immunitetdən istifadə edir. Dövlətin yurisdiksiyası isə elə bir hakimiyyət deməkdir ki, həmin hakimiyyətin hədləri hüquqla müəyyən olunur. Hüquqsuz yurisdiksiya yoxdur; ilk növbədə, yurisdiksiya hakimiyyətdir; lakin hakimiyyət məcburetməyə əsaslanır ki, bunsuz da hakimiyyət mövcud ola bilməz. Buna görə də, yurisdiksiya dövlət məcburetməsi deməkdir ki, bu, müəyyən hüquqi formada həyata keçirilir.[1] İmmunitet də hər hansı bir dövlətə başqa dövlətin məcburetmə imkanının tətbiq edilməməsi deməkdir.

Dövlət immuniteti prinsipi **dövlət suverenliyi** anlayışı ilə sıx surətdə bağlıdır. Belə ki, həmin prinsipin əsasında dövlət suverenliyi durur. Suverenlik hər bir dövlətin ayrılmaz xüsusiyyəti olub, bütün dövlətlərin hüquqi cəhətdən bərabərliyini və onların bir-birindən asılı olmamasını ifadə edir ki, bunun nəticəsində heç bir dövlət öz hakimiyyətini başqa dövlətə münasibətdə həyata keçirə bilməz. Suverenlik hər bir dövlətə imkan verir ki, öz ərazisi daxilində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərini tam və müstəqil surətdə həyata keçirsin. Beynəlxalq münasibətlər sahəsində, o cümlədən beynəlxalq tibb mönasibətləri sferasında dövlətin xarici dövlətin hakimiyyətinə tabe olmaması, yəni immunitetdən istifadə etməsi məhz suverenlik kimi vacib siyasi-hüquqi xüsusiyyətdən irəli gəlir. Təsadüfi deyil ki, dövlət immuniteti suverenliyin ifadə formalarından biridir.[2]

2.4.Beynəlxalq təşkilatlar beynəlxalq tibb hüququnun subyekti kimi

2.4.1.Beynəlxalq təşkilatların tibb sferasında fəaliyyətinin hüquqi tənzimlənməsi

[1] Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.159.
[2] Вельяминов Г.М. Международное экономическое право и процесс. М., 2004, с.52.

Qeyd etməliyik ki, müasir dövrdə BTH-nin subyektləri sırasında beynəlxalq təşkilatlar vacib yer tutur və onların sayı günbəgün artır. Bu cür təşkilatlar beynəlxalq münasibətlərin, o cümlədən beynəlxalq tibb münasibətlərinin institusional (təşkilati) əsası kimi əhəmiyyətli rol oynayır. Onlar tibb fəaliyyəti sferasında, başlıca olaraq, **dövlətlərarası beynəlxalq əməkdaşlığın universal səviyyədə koordinasiya funksiyasını** - əlaqələndirici funksiyanı yerinə yetirirlər.

Beynəlxalq tibb əməkdaşlığının həyata keçirilməsində **Birləşmiş Millətlər Təşkilatı** (BMT) və onun ixtisaslaşdırılmış təsisatları mühüm əhəmiyyət kəsb edir. BMT 1945-ci ildə yaradılmışdır,bu gün dünyanın 192 ölkəsi (o cümlədən 1992-ci ildən Azərbaycan Respublikası) onun üzvüdür.[1] Adıçəkilən ümumi səlahiyyətli beynəlxalq təşkilatın əsas orqanları aşağıdakılardır: BMT-nin Baş Assambleyası, BMT-nin Təhlükəsizlik Şurası, BMT-nin İqtisadi və Sosial Şurası, BMT-nin Qəyyumluq Şurası (hal-hazırda bu orqan ləğv edildiyinə görə mövcud deyildir), BMT-nin Beynəlxalq Məhkəməsi və BMT-nin Katibliyi.

BMT aşağıdakı **məqsədləri** güdür: beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq; millətlər arasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipinə hörmət əsasında dostluq münasibətlərini inkişaf etdirmək, habelə ümumi sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək; iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində beynəlxalq əməkdaşlığı həyata keçirmək; irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq; bu ümumi məqsədlərə çatmaq üçün millətlərin hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq.[2]

Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün BMT və onun üzvləri aşağıdakı **prinsiplərə** uyğun hərəkət edirlər: BMT-nin bütün üzvlərinin suveren

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.115-131.
[2] BMT-nin strukturu, məqsəd və prinsipləri barədə ətraflı bax: məsələn, Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, ABU, 2008, s.88-92.

bərabərliyi prinsipi; öz üzərinə götürülən öhdəlikləri vicdanla yerinə yetirmək vəzifəsi; beynəlxalq mübahisələri dinc vasitələrlə həll etmək prinsipi; beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinmək prinsipi; BMT-yə onun Nizamnaməsinə uyğun etdiyi hərəkətlərdə üzv-dövlətlər tərəfindən hərtərəfli yardım göstərilməsi prinsipi; BMT ona üzv olmayan dövlətlərin BMT Nizamnaməsinə uyğun hərəkət etmələrini təmin edir; istənilən dövlətin daxili yurisdiksiyasına aid edilən məsələlərə BMT-nin qarışmaması prinsipi.

BMT hal-hazırda tibb sahəsində dövlətlərin beynəlxalq əməkdaşlığının müxtəlif formalarını bir yerdə **cəmləşdirən mərkəz** rolunu oynayır. Məsələn, "İnsanın klonlaşdırılması haqqında" Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsi (2005-ci il) xüsusi əhəmiyyət kəsb edir. Bəyannamədə bildirilir ki, üzv-dövlətlər biologiya elminin tətbiqi prosesində insan həyatının müdafiəsi üçün zəruri tədbirlər görməli, eləcə də insan ləyaqətinə zidd ola biləcək gen mühəndisliyi metodlarının tətbiqinə qarşı tədbirlər həyata keçirməlidirlər.[1] Eyni zamanda, BMT-nin İqtisadi və Sosial Şurası tərəfindən qəbul edilmiş "İnsan hüquqları və bioetikaya dair EKOSOS Qətnaməsi" (2003-cü il), eləcə də "Genetik konfidensiallıq və qeyri-diskriminasiyaya dair EKOSOS Qətnaməsi" (2004-cü il) elmi tərəqqinin əhalinin rifahına xidmət etməsi, habelə insan hüquqlarının qorunması, şəxsiyyətin ləyaqəti və toxunulmazlığı aspektlərində üzv-dövlətləri qarşılıqlı faydalı əməkdaşlıq etməyə çağırır. BMT müəyyən ixtisaslaşmış təsisatlar sisteminə malikdir, onun strukturunda, o cümlədən aidiyyəti üzrə beynəlxalq səhiyyə-tibb fəaliyyətinin inkişafı ilə məşğul olan orqanlar – Ümumdünya Səhiyyə Təşkilatı, Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilat, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı və s. təsisatlar mövcuddur. İxtisaslaşmış təsisatlarla BMT arasında əlaqə onun əsas məqsəd və prinsiplərinə uyğun həyata keçirilir. Bu kontekstdə BMT-nin əsas ixtisaslaşmış təsisatlarından biri **Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) sayılır. ÜST 1946-cı ildə təsis edilmişdir və ümumi səlahiyyətli regionlararası universal təşkilat kimi

[1] Bioetika: sənədlər, terminlər / A.Mustafayeva. Bakı, "ELM", 2009, s.283.

müvafiq nizamnamə əsasında beynəlxalq səhiyyə sahəsində fəaliyyət göstərir; onun Nizamnaməsi isə 1946-cı ildə qəbul olunmuş və 7 aprel 1948-ci il tarixdən qüvvəyə minmişdir. Həmin vaxtdan başlayaraq, hər il 7 aprel günü **"Ümumdünya Sağlamlıq Günü"** kimi qeyd olunur. ÜST-nin üzvləri 194 dövlətdən ibarətdir; Azərbaycan Respublikası da 1992-ci ildən onun üzvləri sırasına daxildir.[1]

ÜST-nin **məqsədi** aşağıdakılardan ibarətdir: milli səhiyyə qurumlarının möhkəmləndirilməsi; səhiyyə sahəsində mütəxəssis hazırlanması işinə yardım edilməsi; təhlükəli xəstəliklərə qarşı mübarizə aparılması; ana və uşaqların sağlamlığının qorunması; ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması; sosial xarakterli problemlərin aidiyyəti üzrə tibb tədbirləri vasitəsilə həll edilməsi; insanların sağlamlığının qorunması və möhkəmləndirilməsi və s.

Təşkilat bir neçə **əsas istiqamətdə** fəaliyyət göstərir: infeksion xəstəliklərlə mübarizə aparmaq, beynəlxalq sanitariya və karantin qaydaları işləyib hazırlamaq, inkişaf etməkdə olan ölkələrə tibbi-texniki yardım etmək, səhiyyə sisteminin öz funksiyasını normal yerinə yetirməsinə kömək göstərmək, sosial xarakterli məsələləri həll etmək.

Təşkilat bir neçə orqandan ibarətdir ki, o, həmin orqanlar vasitəsi ilə öz fəaliyyətini həyata keçirir. Söhbət, ilk növbədə, **Ümumdünya Səhiyyə Assambleyasından** gedir. Assambleya Təşkilatın apardığı siyasət və fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirir, onun büdcəsini təsdiqləyir, səhiyyə məsələlərinə dair konvensiya və qaydalar qəbul edir. Bunlar isə, imkan verir ki, Assambleya Təşkilatın ali orqanı kimi statusa malik olsun. Bu orqanda bütün üzv-dövlətlərin nümayəndələri təmsil edilmişdir. Assambleya ildə bir dəfə iclas keçirir.

İcraiyyə Komitəsi təşkilatın digər orqanı sayılır və o, adından göründüyü kimi, icra funksiyasını həyata keçirir, yəni icra orqanı hesab edilir. İcraiyyə Komitəsi ümumi iş proqramını hazırlayaraq təsdiq olunmaq üçün Assambleyaya təqdim edir, maliyyə məsələlərinə baxır; o, həmçinin Assambleyanın gündəliyini

[1] URL :http://www.aze.AZ (09.10.2022-ci il).

hazırlayır. İcraiyyə Komitəsi 30 dövləti təmsil edən üzvlərdən ibarətdir ki, həmin üzvlər Assambleya tərəfindən 3 il müddətinə seçilir; onlar ildə iki dəfədən az olmayaraq toplanır və iclas keçirirlər.

Təşkilatın tərkibində **Katiblik** kimi orqan da fəaliyyət göstərir; Katiblik inzibati orqan sayılır. Bu orqan baş direktordan, habelə inzibati və texniki heyətdən ibarətdir. Baş direktor Katibliyə başçılıq və rəhbərlik edən şəxsdir. O, Assambleya tərəfindən təyin olunur. Təşkilatın Katibliyi İsveçrənin Cenevrə şəhərində yerləşir.[1]

ÜST beynəlxalq münasibətlər üzrə tibbi əlaqələndirmə platformasında dünya tibb ailəsinin formalaşmasında əhəmiyyətli rol oynayır. Burada**,** təbii ki, **Beynəlxalq Hərbi Tibb Komitəsi** (BHTK, 1990-cı il), xüsusilə, diqqəti cəlb edir. BHTK Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hərbi-tibbi məsələlər üzrə ixtisaslaşmış beynəlxalq qurum kimi tanınmışdır. Hazırda 112 dövlətin üzv olduğu Beynəlxalq Hərbi Tibb Komitəsinin əsas vəzifəsi hərbi tibb sahəsində texnoloji və elmi təcrübə mübadilələrini təşviq etməkdən ibarətdir. Azərbaycan Respublikası da Hindistanın paytaxtı Nyu-Dehlidə keçirilən Beynəlxalq Hərbi Tibb Komitəsinin 42-ci Ümumdünya Konqresində BHTK-nın tamhüquqlu üzvü seçilmişdir (2017-ci il). Bununla bağlı olaraq, Azərbaycan Respublikası 27 iyun 2019-cu il tarixli 1613-VQ nömrəli qanunla 2013-cü il 9 dekabr tarixində düzəliş edilmiş "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmuşdur.[2] Hüquqi statusuna görə, BHTK hərbi tibb üzrə hökumətlərarası beynəlxalq təşkilatdır (Nizamnamə, maddə 1); onun Baş Katibliyi Belçikada yerləşir.

Qeyd edə bilərik ki, silahlı qüvvələr sektorunda hərbi tibb və təbabət fəaliyyətinin həyata keçirilməsində, eləcə də bu istiqamətdə dövlətlərarası

---

[1] Ətraflı bax: bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild. Xüsusi hissə. Bakı, 2018, s.136-137.

[2] https://e-qanun.az › framework (10.10.2022-ci il).

beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində Beynəlxalq Hərbi Tibb Komitəsi özünəməxsus yer tutur. [3]

BMT-nin **Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı** (UNESCO) ixtisaslaşmış təsisatlardan digəridir. London şəhərində 1945-ci ildə keçirilən konfransda təsis olunmuş UNESCO özünün müvafiq nizamnaməsi əsasında fəaliyyət göstərir. Nizamnamə 1946-cı il noyabrın 4-də qüvvəyə minmişdir; 1946-cı ilin dekabr ayından isə UNESCO BMT-nin ixtisaslaşmış təsisatı kimi tanınır. Təşkilatın tərkibi 192 üzv-dövlətdən ibarətdir; Azərbaycan Respublikası da 1992-ci ildən onun iştirakçısı və üzvü olan dövlətlər sırasına daxildir.[1]

UNESCO təhsil, elm və mədəniyyət kimi sahələrdə **beynəlxalq əməkdaşlığı** həyata keçirən ümumi səlahiyyətli universal təsisatdır. Həmin sahələrdə beynəlxalq əməkdaşlığı genişləndirmək, xalq təhsilini və maarifi inkişaf etdirmək, elm və mədəniyyəti yaymaq onun əsas vəzifələri sayılır. Bu məqsədlə təşkilat bir sıra dövlətlə müvafiq sazişlər bağlamışdır. Məsələn, Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə çərçivə Sazişi (2013-cü il) imzalanmışdır.[2]

UNESCO-nun **strukturu** aşağıdakı orqanlardan ibarətdir: Baş Konfrans, İcraiyyə Şurası, Milli komissiyalar, Regional Struktur, Katiblik. **Baş Konfrans** əsas orqanlardan biridir və UNESCO-nun ali orqanı sayılır. Bu orqanda öz nümayəndələri vasitəsi ilə bütün üzv-ölkələr iştirak edirlər. Baş Konfrans təşkilatın siyasətini və ümumi fəaliyyət istiqamətlərini müəyyənləşdirir, onun proqramlarını və büdcəsini təsdiqləyir, təşkilata yeni üzvlər qəbul edir; Nizamnaməyə dəyişiklik etmək, beynəlxalq konvensiyaların layihələrini qəbul etmək və təşkilatın bağladığı beynəlxalq sazişləri təsdiqləmək də onun səlahiyyətinə daxil olan məsələlər sayılır.

[3] Sözügedən orqanın fəaliyyət istiqamətləri, funksiyaları və vəzifələri barədə ətraflı bax: Aynurə Əliyeva, Fatimə Hüseynova, Elvin Əzizov. Beynəlxalq Hərbi Tibb Komitəsi:anlayışı, tibbi və hüquqi aspektlər // Hüquqi müstəvi. Bakı, 2022, №3(11), s.60-70.

[1] URL:http://www.unesco.ru (10.10.2022-ъи ил).

[2] Бах: АР ГТ.Bakı, 2013, № 8, маддя 910.

Bunlar onu göstərir ki, ali orqan kimi Baş Konfrans geniş səlahiyyətlərə malikdir. Baş Konfrans sessiya formasında işləyir, fəaliyyət göstərir. Sessiya isə iki ildə bir dəfə çağrılır. Baş Konfransın işini təşkil etmək üçün Baş Komitə yaradılmışdır. Baş Komitə Baş Konfransın daimi fəaliyyət göstərən orqanı sayılır və ona prezident başçılıq edir.

İcraiyyə Şurası UNESCO-nun digər orqanı sayılır. Bu orqan Baş Konfransın sessiyaları arasındakı dövrdə UNESCO-nun fəaliyyətinə rəhbərlik edir; bu səbəbdən o, əsas rəhbərlik orqanı sayılır. İcraiyyə Şurası Baş Konfransın gündəliyini hazırlayır, proqram və büdcənin layihələrinə baxır, təşkilata yeni üzvlər tövsiyə edir və səlahiyyətinə aid olan digər məsələləri həll edir. İcraiyyə Şurası 58 üzvdən ibarətdir; onlar Baş Konfrans tərəfindən dörd il müddətinə seçilir.

UNESCO-nun strukturuna həm də **Katiblik** kimi orqan daxildir; bu orqan UNESCO-nun proqramlarını yerinə yetirir, təşkilatın fəaliyyəti barədə vaxtaşırı məruzələr (hesabatlar) hazırlayır, büdcənin layihəsini tərtib edir; o, inzibati-texniki funksiya yerinə yetirən orqandır. Katiblik baş direktordan və qulluqçulardan ibarətdir. Baş direktor Katibliyə başçılıq edən şəxsdir. O, Baş Konfrans tərəfindən altı il müddətinə təyin olunur. Baş direktor postuna namizəd olan şəxsi isə Baş Konfransa İcraiyyə Şurası təqdim edir. Katibliyin olduğu yer Fransanın Paris şəhəridir.

UNESCO-nun üzvü olan dövlətlərdə **milli komissiyalar** yaradılır. Onlar UNESCO-nun proqramlarının işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edirlər.[1]

Qed etməliyik ki, UNESCO öz fəaliyyətində insanların sağlamlığının qorunması, cəmiyyətdə nadir xəstəliklərin araşdırılması və onların müalicə metodlarının hazırlanması işinin təşviq edilməsi kimi prioritet istiqamətlərə xüsusi diqqət yetirir. Bu baxımdan, sözügedən orqanın himayəsi altında qəbul olunmuş

[1] Ümumiyyətlə, BMT-nin strukturuna daxil olan bu və digər beynəlxalq təşkilatlar barədə ətraflı məlumat almaq üçün bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə. Bakı, 2018, s.115-140.

silsilə sənədlər sırasında aşağıdakıları göstərə bilərik:

- Bioetikaya dair UNESCO-nun Proqramı (1993-cü il);

- İnsan genomu və insan hüquqları haqqında UNESCO-nun Ümumi Bəyannaməsi (1997-ci il);

- Bioetika və uşaq hüquqları (UNESCO, Paris, 2001-ci il);

- Bioetikaya və uşaq hüquqlarına dair UNESCO Qətnaməsi (2003-cü il);

- İnsanın genetik məlumatları haqqında UNESCO Bəyannaməsi (2003-cü il);

-İnsan hüquqları və bioetikaya dair Ümumi Bəyannamə (UNESCO-nun Baş konfransı tərəfindən 2005-ci ildə qəbul edilmişdir) və digər sənədlər.[1]

BMT-nin ixtisaslaşmış təsisatlarından digəri **Ümumdünya Əqli Mülkiyyət Təşkilatı** (ÜƏMT) sayılır ki, o, müvafiq konvensiya əsasında təsis olunmuşdur. Göstərilən konvensiya 1967-ci ildə Stokholm şəhərində keçirilən əqli mülkiyyət üzrə konfransda qəbul edilmiş və 1970-ci ildə qüvvəyə minmişdir. 1974-cü ildə ÜƏMT qurumu BMT-nin ümumi səlahiyyətli ixtisaslaşmış universal təsisatı kimi status əldə etmişdir. Təşkilatın tərkibinə 184 üzv-dövlət daxildir və Azərbaycan Respublikası da 1996-cı ildən ÜƏMT-nin iştirakçısıdır.[2]

Adıçəkilən təşkilatın məqsədləri aşağıdakılardan ibarətdir: dünyada əqli mülkiyyət hüquqlarının qorunmasına yardım göstərmək (məsələn, tibbi fəaliyyət tədbirlərində əqli mülkiyyət obyektlərinin – firma adı, əmtəə nişanı, xüsusi xidmət nişanı və s. geniş surətdə reklam olunması praktikası mövcuddur; həmçinin tibb sahəsində yeni nailiyyətlər və rekord göstəricilər əldə etmiş həkimlərin, tibb mütəxəssislərinin və alimlərin əqli mülkiyyət hüquqlarının qorunması müasir dövrdə aktual məsələlərdən biridir); əqli mülkiyyət sahəsində bağlanan beynəlxalq tibb müqavilələrinin həyata keçirilməsinə köməklik göstərmək; əqli mülkiyyətin qorunması sahəsində fəaliyyət göstərən müxtəlif qurumların inzibati idarəçiliyini təmin etmək; əqli mülkiyyət sisteminin təkmilləşdirilməsinə dəstək vermək və s.

[1] Bu və digər sənədlərlə ətraflı tanış olmaq üçün bax: Bioetika: sənədlər, terminlər / A.Mustafayeva. Bakı, "ELM", 2009, 336 s.

[2] URL:http://www.1news.az (23.10.2022-ъи ил).

ÜƏMT-nin strukturuna dörd orqan daxildir: Baş Assambleya, Konfrans, Əlaqələndirmə Komitəsi, Beynəlxalq Büro. **Baş Assambleya** təşkilatın ali orqanı sayılır ki, o, təşkilata üzv olan dövlətlərdən ibarətdir. Baş Assambleya təşkilatın siyasətini və ümumi fəaliyyət istiqamətlərini müəyyənləşdirir, eləcə də büdcəni təsdiq edir. ÜƏMT-nin baş direktoru əsas inzibati vəzifəli şəxs hesab olunur.

Ali orqan funksiyasını həm də **Konfrans** həyata keçirir. Konfrans ÜƏMT-nin üzvü olan bütün dövlətlərin nümayəndələrindən ibarətdir. Həmin orqan əqli mülkiyyətin ümumi maraq doğuran məsələ və problemləri müzakirə edir; müzakirəyə çıxarılan məsələ və problemləri barədə müvafiq tövsiyələr qəbul edir. ÜƏMT-nin yaradılması haqqında konvensiya sənədinə dəyişiklik edilməsi Konfransın səlahiyyətlərinə aid olan məsələdir. Konfrans, bir qayda olaraq, iki ildə bir dəfə çağırılır.

ÜƏMT-nin **Əlaqələndirmə Komitəsi** ümumi məsələlərə baxır; bu orqan Paris və Bern ittifaqlarının fəaliyyətini koordinasiya edir. Paris İttifaqı sənaye mülkiyyətinin, Bern İttifaqı isə ədəbiyyat və incəsənət əsərlərinin qorunması sahəsində yaradılmışdır.

ÜƏMT-nin icra orqanı olan **Beynəlxalq Büro**, eyni zamanda, təşkilatın katibliyi sayılır. O, təşkilatın bütün orqanlarına texniki xidmət göstərilməsini təmin edir. Beynəlxalq Büroya baş direktor rəhbərlik edir və o, Baş Assambleya tərəfindən altı ildən az olmayan müddətə seçilir. ÜƏMT-nin olduğu yer (mənzil-qərargah) İsveçrənin Cenevrə şəhəridir.[1]

BMT-nin ixtisaslaşmış təsisatlarından biri də **Beynəlxalq Əmək Təşkilatı** (BƏT) sayılır. BƏT 1919-cu ildə dövlətlərarası beynəlxalq təşkilat kimi yaradılmışdır və onun fəaliyyət istiqamətlərinin hüquqi əsasını müvafiq nizamnamə təşkil edir. BƏT-in Nizamnaməsi 1919-cu ildə qəbul olunsa da, ona 1946-cı ildə yenidən baxılmışdır. BƏT məhz həmin ildən etbarən BMT-nin ümumi səlahiyyətli ixtisaslaşmış universal təsisatı kimi statusa malikdir və hal-hazırda 1953-cü il redaksiyasında olan Nizamnamə qüvvədədir. BƏT-in mənzil-qərargahı İsveçrənin

[1] Ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq əqli mülkiyyət hüququ. Bakı, MHA nəşriyyatı, 2013, 36 s.

Cenevrə şəhərində yerləşir; bu beynəlxalq təşkilat, tərkibcə, 174 üzv-dövlətdən ibarətdir. Eyni zamanda, qeyd etməliyik ki, dövlətlərlə bərabər, sözügedən BƏT qurumunda həmkarlar ittifaqları, yəni zəhmətkeşlər birliyi və sahibkarlar da təmsil olunmuşdur. Azərbaycan Respublikası da adıçəkilən beynəlxalq təşkilata 1992-ci ildən etibarən tamhüquqlu statusla üzv seçilmişdir.[1] BƏT-in **məqsədləri** aşağıda göstərilənlərdən ibarətdir: dünyada sosial ədalətin bərqərar olmasına yardım etmək; əmək şəraitini yaxşılaşdırmaq və zəhmətkeşlərin həyat səviyyəsini yüksəltmək; qadın və yeniyetmələrin əmək hüquqlarını müdafiə etmək; əmək münasibətləri sahəsində insan hüquqlarının müdafiəsinə dair büynəlxalq siyasəti formalaşdırmaq; əmək hüququna (əməkhaqqı, iş vaxtı, əməyin mühafizəsi, o cümlədən tibb fəaliyyətinin həyata keçirilməsi sahəsində və s.) dair beynəlxalq konvensiya və tövsiyələr hazırlamaq.[1] Eyni zamanda, BƏT öz fəaliyyətini üç əsas orqan vasitəsi ilə həyata keçirir ki, onlara aşağıdakılar aiddir: Beynəlxalq Əmək Konfransı, İnzibati Şura, Beynəlxalq Əmək Bürosu. Həmin orqanlardan biri olan **Beynəlxalq Əmək Konfransı** BƏT-in ali orqanı sayılır. Bu orqan həm də Baş Konfrans adlanır. Baş Konfrans ildə bir dəfə çağrılır və büdcəni qəbul edir, eləcə də əmək və həyat şəraitinə dair vacib əhəmiyyət kəsb edən beynəlxalq standartlar müəyyənləşdirir. Baş Konfrans üzv-dövlətlərdən olan ayrı-ayrı nümayəndələrdən ibarətdir (hökumətləri iki, sahibkar və zəhmətkeşləri isə bir nümayəndə təmsil edir). Bu o deməkdir ki, Baş Konfransda üçtərəfli nümayəndəlik sistemi mövcuddur (hökumət, sahibkarlar və zəhmətkeşlər).

BƏT-in digər əsas orqanı **İnzibati Şura** sayılır. Bu orqan BƏT-in siyasət istiqamətlərini hazırlayır və onun müvafiq proqramlarını işləyir, eləcə də Baş Konfransın gündəliyinin hazırlanması onun səlahiyyətinə aiddir. İnzibati Şura seçkili orqan olduğu üçün Baş Konfrans tərəfindən həyata keçirilən müvafiq seçki yolu ilə formalaşır. Başqa cür desək, İnzibati Şuranı Baş Konfrans seçir.

BƏT-in İnzibati Şurası həm də **Beynəlxalq Əmək Bürosunun** fəaliyyətinə

[1] URL: http://www.anl.az (24.10.2022-ъи ил).

[1] Əmək münasibətlərinin tənzimlənməsi barədə ətraflı bax: Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2007, 560 s.

rəhbərlik edir. Beynəlxalq Əmək Bürosu isə, qeyd etdiyimiz kimi, BƏT-in əsas orqanlarından biri olmaqla onun **Katibliyi** hesab edilir. BƏT-in Katibliyinə baş direktor rəhbərlik edir. Katiblik isə təşkilatın konvensiyalarının yerinə yetirilməsinə nəzarət edir, eləcə də nəşriyyat-poliqrafiya fəaliyyəti ilə məşğul olur. O, həm də Baş Konfrans və İnzibati Şura tərəfindən həvalə edilən tapşırıqları yerinə yetirir.[1]

Beynəlxalq tibb fəaliyyəti sahəsində əməkdaşlığın inkişafına yuxarıda göstərilən beynəlxalq təşkilatlarla yanaşı, ümumi xarakterli **regional beynəlxalq təşkilatlar** da, öz töhfəsini verərək, əhəmiyyətli təsir göstərir. Bu sırada, ilk növbədə, Avropa Şurasının adı, xüsusilə, çəkilməlidir.

Məlum olduğu kimi, **Avropa Şurası** (AŞ) regional dövlətlərarası beynəlxalq təşkilatlar qrupuna aiddir. AŞ dövlətlərarası siyasi təşkilat statusuna malik olan ən mühüm Avropa təşkilatlarından biridir. Bu təşkilat 1949-cu ildə on Qərbi Avropa dövləti tərəfindən yaradılmış və hal-hazırda onun üzvü olan dövlətlərin sayı 47-yə çatmışdır. AŞ qurumunun tərkibinə Avropa ölkələri (Almaniya, Albaniya, Avstriya, Belçika, Bolqariya, Danimarka, Fransa, Türkiyə, İspaniya, İsveçrə, İtaliya, Litva, Latviya, Estoniya, Norveç, Polşa və digər dövlətlər) daxildir. Eyni zamanda, postsovet ölkələri – Rusiya Federasiyası, Ukrayna, Moldova, Gürcüstan və s. ölkələr Avropa Şurasının üzvüdür; Azərbaycan Respublikası da Avropa Şurasının iştirakçısıdır.[2] Bəzi dövlətlər isə Avropa Şurasınında müşahidəçi statusu ilə iştirak edirlər – məsələn, ABŞ, Kanada, Meksika və Yaponiya. Dövlətəbənzər qurum olan Vatikan da müşahidəçi statusu ilə Avropa Şurasınında iştirak edir. Avropa Şurası öz nizamnaməsi əsasında fəaliyyət göstərir. Təşkilatın təsis aktı olan bu nizamnamə 1949-cu il 5 may tarixində London şəhərində imzalanmış və həmin il avqustun 3-də qüvvəyə minmişdir. Avropa Şurasının Nizamnaməsində onun **məqsədləri** açıqlanmışdır: üzv-dövlətlər arasında daha sıx əlaqəni təmin etmək; üzv-dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etmək; insan haqlarını (hüquq

[1] Ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.134-136.

[2] AŞ-nin yaradılması,təşkilati strukturu və əsas orqanları barədə ətraflı bax: Əliyev Ə.İ., Əliyev E.Ə., Məmmədov Ə.Q., Hüseynova F.E. Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə.Bakı, 2019, II bölmə, s.691-712.

və azadlıqlarını) müdafiə etmək; Avropa Şurasının digər Avropa ölkələri ilə fəaliyyətini əlaqələndirmək; bioetika, narkomaniya və digər problemlərin birgə həllini tapmaq və s.

Nizamnamədə təsbit edilmiş məqsədlərə nail olmaq üçün üzv-dövlətlər öz aralarında beynəlxalq müqavilə bağlamaq yolu ilə qarşılıqlı **əməkdaşlıq** həyata keçirirlər. Avropa Şurası çərçivəsində xeyli sayda beynəlxalq müqavilə (konvensiya, saziş, protokol) işlənib hazırlanmış və imzalanmışdır. Belə ki, AŞ formatında 170-dən çox beynəlxalq konvensiya qəbul edilmişdir ki, insan hüquqlarına, elm, təhsil, mədəniyyət, səhiyyə, tibbi fəaliyyət və sairə məsələlərə həsr olunan həmin sənədlər, praktiki cəhətdən, Avropa Şurasının bütün **fəaliyyət sferasını** əhatə edir. Avropa Şurası tərəfindən işlənib hazırlanan beynəlxalq konvensiyalar sırasında "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının adını, xüsusilə, göstətməliyik ki, bu sənəd 1950-ci il 4 noyabr tarixində Romada imzalanmışdır. Avropa Şurası **hüququn aliliyi** kimi vacib prinsipdən çıxış edərək, öz fəaliyyətini bir sıra orqan vasitəsilə həyata keçirir: Nazirlər Komitəsi, Parlament Assambleyası, Yerli və Regional Hakimiyyətlər Konqresi, Katiblik. Qeyd etdiyimiz kimi, **Nazirlər Komitəsi** həmin orqanlardan biridir. Rəhbərlik orqanı sayılan Nazirlər Komitəsi ali icra orqanıdır və təbii ki, icra funksiyasını yerinə yetirir. Bu orqan, tərkibcə, bütün üzv-dövlətlərin xarici işlər nazirlərindən və ya Strasburqda akkreditə olunmuş nümayəndələrdən ibarətdir. Sözügedən orqanın ildə bir dəfə sessiyası keçirilir. Strasburqda akkreditə olunmuş nümayəndələr isə, adətən, həftədə bir dəfə toplanır.

Avropa Şurasının digər rəhbərlik orqanı **Parlament Assambleyasıdır**. O, məsləhətçi orqan sayılır, qanunvericilik səlahiyyətinə malik deyildir və öz fəaliyyətində Nazirlər Komitəsinə müvafiq tövsiyələr verir. Digər tərəfdən, Parlament Assambleyası nümayəndəli orqandır. Belə ki, o, tərkibcə, AŞ üzvü olan dövlətlərin nümayəndələrindən (cəmi 318 nümayəndə) ibarətdir. Adıçəkilən orqanın əsas fəaliyyət forması sessiyadır; il ərzində dörd sessiya keçirilir. AŞ-nin rəhbərlik orqanları sırasına **Yerli və Regional Hakimiyyətlər Konqresi** də daxildir. Nazirlər Komitəsinin müvafiq

qətnaməsinə uyğun olaraq, bu orqan 1994-cü ildə yaradılmışdır. Qeyd etməliyik ki, Avropa Şurası sahəvi nazirlərin - ədliyyə, ekologiya, təhsil, mədəniyyət və digər nazirlərin müşavirəsini keçirir. Bu səbəbdən də, ona, bəzən, Sahəvi Nazirlər Müşavirəsi deyilir. Konqres məşvərətçi orqan olmaqla, yerli və regional hakimiyyətləri təmsil edir. O, iki palatadan ibarətdir: yerli hakimiyyət orqanları palatası, regional hakimiyyət orqanları palatası. Göstərilən palatalar, müvafiq olaraq, yerli və regional hakimiyyət orqanlarının mənafeyini müdafiə edir. Konqres öz işini hər iki palata vasitəsi ilə həyata keçirir. Buna görə də, palatalar konqresin əsas fəaliyyət formasıdır.

Katiblik Avropa Şurasının inzibati orqanı sayılır və tərkibcə, 1200 əməkdaşdan ibarətdir. Həmin orqan, eyni zamanda, Beynəlxalq Katiblik adlanır və onun başlıca işi Avropa Şurasının əsas orqanlarının fəaliyyətinə yardım etməkdən ibarətdir.

Avropa Şurasının mənzil-qərargahı Fransa Respublikasının Strasburq şəhərində yerləşir.[1]

Avropa regionunda insanların sağlamlığının qorunması, yüksək tibbi xidmətlərin göstərilməsi və təkmilləşdirilməsi, eləcə də səhiyyə-tibb sferasında innovasiyaların tətbiqi müasir dövrdə AŞ-nin fəaliyyətinin **məqsədyönlü siyasəti** kontekstində mühüm sahə kimi müəyyən edilmişdir. Bu istiqamətdə müvafiq tədbirlər hökumət və qeyri-hökumət özəl təşkilatları ilə Ümumavropa tərəfdaşlıq fonunda həyata keçirilir. Göstərilənləri nəzərə alaraq, tibb fəaliyyətinin tənzimlənməsi baxımından, qəbul edilmiş aşağıdakı aktları nümunə qismində **fərqləndirə** bilərik:

- Pasiyentlərin hüquqlarının təminatına yardım haqqında Bəyannamə (1994-cü ilin mart ayında Amsterdamda keçirilmiş Ümumdünya Səhiyyə Təşkilatının Xəstələrin hüquqlarına dair Avropa Məsləhətləşmələrində qəbul edilmişdir);

- Səhiyyədə islahatlara dair Lyublyana Xartiyası (1996-cı il; bu sənəddə müasir beynəlxalq səhiyyə sisteminin ayrılmaz tərkib hissəsi və Ümumdünya

[1] Daha ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. II cild.Xüsusi hissə.Bakı, 2018, s.156-159.

Səhiyyə Təşkilatına üzv olan Avropa dövlətlərində tibb xidmətlərinin təkmilləşdirilməsinə yönəldilən prinsiplər ifadə edilmişdir);

- Biologiya və təbabətin nailiyyətlərinin tətbiqi ilə əlaqədar insan hüquqlarının və insan ləyaqətinin qorunmasına dair Konvensiya (1997-ci il aprel ayının 4-də Avropa Şurası Nazirlər Komitəsi tərəfindən Ovyedoda qəbul olunmuşdur);

- Pasiyentlərin hüquqları haqqında Avropa Xartiyası (2002-ci il noyabr ayının 15-də Brüsseldə qəbul edilmişdir) və digər aktlar. Beləliklə, AŞ təşkilatının strukturunda bu gün Avropa regionunda tibb fəaliyyətinin inkişafına pozitiv təsir göstərən, hətta digər ölkələrə nümunə çəkilə biləcək effektiv **hüquqi mexanizm** formalaşmışdır.[1]

2.4.2.Beynəlxalq tibb təşkilatları və onların təsnifatı

Qlobal tibb fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan beynəlxalq qarşılıqlı münasibətlərin nizama salınmasında təkcə ümumi səlahiyyətli beynəlxalq təşkilatların fəaliyyəti kifayət etmir. Buna görə də, fəaliyyət istiqamətləri birbaşa beynəlxalq tibb sahəsi ilə bağlı olan beynəlxalq ixtisaslaşdırılmış təşkilatlar da bu məqsədə xidmət edir; onlara xüsusi səlahiyyətli beynəlxalq təşkilatlar deyilir və bu statusda beynəlxalq tibb təşkilatları çıxış edir.

Beynəlxalq tibb təşkilatları dedikdə insanların sağlamlığının qorunması və tibb sahəsində fəaliyyət göstərən ümumdünya və regional beynəlxalq qeyri-hökumət təşkilatları başa düşülür. Beynəlxalq qeyri-hökumət təşkilatları isə siyasi, iqtisadi, sağlamlığın qorunması, tibbi, mədəni, elmi-texniki və insan fəaliyyətinin digər sferalarında beynəlxalq əməkdaşlığa dəstək göstərilməsi məqsədi ilə, müxtəlif dövlətlərdən olan milli ictimai təşkilatlar, ittifaqlar, qrup və ayrı-ayrı şəxslər tərəfindən yaradılan birlik formasıdır.[1] Bu cür subyektlərin fəaliyyəti, təbii ki, beynəlxalq xüsusi tibb hüququ ilə tənzimlənir. Tibb sahəsində fəaliyyət göstərən

[1] Ətraflı bax: Mammadov V.G. Ethical Issues in Public Health Policy (International Practice and Azerbaijan). Monograph. LAP Lambert Academic Publishing. Beau Bassin, Mauritius, 2017, 57 p.

[1] Ətraflı bax: Международное право.Учебник / Отв.ред.Ю.М.Колосов, С.Э.Кривчикова.М., 2005, с.319-320.

birliklərinin (assosiasiya, federasiya, ittifaq, fond və digər ictimai qurumların) qeyri-hökumət təşkilatlarına aid edilməsi üçün əsas BMT Baş Assambleyasının 23.05.1968-ci il tarixli 1296 (XIV) saylı qətnaməsi əsas götürülə bilər. Belə ki, həmin qətnamədə göstərilir ki, "hökumətlərarası saziş əsasında təsis edilməyən istənilən beynəlxalq təşkilat beynəlxalq qeyri-hökumət təşkilatı kimi tanınır".[1]

Beynəlxalq tibb təşkilatlarının hüquqi **təsnifatını** aşağıda göstərilən əsas qruplar üzrə fəraləndirmək mümkündür: I.Ümumi xarakterli beynəlxalq tibb təşkilatları; II.Ayrı-ayrı tibbi fəaliyyət növləri üzrə beynəlxalq tibb təşkilatları; III.Tibbi bilik və fəaliyyət sahələri üzrə beynəlxalq tibb təşkilatları; IV.Mənsubiyyət əlaməti üzrə bəzi beynəlxalq tibb təşkilatları. **I.Ümumi xarakterli beynəlxalq tibb təşkilatlarının** fəaliyyəti sağlamlığın qorunması istiqamətində hər hansı bir sahə ilə məhdudlaşmır, onlar tibb fəaliyyətinin bütün sferasını əhatə edir. Müasir beynəlxalq tibb hüquq sisteminin özəyi, necə deyərlər, nüvəsi dünyada tibb elmi fəaliyyət hərəkatının rəhbər orqanı olan **Dünya Tibbi Hüquq Assosiasiyası -** DTHA (World Association for Medical Law - WAML) [2] sayılır. Sözügedən Assosiasiya 1967-ci ildə Belçikada tibbi hüquq sahəsində multikultural və fənlərarası problemlərin tədqiqatı məqsədi ilə, hüquq və məhkəmə təbabəti üzrə bir qrup tanınmış mütəxəssis tərəfindən yaradılmışdır. O, BMT-nin UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Cinayət Məhkəməsi və bir çox milli peşəkar assosiasiyalarla əməkdaşlıq həyata keçirir. DTHA-nın mənzil-qərargahı ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində yerləşir. Assosiasiya formasında təsis edilmiş DTHA öz hüquqi təbiətinə görə, daimi fəaliyyət göstərən hüquqi şəxsdir və **beynəlxalq qeyri-hökumət təşkilatı** statusuna malikdir. DTHA Azərbaycan, Avstraliya, Belçika, Böyük Britaniya, İsrail, Kanada, Nigeriya, Peru, Rusiya Federasiyası və digər ölkələrdən olan alimlərin iştirakı ilə dünyanın bir çox regionlarında tibbi hüquq və bioetika sahəsində təhsil proqramlarının inkişafına, həkim və tibb işçilərinin hüquqi və etik

[1] https://translate.academik.ru (27.10.2022-ci il).
[2] Вах: Медицинское право России: учебник / отв. ред. А.А.Мохов. – Москва:Проспект, 2022, с.12.

hazırlığının yüksəldilməsinə aid layihələr həyata keçirir.[3] Ümumi xarakterli beynəlxalq tibb təşkilatları sırasında **Ümumdünya Tibb Assosiasiyasının** (ÜTA) da adını, xüsusilə, çəkməliyik. Belə ki, ÜTA **beynəlxalq qeyri-hökumət təşkilatı** kimi 1947-ci ildə yaradılmışdır. Assosiasiya 100-dən çox milli həkimlər birliklərini özündə birləşdirən beynəlxalq təşkilatdır. O, bütün ölkələrdə həkimlərin riayət etməyə borclu olduqları tibbi praktikada etik normaların hazırlanması ilə məşğuldur. Eyni zamanda, qeyd etməliyik ki, ÜTA-nın himayəsi altında bir sıra vacib sənədlər qəbul edilmişdir. Məsələn: - Beynəlxalq tibbi etika Məcəlləsi (1949-cu il, London); - İnsan üzərində tibbi tədqiqatların etik prinsiplərinə dair Ümumdünya Tibb Assosiasiyasının Helsinki Bəyannaməsi (1964-cü il);

- Pasiyentin hüquqları haqqında Lissabon Bəyannaməsi (1981-ci il);

- İnsan orqanlarının transplantasiyası ilə əlaqədar Bəyanat (1987-ci il, Madrid) və sairə sənədlər.

II.Ayrı-ayrı tibbi fəaliyyət növləri üzrə beynəlxalq tibb təşkilatları da yaradılmışdır. Bu cür beynəlxalq **qeyri-hökumət təşkilatları** (QHT) dünyada müxtəlif xəstəliklərin müalicəsi üzrə ixtisaslaşmış fəaliyyət həyata keçirməklə, vətəndaş cəmiyyətində "beynəlmiləlləşmiş" iştirakçılar kimi müvafiq tibb xidmətlərinin göstərilməsi istiqamətində beynəlxalq xüsusi tibb hüququnun aktiv subyektlər qismində çıxış edirlər. Ayrı-ayrı xəstəliklər üzrə pasiyentlərin müalicə metodlarının təkmilləşdirilməsi, gənc həkim mütəxəssislərin hazırlanması, eləcə də zəruri elmi tədqiqatların aparılması sahəsində ixtisaslaşmış beynəlxalq qeyri-hökumət tibb təşkilatları sırasında aşağıdakı **qurumları** fərqləndirə bilərik:

- Ümumdünya Stomatologiya Federasiyası (1900-cü il);

- Ümumdünya Onkoloqlar, Ortoped-Travmotoloqlar Assosiasiyası (Paris, 1929-cu il);

- Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu (1946-cı il);

- Dünya Karlar Federasiyası (1951-ci il);

[3] Ətraflı bax: DTHA-nın rəsmi veb-saytı - wafml.memberlodge.org и thewaml.com (28.10.2022-ci il).

- Beynəlxalq Spinal Dizrafizm və Hidrosefaliya Federasiyası (1979-cu il);

- Korluğun qarşısının alınması üzrə Beynəlxalq Agentlik (İAPB);

- Beynəlxalq QİÇS Cəmiyyəti (1981-ci il);

- Beynəlxalq Həkim-Mama Assosiasiyası (1987-ci il);

- Beynəlxalq Bioetika Assosiasiyası (1992-ci il);

- Psixiatrik Müalicə Alanların və Psixiatrik Müalicə Qurbanlarının Dünya Şəbəkəsi (1997-ci il);

- Hematologiya sahəsində standartlaşdırma üzrə Beynəlxalq Şura və s.

III.Tibbi bilik və fəaliyyət sahələri üzrə beynəlxalq tibb təşkilatları da mövcuddur. Tibb sahəsində fəaliyyət göstərən bu cür beynəlxalq qeyri-hökumət tibb təşkilatları dünyada müxtəlif xəstəliklərin qarşısının alınması və aradan qaldırılması istiqamətində ÜST-nin müvafiq proqramların icrasına effektiv yardım göstərirlər, həmçinin bu barədə aidiyyəti beynəlxalq təşkilatlara, dövlətlərə və universitetlərə zəruri hesabatlar göndərirlər. Eyni zamanda, həmin təsisatlar gənc həkim personalının hazırlanması və tibbi biliklərin təşviqi üzrə təlim, kurs və seminarların həyata keçirilməsində, eləcə də elmi tədqiqatların aparılması və cəmiyyətdə tibbi maariflənmə işlərinə dəstək kontekstində fəal surətdə iştirak edirlər. Deməli, sözügedən təşkilatlar öz təsis sənədlərinə uyğun olaraq, tibbi fəaliyyət sahəsində həm informasiya funksiyasını, həm də elmi-tədqiqat funksiyasını yerinə yetirirlər. Bu sahədə fəaliyyət göstərən aşağıdakı qurumların adını nümunə qismində çəkə bilərik: - Dünya Əlillik İnstitutu; - Dünya Nevrologiya Federasiyası; - Beynəlxalq Oftalmologiya Şurası; - Beynəlxalq Tibb Tələbələri Assosiasiyaları Federasiyası; - Dünya Neyrocərrahiyə Cəmiyyətləri Federasiyası; - Pan-Afrika Nevroloji Elmlər Assosiasiyaı; - Tibbi elmlər üzrə Beynəlxalq Təşkilatlar Şurası; - Təhsil, təlim və xidmət vasitəsilə Qlobal Səhiyyə; - Ukrayna Həkim-Otolarinqlər Elmi-Tibb Cəmiyyəti; -

Avropa Dərman Agentliyi -EMA; -
İnsan hüquqları üzrə Həkimlər və digər qurumlar. Qeyd etməliyik ki, dünya əhalisinin sağlamlığının qorunması və möhkəmləndirilməsində beynəlxalq qeyri-hökumət tibb təşkilatlarının ÜST ilə əməkdaşlıq etməsi mühüm əhəmiyyət kəsb edir, eləcə də bu sahədə beynəlxalq tibb-hüquq normayaradıcılıq və praktik tədbirlərin həyata keçirilməsinə pozitiv təsir göstərir. Nümunə qismində, məsələn, 2008-ci il may ayının 30-da 22 müxtəlif beynəlxalq qeyri-hökumət tibb təşkilatlarının imzaladığı "Səhiyyə sisteminin gücləndirilməsi üçün QHT-nin Davranış Məcəlləsi"ni göstərə bilərik.

IV.Mənsubiyyət əlaməti üzrə bəzi beynəlxalq tibb təşkilatları. Bu qəbildən olan beynəlxalq qeyri-hökumət tibb təşkilatları müəyyən mənsubiyyət əlamətlərinə görə fərqləndirilir: peşə sənəti ilə əlaqədar, regional mənsubiyyətlə bağlı və sairə.

Bu sırada, məsələn, aşağıdakı təşkilatları göstərə bilərik:

- Belarus Otolarinqlər Cəmiyyəti;
- Beynəlxalq Tibb Bacıları Şurası;
- Beynəlxalq Tibb Tarixi Cəmiyyəti;
- Beynəlxalq Diabet Federasiyası;
-Tibb və Bioloji Mühəndislik Beynəlxalq Federasiyası;
- Rusiya Rinoloqlar Cəmiyyəti;
- Türk Kulak Burun Bogaz ve Baş Boyun Cerrahisi Dernegi;
- Amerika İctimai Sağlamlıq Assosiasiyası;
-Avropa Oftalmologiya Cəmiyyəti;
-**Afrika Sağlamlıq Sərgisi və Konqresi;**
-*Asiya* və Sakit okean regionu üzrə səhiyyə-tibb xidmətləri sahəsində fəaliyyət göstərən müxtəlif özəl tibbi assosiasiya, federasiya və birliklər və s. qurumlar.

Göründüyü kimi, ÜST [1] üzv-dövlətlər və beynəlxalq hökumətlərarası təşkilatlarla qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində qeyri-dövlət subyektlərinə, xüsusilə, beynəlxalq qeyri-hökumət tibb təşkilatlarının fəaliyyətinə önəmli diqqət yetirir. Belə əməkdaşlığın hüquqi bazası qismində ÜST-nin Nizamnaməsi çıxış edir. Həmin sənəddə birbaşa göstərilir ki, sözügedən təşkilat səlahiyyətinə dair məsələlərlə bağlı aidiyyəti dövlətlərin hökumətləri, qeyri-hökumət təşkilatları, milli qurumların razılığı ilə beynəlxalq qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələrin aparılması və əməkdaşlığın qurulması üçün lazımi tədbirlər görə bilər. Həmçinin bu qurumlar arasında münasibətlərin formalaşmasında "Ümumdünya Səhiyyə Təşkilatı və qeyri-hökumət təşkilatları arasında münasibətləri tənzimləyən Prinsiplər" əhəmiyyətli rol oynayır. Eyni zamanda, qeyd etməliyik ki, ÜST Ümumdünya Səhiyyə Assambleyasinin 69-cu sessiyasında (2016-cı il) islahat proseslərinin tərkib hissəsi kimi "Qeyri-dövlət subyektləri ilə qarşılıqlı fəaliyyətə dair Təlimat" qəbul edilmişdir. Sözügedən Təlimat QHT-ləri dövlətin hökumətindən asılı olmayaraq, fəaliyyət göstərən qeyri-kommersiya təşkilatı kimi ehtiva edir. Təlimata uyğun olaraq, belə təsisatlara yerli ictimai təşkilatlar, vətəndaş cəmiyyəti qrupları, peşə sahibləri şəbəkəsi, konkret növ xəstəliklə bağlı qruplar və pasiyentlərin birlikləri aid edilir. İslahat proseslərinin **əsas məqsədi** isə aşağıdakılarqan ibarətdir: - əhalinin sağlamlığının yaxşılaşdırılması üçün proqram xarakterli islahatların həyata keçirilməsi;

- qlobal səhiyyədə əlaqəliliyin və uzlaşdırmanın artırılması üçün idarəetmə islahatlarının aparılması;

- təşkilati üstünlüklərə nail olmaq məqsədilə idarəçilik islahatlarının həyata keçirilməsinin təmin olunması.[1]

Beləliklə, qeyd edə bilərik ki, müasir dövrdə tibb sferasında beynəlxalq qeyri-hökumət tibb təşkilatlarının səyləri

[1] Ətraflı bax: Устав (Конституция) Всемирной Организации Здравоохранения (Нью-Йорк, 22 июля 1946 г.), ст.71 // https:// base.garant.ru/2540328/ (30.10.2022-ci il).

[1] Ətraflı bax: Elnarə Mirzəyeva. Beynəlxalq hüquqyaradıcılığı prosesi və normaların realizəsində Ümumdünya Səhiyyə Təşkilatı və beynəlxalq qeyri-hökumət təşkilatlarının əməkdaşlığının hüquqi aspektləri // Nəqliyyat hüququ. Bakı, 2017, № 3, s.46-59.

dünyada səhiyyə-tibb sahəsinin aktual problemlərinin daimi müzakirəsinə yönəlmişdir. Bu təşkilatların əlaqələndirilmiş fəaliyyətinin nəticəsində universal xarakterli ümumi **model tibb məcəlləsi** layihəsinin işlənib hazırlanması məsələsi ən aktual vəzifələrdən biri kimi qalmaqdadır. Gələcəkdə belə bir model aktın qəbul edilməsi isə, ayrı-ayrı dövlətlərdə özünəməxsus spesifik yerli xüsusiyyətlər nəzərə alınmaqla, müvafiq milli tibb məcəlləsinin hazırlanması üçün hüquqi baza rolunu oynaya bilər.

2.4.3.Milli tibb təşkilatları və onların hüquqi statusu

Beynəlxalq tibb münasibətlərinin subyekt tərkibinə beynəlxalq qurumlarla yanaşı, dövlətdaxili (milli) səhiyyə-tibb təşkilatları da daxildir. Belə təşkilatlara **hüquqi şəxs** statusunda fəaliyyət göstərən müəyyən **subyektlər** aiddir: məsələn, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (SN), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (TƏBİB), aidiyyəti üzrə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu (DSMF), Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN), Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) və digər orqanlar, habelə müxtəlif tibbi profil üzrə milli federasiyalar, assosiasiyalar, ittifaqlar, ictimai birliklər, tibb cəmiyyətləri, klublar və s. hüquqi şəxslər. Bu cür subyektlərin fəaliyyətinə dair **hüquqi rejim** həm dövlətlərin milli tibb qanunvericiliyi, həm də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir. Analoji subyektlər qrupundan bəzilərini nəzərdən keçirək. **Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi** (SN) əhalinin sağlamlığının qorunması sahəsində (bundan sonra - müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən **mərkəzi icra hakimiyyəti orqanıdır**. Nazirliyin Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.[1]

[1] Bax: AR QT. Bakı, 2006, № 5, maddə 411.

Adıçəkilən SN öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və öz Əsasnaməsini rəhbər tutur. SN öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Göstərilən Əsasnamənin 7-ci bəndində SN-in əsas **fəaliyyət istiqamətləri** təsbit olunmuşdur:

- əhalinin sağlamlığının qorunması sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

- müvafiq sahənin inkişafı üzrə müxtəlif proqramlar hazırlamaq və həmin proqramların həyata keçirilməsini təmin etmək;

- qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

Göstərilən fəaliyyət istiqamətlərini həyata keçirmək üçün SN aşağıdakı **vəzifələri yerinə yetirir** (Əsasnamə, bənd 8):[1]

- tabeliyində olan tibb müəssisələri vasitəsilə əhaliyə tibbi yardımın göstərilməsini təmin etmək;

-müvafiq sahədə qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş normativ tənzimləməni həyata keçirmək;

- müvafiq sahədə qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş dövlət nəzarətini, o cümlədən səlahiyyətləri daxilində dövlət səhiyyə sisteminə daxil olan qurumların fəaliyyətinə, tibb təhsilinə, tibb sahəsində elmi tədqiqat işlərinə rəhbərliyi və nəzarəti, qeyri-dövlət tibb müəssisələrinin fəaliyyətinə nəzarəti və dövlət sanitariya-epidemioloji nəzarətini həyata keçirmək;

-qanunvericiliyə uyğun olaraq gigiyenik sertifikatlaşdırma işinin aparılmasını

[1] Bax: https://e-qanun.az/framework/11696 (30.10.2022-ci il).

təşkil etmək; - qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) vermək; - qanunvericiliyə uyğun olaraq xüsusi icazənin verilməsini təmin etmək, hüquqmüəyyənedici sənədlər vermək;

- özəl tibb fəaliyyəti subyektləri tərəfindən göstərilən tibbi xidmətlərin reklamının yayımına rəy vermək;

- əhalini və müalicə-profilaktika müəssisələrini dərman, bakterioloji, virus preparatları və tibbi təyinatlı digər məmulatlarla təmin etmək;

- ölkə ərazisində yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq;

-orqan donorluğu və transplantasiya sahəsində "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görmək, o cümlədən bu sahədə əhalinin məlumatlandırılmasını təmin etmək, orqan donorluğu və transplantasiya prosesinin monitorinqini həyata keçirmək, eləcə də vahid uçot aparılması məqsədilə donorların, resipiyentlərin və donor orqanların vahid dövlət informasiya bazasını yaratmaq;

-öz səlahiyyətləri daxilində əhalinin tibbi yardım almaq sahəsində hüquqlarının həyata keçirilməsini təmin etmək və həmin hüquqların pozulmasının qarşısını almaq;

-qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla səhiyyə sahəsində elmi tədqiqatları inkişaf etdirmək və bu sahədə nailiyyətlərin tətbiq edilməsini təmin etmək;

- digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək və s. vəzifələr.

Eyni zamanda, SN öz vəzifələrini yerinə yetirmək üçün müəyyən **hüquqlara malikdir** (Əsasnamə, bənd 8): -əhalinin sağlamlıq vəziyyətini öyrənmək, xəstəliklərin qarşısını almaq, əlilliyin və ölüm hallarının azaldılması, insanların uzunömürlülüyünün təmin olunması ilə bağlı tədbirləri həyata keçirmək; -analığın və uşaqların

mühafizəsi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə tədbirlər işləyib hazırlamaq, əlaqədar qurumlarla birlikdə qadın və yeniyetmələrin əməyinin mühafizəsi, uşaqların səhhəti, fiziki, gigiyenik tərbiyəsi üzrə tədbirlər keçirmək, ana və uşaqlara müalicə-profilaktika yardımını təşkil etmək, tabeliyindən asılı olmayaraq, məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığına nəzarət etmək;

-qanunvericiliyə uyğun olaraq dövlət məhkəmə ekspertizası fəaliyyətini həyata keçirmək;

-əhalinin sanitariya-epidemioloji salamatlığının təmin edilməsi sahəsində tədbirləri təşkil etmək, müvafiq sahədə təşviqat və maarifləndirmə işlərini həyata keçirmək;

- tibb müəssisələrinin və əhalinin tibb təyinatlı məmulatlara, sanitar avtomobillərinə, tibb texnikasına və s. tələbatını öyrənmək və onları təchiz etmək;

- tibb kadrlarının peşə hazırlığı səviyyəsinə nəzarəti təmin etmək;

-müvafiq sahədə tədbirlərin - tibbi konfrans, simpozium və qurultayların keçirilməsini təşkil etmək;

-qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, o cümlədən səhiyyənin əsas istiqamətləri üzrə Ümumdünya Səhiyyə Təşkilatı ilə, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək və digər hüquqları həyata keçirmək.

Nazirliyin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), habelə Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi SN-in **vahid sistemini** təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir. Nazirliyin tabeliyində **ictimai əsaslarla** fəaliyyət göstərən, müvafiq sahədə elmi-tibbi nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Elmi-Tibbi Şura və Azərbaycan Respublikasında dərman vasitələrinin dövriyyəsi ilə əlaqədar əlavə ixtisaslaşdırılmış ekspertizanın aparılması üçün Farmakoloji və

Farmakopeya Ekspert Şurası yaradılmışdır.[1]

SN-in **strukturuna** onun aparatı (şöbələr və sektorlar), həmçinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Şəhər (rayon), eləcə də Su nəqliyyatında gigiyena və epidemiologiya mərkəzləri, Respublika Sanitariya-Karantin Müfəttişliyi kimi qurumlar daxildir. Eyni zamanda, qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 13 may 2022-ci il tarixli Fərmanına müvafiq olaraq,[2] 2023-cü il yanvarın 1-dən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) tabeliyindəki bir sıra tibb təşkilatları - Milli Hematologiya və Transfuziologiya Mərkəzi, K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Azərbaycan Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi və s. qurumlar Səhiyyə Nazirliyinin tabeliyinə verilmişdir.

Nazirliyin strukturuna daxil olmayan **tabeliyindəki qurumlar** da (hüquqi şəxslər, təşkilatlar və sair) mövcuddur ki, onların siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.[1] Bu sırada aşağıdakıları göstərə bilərik: **Tibbi tədris müəssisələri** - Azərbaycan Tibb Universiteti, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, 1 nömrəli Bakı Tibb Kolleci, 2 nömrəli Bakı Baza Tibb Kolleci, Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci , Gəncə Tibb Kolleci və digər müəssisələr; **Tibbi mərkəzlər və birliklər** - Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Milli Onkologiya Mərkəzi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Respublika QİÇS-lə Mübarizə Mərkəzi, Respublika Narkoloji Mərkəzi, Məhkəmə

[1] https://sehiyye.gov.az/site/assets/files/1048/shiyy_nazirliyinin_sasnamsi_1.pdf (31.10.2022-ci il).
[2] https://president.az/az/articles/view/56009 (01.11.2022-ci il).
[1] Bu barədə ətraflı bax: "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli qərarı // https://e-qanun.az/framework/22561 (01.11.2022-ci il).

Psixiatrik Ekspertiza Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və s.; **Stasionar müəssisələr -** 1 nömrəli Respublika Psixiatriya Xəstəxanası, 1 nömrəli Respublika Psixiatriya Xəstəxanası nəzdində Müalicə İstehsalat Əmək Emalatxanası, 2 nömrəli Ağdam rayonlararası Psixiatriya Xəstəxanası və s. müəssisələr; **Sanitariya-epidemioloji xidmət müəssisələri -** S.İmaməliyev adına Respublika Taun Əleyhinə Stansiya, Dezinfeksiya stansiyaları (Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin tabeliyində) və s.; **Sanatoriyalar -** Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Sanatoriyası, Respublika Uşaq sanatoriyası, "Şuşa" Uşaq Sanatoriyası, Kardiorevmatoloji Sanatoriya və başqaları; **Digər qurumlar -** İnnovasiya və Təchizat Mərkəzi, İnformatika və Statistika İdarəsi, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi, Azərbaycan Respublikası Dövlət Elmi-Tibbi Kitabxanası, Azərbaycan Təbabəti Muzeyi və s. Azərbaycan Respublikası ərazisində əhalinin sağlamlığının qorunması sahəsində vacib subyektlərdən biri də **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** sayılır. Agentliyin fəaliyyətinin təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 06.09.2017-ci il tarixli 1592 nömrəli Fərmanı əsasında sözügedən qurumun **Nizamnaməsi** təsdiq edilmişdir.[1] Nizamnaməyə görə, bu orqan "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əsasında yaradılmışdır. Adıçəkilən qurum öz hüquqi təbiətinə görə **publik hüquqi şəxs** statusuna malikdir.

Agentliyin **fəaliyyəti** aşağıdakılardan ibarətdir: ölkə ərazisində icbari tibbi sığortanın tətbiqini təmin edir, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri icbari tibbi sığorta fondunda cəmləşdirir, icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı funksiyasını həyata keçirir və bununla bağlı zəruri

[1] Bax: https://e-qanun.az/framework/36428 (03.11.2022-ci il).

xərclərin ödənilməsini təmin edir və s. Agentliyin fəaliyyətinin **məqsədi** isə Azərbaycan Respublikasında əhalini icbari tibbi sığortaya cəlb etmək, baza (əsas xidmətlər) zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri cəmləşdirmək, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görmək, həmin xidmətlərə əhalinin əlçatanlığını təmin etmək, habelə sığortaolunanların hüquqlarını və qanuni mənafelərini qorumaq, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar toplanmış vəsaitlərdən təyinatı üzrə səmərəli istifadəni və sığorta ödənişlərinin vaxtında icra olunmasını təmin etməkdir.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi** (TƏBİB) yaradılmışdır. Burada məqsəd ölkədə tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə bu sahənin mövcud maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla tətbiq etmək yolu ilə əhaliyə göstərilən tibbi xidmətlərin səviyyəsinin artırılmasına nail olmaq, tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərini təkmilləşdirmək və əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti TƏBİB-in **təsisçisinin səlahiyyətlərini** həyata keçirməklə onun nizamnaməsini təsdiq edir. Dövlət Başçısının 13 may 2022-ci il tarixli Fərmanı ilə TƏBİB-in yeni nizamnaməsinin layihəsini hazırlayıb təqdim

etmək Nazirlər Kabinetinə həvalə olunmuşdur (bənd 7).[1] Yaxın gələcəkdə həmin nizamnamənin yeni redaksiyada qəbul edilməsi gözlənilir.

TƏBİB öz hüquqi təbiətinə görə **publik hüquqi şəxs** statusuna malikdir. O, tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin idarə edilməsini və bu sahədə müvafiq nəzarəti həyata keçirən qurumdur. TƏBİB nizamnamə fəaliyyətini həyata keçirmək üçün müvafiq hüquq və vəzifələrin daşıyıcısıdır, eləcə də təsis sənədinə (nizamnaməyə) uyğun olaraq, aidiyyəti üzrə **sahibkarlıq fəaliyyəti** ilə məşğul ola bilər.

TƏBİB-in **strukturuna** daxil olan bir sıra tibb müəssisələrinin adını çəkək: məsələn, Tibbi mərkəzlər və birliklər - Milli Hematologiya və Transfuziologiya Mərkəzi; Xüsusiləşdirilmiş Angiolojj Mərkəzi; Respublika Perinatal Mərkəzi; Respublika Uşaq Stomatoloji Mərkəzi; Respublika Narkoloji Mərkəzi; Respublika Endokrinoloji Mərkəz; Şəhər (rayon) Müalicə-Diaqnostika Mərkəzləri və s.; Stasionar müəssisələr - Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası; Müharibə Veteranları Respublika Xəstəxanası; Akademik Mirməmməd Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanası; Neyrocərrahlıq Xəstəxanası; Respublika Dəri-Zöhrəvi Dispanseri; Tibbi Reabilitasiya Xəstəxanası; Psixi Sağlamlıq Mərkəzi və digər müəssisələr; Ambulator-poliklinika müəssisələri - Yazıçılar Poliklinikası; Təcili tibbi yardım müəssisələri - Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası (TTTYS), TTTYS-nin Konsultativ bölmə (sanaviasiya), TTTYS-nin regional məntəqələri, TTTYS-nin

[1] Bu barədə bax: Səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 25 may tarixli 413 nömrəli, "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli, "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli 418 nömrəli, "Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında" 2019-cu il 23 dekabr tarixli 895 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 may 2022-ci il tarixli Fərmanı // URL: https://president.az/az/articles/view/56009 (04.11.2022-ci il).

Avtobazası; Digər qurumlar - Xüsusi Tibbi Təchizat Bazası; **Ərazi qurumları** - Bakı Şəhər Baş Səhiyyə İdarəsi; Gəncə Şəhər Səhiyyə İdarəsi və digər çoxsaylı tibb müəssisələri.[1] Qeyd etməliyik ki, hansı tibb müəssisəsinin Səhiyyə Nazirliyinə və ya TƏBİB sisteminə tabe olması barədə **konkret siyahının** müəyyənləşdirilməsi ölkədə icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar insanlar arasında yarana biləcək çaşqınlıq hallarının qarşısının alınmasında vacib rol oynayır.

Eyni zamanda, qeyd etməliyik ki, qeyri-dövlət səhiyyə sistemində tibb xidmətləri sferasında qanunvericiliklə müəyyən olunmuş qaydada fəaliyyət göstərən müəyyən **ictimai birliklər** də mövcuddur. Bu subyektlər öz **təsis sənədləri** əsasında fəaliyyət göstərirlər. Tibb sahəsində ictimai birliklərinin yaradılması və fəaliyyət göstərməsi vətəndaş cəmiyyətində siyasi hüquqların realizasiya formalarından biridir. Belə ki, Mülki və siyasi hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktda göstərildiyi kimi (maddə 22), insanlar assosiasiyalar azadlığı və birliklər yaradılması hüququna malikdirlər.[1] Sözügedən hüquq həm də Azərbaycan dövlətinə münasibətdə əsas qanunda - Konstitusiyada təsbit olunmuşdur ki, hər kəsin başqaları ilə birləşmık, ictimai birlik yaratmaq və mövcud birliyə daxil olmaq hüququ vardır (maddə 58 - Birləşmək hüququ).[2] Analoji müddəa digər normativ hüquqi aktlarda da təsbit olunmuşdur: məsələn, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu (Maddə 5. Qeyri-dövlət səhiyyə sistemi) [3] ; "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (Maddə 15. Özəl tibbi praktika ilə məşğul olan şəxslərin hüquqları) [4] və s.

Qeyd etməliyik ki, ölkədə tibb-hüquq fəaliyyəti sferasında cürbəcür adlarla ifadə olunan **müxtəlif subyektlər** - assosiasiya, federasiya, ittifaq, birlik, mərkəz və s. cəmiyyətlər fəaliyyət göstərirlər: məsələn, Azərbaycan Tibb Assosiasiyası,

---

[1] Bu barədə ətraflı bax : https://e-tibb.az/xeber/sehiyye-nazirliyi-ve-tebib-e-daxil-olan-tibb-muessiseleri-hansilardir-siyahi-1437 (05.11.20 22-ci il).

[1] Bu barədə daha ətraflı bax: Əliyev Ə.İ.İnsan hüquqları.Dərslik.Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr.Bakı,"Nurlar" nəşriyyatı,2019,s.204-207.
[2] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,"PG" nəşriyyatı, 2014, s.16.
[3] Ətraflı bax: AR QT. Bakı, 1997, № 6, maddə 497.
[4] Bax: AR QT. Bakı, 2000, № 3 (I kitab), maddə 129.

Azərbaycan Tibb Müəssisələri Assosiasiyası, Azərbaycan Əczaçılar Assosiasiyası, Azərbaycan Həkimlər Assosiasiyası, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti İctimai Birliyi, Azərbaycan Cərrah və Qastroenteroloqlar İctimai Birliyi, Azərbaycan Kardiologiya Cəmiyyəti, Azərbaycan Respublikasının Endokrinologiya Diabetologiya və Terapevtik Təlimat Assosiasiyası, Azərbaycan Stomatoloji Assosiasiyası, Azərbaycan Pediatrlar Assosiasiyası, Azərbaycan Həkimlər və Təbib Tələbələr İctimai Birliyi, Azərbaycan Talassemiya Federasiyası, Bioetika Mərkəzi, Nevroloqların Milli Assosiasiyası, Respublika Professional Tibb Işçiləri Birliyi, Səhiyyə İşçilərinin Həmkarlar İttifaqı və digər qurumlar. Bu subyektlər müvafiq **tibb-hüquq normalarının** formalaşması prosesində əhəmiyyətli rol oynayırlar.

Qeyri-dövlət səhiyyə sektorunda **özəl tibb fəaliyyəti** kimi xidmət sahəsi də mövcuddur. Özəl tibbi fəaliyyət dedikdə qanunvericiliklə müəyyən olunmuş qaydada **hüquqi şəxs** yaratmaqla özəl tibb fəaliyyətinin həyata keçirilməsi başa düşülür. Özəl tibb fəaliyyətinin **subyektləri** isə tibb fəaliyyətini həyata keçirən özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərdən ibarətdir. **Özəl tibb müəssisəsi** - əmlakı xüsusi mülkiyyətə, yaxud icarə müqaviləsi əsasında istifadə olunan mülkiyyətə əsaslanan tibb müəssisəsidir; **özəl tibbi praktika** anlayışı isə ali və ya orta tibb təhsili olan şəxslər tərəfindən hüquqi şəxs yaratmadan qanunvericiliklə müəyyən olunmuş qaydada verilən xüsusi razılıq əsasında ixtisasına uyğun həyata keçirilən tibbi yardımın göstərilməsi üzrə fəaliyyəti əhatə edir.[1] Özəl tibb fəaliyyətinin subyektləri arasında yaranan münasibətlərin **tənzimlənməsində "**Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il) xüsusi əhəmiyyət kəsb edir. Belə ki, adıçəkilən normativ hüquqi akta görə (maddə 4), özəl tibb müəssisəsi qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının **hüquqi** və **fiziki şəxsləri** tərəfindən yaradıla bilər. Eyni zamanda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə digər qaydalar nəzərdə tutulmayıbsa, xarici ölkələrin hüquqi və fiziki şəxsləri, eləcə də Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan

[1] Ətraflı bax: **"**Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 30.12.1999-cu il tarixli 789-IQ nömrəli Qanunu (maddə 1) // https://e-qanun.az/framework/503 (05.11.2022-ci il).

şəxslər tərəfindən də özəl tibb müəssisələrinin qanunvericiliklə müəyyən olunmuş qaydada yaradılmasına yol verilir.

Həmçinin qanunvericiliklə müəyyən edilmişdir ki, özəl tibb müəssisəsi tibbi fəaliyyətin müəyyən növləri üzrə **xüsusi razılıq** (lisenziya) sənədinə malik olduqda və tibbi fəaliyyətin hər bir konkret növü üzrə müvafiq ixtisasa malik mütəxəssislərlə **əmək müqaviləsi** bağladıqda özəl tibbi fəaliyyətlə məşğul ola bilər. Bununla yanaşı, tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş xüsusi razılıqda qeyd edilən işlər və xidmətlərdən kənar, lakin ilkin tibbi yardım göstərilməsi halları istisna olmaqla, tibb fəaliyyətinin həyata keçirilməsinə yol verilmir.

Özəl tibb müəssisəsinin **akkreditasiyası** tibb işçilərinin peşə birliklərinin iştirakı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Belə ki, özəl tibb müəssisələrinin tibb işçiləri "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa (1997-ci il) uyğun olaraq, tədrisə və sertifikasiyaya cəlb edilirlər. Sertifikasiyadan qanunvericiliyə uyğun olaraq, keçməyən işçilərin praktik tibb fəaliyyətinə buraxılmasına yol verilmir. Özəl tibb fəaliyyətinin subyektləri **sığortaçılar** ilə bağladıqları müqaviləyə əsasən, qanunvericiliyə uyğun olaraq, əhaliyə ilkin tibbi-sanitariya yardımı göstərirlər. Özəl tibb fəaliyyətinin subyektləri müalicə zamanı həm də **xalq təbabəti** metod və üsullarını tətbiq edə bilərlər.

Son dövrlərdə milli tibb təşkilatlarının, bəzən, **məhdud məsuliyyətli cəmiyyətə** (MMC) çevrilməsi halları müşahidə edilir. Məsələn, SN strukturunda "Azərtibbtəchizat" MMC, "Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzi" MMC və digər analoji cəmiyyətlər yaradılmışdır.[1] Bununla bağlı qeyd etməliyik ki, hər hansı ölkənin ərazisində səhiyyə-tibb sahəsində fəaliyyət ilə məşğul olan hüquqi şəxsin, o cümlədən xarici hüquqi şəxsin hüquqi statusu həmin ölkənin mülki qanunvericiliyi əsasında müəyyən edilir. Başqa sözlə desək, bu kateqoriyadan olan hüquqi şəxsə münasibətdə onun təsis edildiyi ərazi üzrə yerli **ölkənin qanunu**,

[1] Bax: https://e-tibb.az/xeber/sehiyye-nazirliyi-ve-tebib-e-daxil-olan-tibb-muessiseleri-hansilardir-siyahi-1437 (06.11.2022-ci il).

təsərrüfat fəaliyyətinin **milli rejim prinsipi** nəzərə alınmaqla, tətbiq olunur. Nümunə qismində göstərə bilərik ki, Azərbaycan Respublikasında müvafiq münasibətlər Mülki Məcəllə (MM, IV fəsil, maddə 43- 97) ilə nizama salınır. Məcəllədə aşağıdakı məsələlərin hüquqi cəhətdən tənzimlənməsinə dair müvafiq normalar təsbit edimişdir: -
hüquqi şəxs qismində təsis edilən səhiyyə-tibb təşkilatının statusu;

- hüquqi şəxsin təşkilati-hüquqi forması;

- hüquqi şəxsin adına olan tələblər;

- hüquqi şəxsin yaradılması, yenidən təşkil edilməsi, ləğv olunması və s.[1]

Müasir dövrdə sözügedən hüquqi şəxslərin belə **hüquqi konstruksiya modelində** təsis edilməsi bazar iqtisadiyyatı şəraitində onların həyata keçirdikləri fəaliyyət istiqamətləri üçün ən əlverişli və səmərəli şərait formalaşdırır, habelə nizamnamə fəaliyyətlərinin əhalinin sağlamlığın qorunması sahəsində dövlət siyasətinə uzlaşdırılmış formada qurulmasına imkan verir.

2.4.4.Tibb fəaliyyəti sahəsində ayrı-ayrı fərdlər

Artıq qeyd etdiyimiz kimi, səhiyyə-tibb sferasında müvafiq fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər **beynəlxalq xüsusi tibb hüququnun** subyekti sayılır. Tibb xidmətləri sahəsində fəaliyyətin həyata keçirilməsində tibb-hüquq münasibətlərinin subyekti kimi ayrı-ayrı fərdlər (individlər) və mütəxəssislər, özəl tibb müəssisələri və birliklər vacib rol oynayırlar. Belə ki, ədəbiyyat səhifələrində qeyd edildiyi kimi, tibb hüququnun əsas özəyi kontekstində insanların həyat və sağlamlığının rifahı naminə "tibb korpusu (həkim, provizor, tibb bacısı) – pasiyent" sistemi durur.[2] Elə bu baxımdan, tibb fəaliyyəti sahəsində aşağıda göstərilən **subyektləri** ayırmaq mümkündür: pasiyent, müalicə həkimi, həkim-ekspert, provizor (əczaçı), tibb bacısı, özəl tibb obyektlərinin sahibləri və istifadəçiləri, tibb kütləvi informasiya vasitələri, tibbi təhsil məktəbləri və müəssisələri, yerli icra

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir - B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi", 2016, s.80-155.
[2] Bax: Медицинское право России: учебник / отв. ред. А.А.Мохов. – Москва:Проспект, 2022, с.13.

hakimiyyəti orqanları və bələdiyyələr, ictimai təşkilatlar və birliklər, həmkarlar ittifaqları təşkilatları, tibb fəaliyyəti sahəsində çalışan digər mütəxəssislər.[3]

Sözügedən subyektlərin **hüquqi rejimi** hər bir ölkənin milli qanunvericilik aktları və müəyyən dərəcədə beynəlxalq müqavilələrlə tənzimlənir, eləcə də həmin

sənədlərdə tibb subyektlərinə dair müvafiq **normativ anlayışlar** formulə olunur.[1] Bu anlayışlardan bəzilərinə nəzər salaq.

Pasiyent dedikdə tibbi yardım üçün müraciət edən, ona ehtiyacı olan, yaxud belə bir yardımdan davamlı və ya müvəqqəti istifadə edən şəxs başa düşülür. Pasiyentlərin **hüquqi statusu** ilə bağlı qeyd edirik ki, onlar müəyyən hüquq və vəzifələrin daşıyıcısıdırlar. Bu kontekstdə 34-cü Ümumdünya Tibb Assambleyası tərəfindən qəbul edilmiş "Pasiyentlərin hüquqları haqqında" Lissabon Bəyannaməsi (1981-ci il) xüsusi maraq doğurur. Belə ki, həkim müalicənin aparıldığı ölkənin hüquqi və etik normalarını nəzərə almaqla, öz vicdanına və pasiyentin maraqlarına uyğun olaraq, fəaliyyət göstərməlidir. Bəyannamə hər bir pasiyentin malik olduğu əsas **hüquqları** təsbit edir: pasiyent həkim seçmək, tibbi yardım almaq, xəstəliyi barədə məlumatlandırmaq, müalicəyə razılıq vermək və ya ondan imtina etmək, həkimə etibar olunmuş bütün tibbi və şəxsi məlumatların məxfi saxlanılmasına güvənmək, ləyaqətlə ölmək, hər hansı din xadimlərinin yardımı daxil olmaqla, ruhi və mənəvi dəstəkdən istifadə və ya bundan imtina etmək hüququna, eləcə də digər

---

[3] Ətraflı bax: Kütləvi Tibb Ensiklopediyası. Bir cilddə / Baş redaktor – İsmayıl Vəliyev. Bakı, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, 432 s.

[1] Bax: məsələn, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının 26.06.1997-ci il tarixli 360-IQ nömrəli Qanunu; "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli 725-IQ nömrəli Qanunu; "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli 726-IQ nömrəli Qanunu; "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 30.12.1999-cu il tarixli 789-IQ nömrəli Qanunu; Kütləvi Tibb Ensiklopediyası. Bir cilddə / Baş redaktor – İsmayıl Vəliyev. Bakı, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, 432 s.; Bioetika: sənədlər, terminlər / A.Mustafayeva. Bakı, "ELM", 2009, 336 s.; Большая Медицинская Энциклопедия: в 30 т. / 3-е изд. Под редакцией академика Б. В. Петровского. — М.: Советская энциклопедия, 1974-1989 // https://ru.wikipedia.org/wiki/ (07.11.2022-ci il); Словарь медицинских терминов / Под редакцией Ж.Д.Кобалавы, В.С.Моисеева.М.:ГЭОТАР-Медиа, 2013 //https://www.sechenov.ru (07.11.2022-ci il); Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, 972 с. və s.

imtiyaz və güzəştlərdən istifadə etmək hüququna malikdir. Pasiyentlər həm də müəyyən **vəzifələr** daşıyırlar. Məsələn, diaqnostika-müalicə proseslərində iştirak zamanı təhlükəsizlik qaydalarını gözləmək; mütəmadi olaraq tibbi müayinədən keçmək, sanitariya-gigiyena və tibbi norma və qaydaların tələblərinə riayət etmək; müalicə metodları haqqında müvafiq biliklərə yiyələnmək və digər vəzifələri yerinə yetirmək. Göründüyü kimi, pasiyentlər mövcud tibb qanunvericiliyi ilə müəyyənləşdirilmiş əhəmiyyətli dərəcədə hüquq və vəzifələr seqmentinə malikdirlər.

Tibb fəaliyyətinin digər subyekt **həkim** sayılır. Həkim dedikdə ali tibb təhsili olan, bu sahədə əldə etdiyi bilik və bacarıqlarını insanların xəstəliklərinin müalicəsinə, insan sağlamlığının qorunması və saxlanılmasına həsr edən fiziki şəxs başa düşülür; onu, bəzən, müalicə həkimi də adlandırırlar. Həkimlər də müəyyən hüquqlara malik olmaqla konkret vəzifələr daşıyırlar. Həkimlərin **hüquqları** sırasında aşağıdakıları göstərə bilərik: səhiyyə-tibb müəssisələrində müvafiq əmək fəaliyyəti ilə məşğul olmaq; tibbi təhsil məktəblərində öz ixtisasları üzrə müəllim-pedaqoq vəzifəsini tutmaq və bu sahədə elmi fəaliyyətlə məşğul olmaq; yüksək nəticələr göstərilməsinə, habelə peşəkar kadrların yetişdirilməsinə görə mükafatlandırılmaq və dövlət təltifinə təqdim edilmək, eləcə də qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək və s. Eyni zamanda, həkimlər aşağıdakı **vəzifələri** daşıyırlar: yüksək tibb-peşə standartlarını daim qoruyub saxlamaq; pasiyentlərin ləyaqətinə hörmətlə yanaşmaq və şəfqət göstərmək; pasiyentlərlə və həmkarları ilə münasibətdə vicdanlı və təmənnasız olmaq; səriştəsiz və ya saxtakar həmkarları ilə mübarizə aparmaq; peşə fəaliyyəti zamanı şəxsi maraq güdməmək; həkim andını - "Hippokrat andı"nı pozmamaq; həkim sirrini qorumaq; qanunvericiliklə müəyyənləşdirilmiş digər vəzifələri həyata keçirmək və s.

Eyni zamanda, qeyd etməliyik ki, müalicə həkiminə dair "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının (1997-ci il) Qanununda ayrıca norma həsr olunmuşdur (maddə 51). Belə ki, **müalicə həkimi** ambulator-poliklinika tibb müəssisəsində, yaxud klinikada və ya xəstəxanada müşahidə və müalicə müddətində pasiyentə tibbi yardım göstərən həkimdir.

Müalicə həkimi pasiyentin istəyi ilə müəssisə (bölmə) rəhbəri tərəfindən təyin edilir. Pasiyent müalicə həkiminin dəyişdirilməsini tələb etdiyi hallarda, müəssisə rəhbəri bu tələbi yerinə yetirməlidir. Müalicə həkimi pasiyentin vaxtında ixtisaslı müayinə və müalicəsini təşkil edir, səhhəti barədə ona məlumat verir, xəstənin, yaxud onun qanuni nümayəndəsinin təkidi ilə məsləhətçi mütəxəssisləri dəvət edir və konsilium təşkil edir. Xəstənin həyatı təhlükə altında olduğu hallar və təxirəsalınmaz vəziyyətlər istisna edilməklə, digər hallarda konsilium tərəfindən verilən məsləhətlər yalnız müalicə həkimi ilə razılaşdırıldıqdan sonra həyata keçirilir.

Tibb fəaliyyəti sahəsində ayrı-ayrı **digər subyektlərin** hüquqi statusu da, yəni onların malik olduqları hüquqların, eləcə də daşıdıqları vəzifələrin həcmi və dairəsi səhiyyə-tibb qanunvericilik aktları və beynəlxalq tibb müqavilələri ilə müəyyən edilərək, tənzimlənir.

III FƏSİL. BEYNƏLXALQ TİBB HÜQUQUNUN MƏNBƏLƏRİ

3.1.Beynəlxalq tibb hüququ mənbələrinin anlayışı və növləri

3.1.1. Beynəlxalq tibb hüququnun mənbələri anlayışı

Əvvəllərdə qeyd etdiyimiz kimi, obyektiv mənada BTH çoxsaylı hüquq normalarından ibarətdir ki, həmin normalara hüquq doktrinasında **beynəlxalq tibb-hüquq normaları** deyilir. Məhz bu normalar vasitəsilə BTH öz əsas funksiyasını, başqa sözlə, beynəlxalq tibb münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir. Beynəlxalq tibb-hüquq normaları məcburi hüquqi qüvvəyə malik olan davranış qaydaları sayılır. Belə ki, hüquq norması (ingiliscə - norm of law, legal norm) dəfələrlə tətbiq edilməyə hesablanmış ümumi xarakterli davranış qaydası deməkdir.[1]

Beynəlxalq tibb-hüquq normaları zahirən bu və ya digər hüquqi formada mövcud olur və öz normativ ifadəsini tapır; belə mövcudolma və ifadələnmə formalarını hüquq elmində BTH-nin mənbələri adlandırmaq lazımdır.[2] Eyni zamanda, hüquq ədəbiyyatında da göstərilir ki, hüququn mənbələri dedikdə dövlətin hüquqyaratma fəaliyyətinin nəticəsi olan hüquq normalarının zahirən ifadə forması başa düşülür.[3]

Beynəlxalq tibb hüququnun mənbələri dedikdə beynəlxalq tibb-hüquq normalarının zahirən ifadələnmə və mövcudolma formaları başa düşülür. Bu, **formal hüquqi mənada** BTH-nin mənbələrinə verilən anlayışdır. BTH-nin mənbələri həm də **maddi mənada** işlədilir. Maddi mənada beynəlxalq tibb hüququnun mənbələri dedikdə onun tənzimləmə predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinin özü başa düşülür. Burada yalnız hüquqi mənada BTH-nin

---

[1] Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.549-550.

[2] Analoji mövqeyə rast gəlinir: bax, məsələn, Tibb hüququ.Dərs vəsaiti / Mustafazadə A.İ.,Aslanov Z.N. Bakı,"Elm", 2017, s.21; Медицинское право. Курс лекций / Под ред. Л.Н.Плеханова. Новосибирск: Изд-во СибАГС, 2015, с.15.

[3] Bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr.Bakı: "Hüquq Yayın Evi", 2018, s.127.

mənbələri hüquqi kateqoriya hesab edilir və buna görə də, elmi cəhətdən tədqiq olunur, eləcə də öyrənilir.

Beynəlxalq tibb-hüquq normalarını **iki kateqoriya** üzrə fərqləndirmək mümkündür: beynəlxalq publik tibb-hüquq normaları və beynəlxalq xüsusi tibb-hüquq normaları. Beynəlxalq **publik tibb-hüquq normaları** BTH-nin publik subyektləri (dövlətlər, beynəlxalq hökumət təşkilatları və s.) tərəfindən, beynəlxalq **xüsusi tibb-hüquq normaları** isə BTH-nin xüsusi subyektləri (qeyri-hökumət təşkilatları – BBA, BOŞ, DTHA, ÜSF, ÜTA, ACOA, AOC və s. qurumlar) tərəfindən onların iradəsi ilə yaradılır. Buna görə də, BTH-nin mənbələri, mahiyyət etibarilə, BTH subyektlərinin sərbəst iradələrinin ifadə formaları və ya üsullarıdır. Bu o deməkdir ki, beynəlxalq tibb hüququnun mənbələrində BTH normalarının yaranması prosesinin nəticəsi ifadə edilir.

Beləliklə, qeyd edə bilərik ki, beynəlxalq tibb hüququnun mənbələri BTH normalarının rəsmən ifadələnmə və mövcudolma formalarıdır. Buna görə də, hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, həmin mənbələr **rəsmi xarakter** daşıyır.[1] Beynəlxalq tibb hüququnun mənbələri rəsmi xarakterə **iki üsulla** malik olur. Sözügedən üsullara aşağıdakılar aiddir: hüquq yaradıcılığı, sanksiyalaşdırma.

Hüquq yaradıcılığı üsulunun mahiyyəti BTH subyektləri tərəfindən tibb fəaliyyəti sahəsində beynəlxalq müqavilə bağlamaq vasitəsi ilə BTH normalarının müəyyənləşdirilməsindən ibarətdir. Beynəlxalq müqavilə isə, məlum olduğu kimi, rəsmi sənəd sayılır.

Sanksiyalaşdırma üsulunun mahiyyəti isə BTH subyektləri tərəfindən tibb fəaliyyəti həyata keçirilərkən təcrübədə dəfələrlə tətbiq edilməklə formalaşmış və təkrarlanmaqla ümumqəbuledilmiş beynəlxalq adətlərin tanınması, müdafiə olunması və məcburi hüquqi qüvvə ilə təmin edilməsi hallarını nəzərdə tutur. Tibb fəaliyyəti sferasında tətbiq edilən bu prosesin özü, praktiki cəhətdən, rəsmi xarakterə malikdir.

[1] Beynəlxalq hüquq normalarının rəsmi xarakter daşıması barədə ətraflı bax: Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.7.

3.1.2. Beynəlxalq tibb hüququnun mənbə növləri

Beynəlxalq tibb münasibətləri, o cümlədən insanların sağlamlıq hüququ, məzmunca, ictimai-siyasi, sosial-iqtisadi, mülki-hüquqi, inzibati idarəetmə və ən əsası da insan hüquqları xarakterinə malikdir. Buna görə də, onların **hüquqi tənzimlənmə mənbələri** çoxsaylı və müxtəlifdir. Göstərilən aspekt onunla izah edilir ki, hüquq ədəbiyyatı səhifələrində toxunulduğu kimi, BTH vasitəsilə tənzimlənən tibb münasibətləri spektrinin özü müxtəlifdir.[1] Belə ki, beynəlxalq tibb hüququ ilə müxtəlif növ konkret beynəlxalq tibb münasibətləri nizama salınır. Elə bu baxımdan, BTH-nin mənbələrini, şərti olaraq, **iki növə** bölmək mümkündür: beynəlxalq mənbələr və milli (dövlətdaxili) mənbələr.

Beynəlxalq tibb hüququnun mənbələri bu və ya digər meyara görə də ayrı-ayrı növlərə bölünür; bununla da onların elmi cəhətdən **əsaslandırılmış təsnifi** aparılır. Bu cür təsnifin isə, həm nəzəri-tətbiqi, həm də praktiki baxımdan vacib əhəmiyyəti vardır. Təbii ki, beynəlxalq tibb hüququnun mənbə növlərinin düzgün müəyyənləşdirilməsi BTH-nin formalaşması prosesini, eləcə də onun yerinə yetirdiyi funksiyaları dəyərləndirmək və başa düşmək üçün mühüm faktor rolunu oynayır.

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq tibb hüququ mənbələrinin müəyyənləşdirilməsi məsələsinə **beynəlxalq hüququn mənbə növləri** kontekstindən yanaşmaq lazımdır. Başqa cür desək, beynəlxalq tibb hüququnun mənbələri beynəlxalq hüquqda həyata keçirilən hüquqi tənzimetmənin mənbə növləri ilə müəyyən edilir. Beynəlxalq hüququn hansı mənbə növlərinə malik olması isə, BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində öz əksini tapmışdır: beynəlxalq müqavilələr; beynəlxalq-hüquqi adətlər; hüququn ümumi prinsipləri; məhkəmə qərarları; beynəlxalq hüquq üzrə tanınmış mütəxəssis alimlərin elmi fikirləri (hüquq elmi, yəni doktrina).

[1] Bax, məsələn: Mustafazadə A.İ., Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. Bakı,"Elm", 2017, s.193-194.

Bununla yanaşı, qeyd etməliyik ki, yuxarıda göstərilən siyahı tam, qəti və dolğun xarakter daşımır. Göstərilən fikirlər barədə hüquqşünas alimlərin, demək olar ki, müvafiq haqlı və düzgün mülahizələrinə beynəlxalq hüquq ədəbiyyatı

səhifələrində də rast gəlinir.[1] Belə ki, **beynəlxalq hökumət təşkilatları** tərəfindən qəbul edilən qərar və qətnamələrin adı həmin Statutun 38-ci maddəsində çəkilmir. Lakin, biz, həmin qərar və qətnamələri beynəlxalq tibb hüququnun mənbəyi kimi tanıyırıq. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq tibb hüququnun mənbələri BTH subyektlərinin hüquq normaları yaratma prosesinin nəticəsidir.

Məhkəmə qərarlarının və hüquq elminin (doktrinın) BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində beynəlxalq hüququn mənbəyi kimi göstərilməsinə gəldikdə isə, qeyd edirik ki, həmin maddə xarici ölkələrin beynəlxalq hüquq doktrinasında, haqlı olaraq, tənqid edilmişdir.[2] Belə ki, sözügedən maddə Birinci Dünya Müharibəsindən sonra Beynəlxalq Ədalət Mühakiməsinin Daimi Palatası üçün formulə edilmişdi. O dövrdə isə beynəlxalq münasibətləri tənzimləmək üçün beynəlxalq qanunvericiliyə dair normativ material kifayət etmirdi. Buna görə də, sözügedən Statutun 38-ci maddəsində məhkəmə qərarlarından və hüquq elmindən (doktrinadan) istifadə olunması imkanı göstərilmişdi. Hüququn ümumi prinsiplərinin elə həmin maddədə beynəlxalq hüququn mənbəyi kimi göstərilməsinin səbəbi də eynilə bundan ibarətdir, yəni o dövrdə normativ materialın (beynəlxalq qanunvericiliyin) lazımi səviyyədə inkişaf etməməsi ilə bağlı idi.

Beləliklə, beynəlxalq qanunvericilik massivinin kifayət qədər inkişaf etdiyi müasir dövrdə BTH-nin aşağıda göstərilən **beynəlxalq mənbə növlərini** fərqləndirə bilərik:

- beynəlxalq səhiyyə-tibb müqavilələri;

[1] Bax, məsələn: Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.8; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.19; Международное право. Учебник / Отв. ред. В.И. Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.111; Международное право. Учебник / Отв. ред. А.Н.Вылегжанин. М., 2009, с.88 və b.

[2] Anand R. International Organizations and the Funetioning of International Law // Indian YBIL. 1984, № 1, p.52; Degan V. Gustomary prosess in International Law // Finnish YBIL, 1990, Vol. 1, p.3.

- tibbi fəaliyyət sferasında beynəlxalq-hüquqi adətlər;

-beynəlxalq dövlətlərarası / hökumətlərarası təşkilatların səhiyyə-tibb sferasının tənzimlənməsinə dair qəbul etdikləri qərarlar;

- beynəlxalq tibb təşkilatlarının aktları və s.

BTH-nin göstərilən mənbə növlərini elmi-nəzəri cəhətdən müxtəlif meyarlara görə təsnifləşdirmək mümkündür. **Əsas olması meyarına** görə beynəlxalq tibb hüququnun mənbələrini iki növə bölmək olar:

- əsas mənbə;

- yardımçı mənbə.

Beynəlxalq tibb hüququnun **əsas mənbəyi** dedikdə beynəlxalq tibb münasibətlərini başlıca tənzimetmə forması başa düşülür. Belə ki, beynəlxalq tibb hüququnun tənzimetmə predmetinə daxil olan ictimai münasibətlər, ilk növbədə, həmin mənbə növü vasitəsilə nizama salınır. Beynəlxalq tibb hüququnun əsas mənbəyinə beynəlxalq müqavilələr və beynəlxalq-hüquqi adətlər daxildir. Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq hüququn əsas mənbələri [1] həm də beynəlxalq tibb hüququnun əsas mənbələri sayılır.

Beynəlxalq tibb hüququnun **yardımçı mənbəyi** odur ki, sözügedən mənbə növündən, adətən, beynəlxalq tibb münasibətlərini beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlərlə tənzimləmək mümkün olmadığı hallarda istifadə edilir. Buna görə də, beynəlxalq tibb hüququnun yardımçı mənbəyi köməkçi xarakterə malikdir və bu mənbə növünə beynəlxalq tibb təşkilatlarının müvafiq qərarları aiddir.

Beynəlxalq tibb münasibətlərini **tənzimləmə səviyyəsi meyarına** görə beynəlxalq tibb hüququ mənbələrinin iki növü fərqləndirilir:

- universal mənbə;

- xüsusi mənbə.

Beynəlxalq tibb hüququnun **universal mənbəyi** dedikdə, bir qayda olaraq, səhiyyə-tibb sferasında müvafiq tibb subyektləri arasında yaranan beynəlxalq tibb

[1] Daha ətraflı: Лукин П.И. Источники международного права. М., 1960; Лукашук И.И. Источники международного права. М., 1960 вя б.

münasibətlərinin bütün növlərini tənzimləmək üçün istifadə edilən mənbə növü başa düşülür. Belə ki, sözügedən mənbə növü özündə beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlər kimi mənbələri ehtiva edir. Belə mənbələr isə, hüquq nəzəriyyəsindən məlum olduğu kimi, bütövlükdə beynəlxalq hüququn universal mənbə növləri sayılır.[1]

Beynəlxalq tibb hüququnun **xüsusi mənbəyi** odur ki, bu mənbə növü vasitəsi ilə yalnız ayrı-ayrı, məhdud xarakterli tibb münasibətlərinə dair məsələlər tənzimlənir. Belə mənbə növünə beynəlxalq tibb təşkilatlarının aidiyyəti qərarları daxildir.

Həmçinin **törəmə olub-olmaması meyarına** görə beynəlxalq tibb hüququnun mənbələri iki növə ayrılır:

- ilkin mənbə;
- törəmə mənbə.

Beynəlxalq tibb hüququnun **ilkin mənbəyi** dedikdə BTH-nin ilkin subyekti olan dövlətlərin iradəsinin hüquqi ifadə forması başa düşülür. Belə mənbə növündə dövlətlər tərəfindən BTH normalarının yaradılması prosesinin nəticəsi ifadə edilir. Beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlər beynəlxalq tibb hüququnun ilkin mənbəyi sayılır.

Beynəlxalq tibb hüququnun **törəmə mənbəyi** dedikdə isə ikinci dərəcəli mənbə növü başa düşülür. Bu cür mənbə növünə beynəlxalq tibb təşkilatlarının müvafiq qərarları aiddir. Belə ki, tibb fəaliyyəti sferasında belə qərarlar BTH-nin ilkin subyekti olan dövlətlər tərəfindən deyil, törəmə subyekt sayılan beynəlxalq tibb təşkilatları tərəfindən qəbul edilir.

3.2. Beynəlxalq tibb hüququnun mənbə növlərinin xarakteristikası

3.2.1. Beynəlxalq müqavilələr beynəlxalq tibb hüququnun mənbəyi kimi

Müasir beynəlxalq hüququn, eləcə də onun tərkib hissələrindən olan BTH-nin əsas mənbə növlərindən biri **beynəlxalq müqavilə** sayılır. Buna görə də, beynəlxalq tibb münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsində beynəlxalq müqavilələr

[1] Лукащук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.8.

mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən beynəlxalq müqavilələr BTH-nin **əsas mənbəyi** kimi tibb münasibətlərinin nizama salınmasında vacib rol oynayır. Belə ki, beynəlxalq tibb münasibətləri praktikasında beynəlxalq müqavilələr vasitəsi ilə hüquqi tənzimetmə forması daha geniş yayılmışdır. Söhbət, aydın məsələdir ki, beynəlxalq tibb müqavilələrindən gedir.

Beynəlxalq tibb müqavilələri bu və ya digər əlamətə görə müxtəlif növlərə bölünür.[1] **Təsir sferası əlaməti** üzrə beynəlxalq tibb müqavilələrinin iki növü fərqləndirilir:[2]

- universal beynəlxalq tibb müqavilələri;
- regional beynəlxalq tibb müqavilələri.

Universal beynəlxalq tibb müqavilələrinin təsir sferası genişmiqyaslı olmaqla, hər hansı bölgə və ərazi xarakteri ilə məhdudlaşmır. Məsələn, Ruhi xəstələrin müdafiəsi və psixi sağlamlıq xidmətinin yaxşılaşdırılması Prinsipləri (BMT Baş Assambleyasının 17.12.1991-ci il tarixli qətnaməsi ilə qəbul edilmişdir), Tütünlə mübarizə üzrə Ümumdünya Səhiyyə Təşkilatının Çərçivə Konvensiyası (ÜST Ümumdünya Assambleyası tərəfindən 03.03.2003-cü il tarixdə qəbul edilmişdir), Ümumdünya Səhiyyə Təşkilatının İnsan hüceyrə, toxuma və orqan transplantasiyası üzrə Rəhbər Prinsipləri (ÜST İcraiyyə Komitəsi tərəfindən 26.05.2008-ci il tarixdə qəbul edilmişdir), İdmanda dopinqə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya (Paris, 19.10.2005-ci il) və digər müvafiq sənədlər universal beynəlxalq tibb müqavilələri sırasına daxildir. Həmçinin BMT və onun ixtisaslaşdırılmış təsisatları – UNESCO, ÜƏMT, BƏT, BHTK və sairə orqanlar tərəfindən beynəlxalq tibb əməkdaşlığının həyata keçirilməsi istiqamətində qəbul edilən aidiyyəti qərarlar da BTH-nin mənbəyi kimi çıxış edir.

Əgər beynəlxalq tibb müqaviləsinin təsir sferası bu və ya digər bölgəyə aid olarsa, ona **regional beynəlxalq tibb müqaviləsi** deyilir. Məsələn, Dopinq qəbul edilməsinə qarşı Konvensiya – ETS №135 (Strasburq, 16.11.1989-cu il), Avrasiya

1 Tibb hüququ mənbələrinin xarakteristikası barədə ətraflı bax: Медицинское право России: учебник / отв.ред. А.А.Мохов. – Москва: Проспект, 2022, с.24-31.

2 Ümumiyyətlə, bütün növ beynəlxalq müqavilələrin bu əlamət üzrə təsnifi olunması barədə daha ətraflı bax: Курс международного права. Том IV / Отв. ред. Г. И.Тункин. М., 1968, с.224.

İqtisadi Birliyinə üzv-dövlətlərin vətəndaşlarına yüksək texnologiyalı tibbi yardım göstərilməsi sahəsində əməkdaşlıq haqqında Saziş (Yalta, 28.09.2012-ci il), Avrasiya İqtisadi İttifaqı çərçivəsində dərman vasitələrinin dövriyyəsinin vahid prinsip və qaydaları haqqında Saziş (Moskva, 23.12.2014-cü il) və başqa müvafiq aktlar yalnız Avrasiya regionuna daxil olan ölkələr arasında yaranan tibb münasibətlərini tənzimləyir.

Subyekt tərkibi əlaməti üzrə beynəlxalq tibb müqavilələrini iki növə bölmək mümkündür:

- ikitərəfli beynəlxalq tibb müqaviləsi;
- çoxtərəfli beynəlxalq tibb müqaviləsi.

İkitərəfli beynəlxalq tibb müqaviləsi BTH-nin iki subyekti arasında bağlanır və burada yalnız iki tərəf iştirak edir. Bu növ beynəlxalq tibb müqavilələrinə aiddir: məsələn, səhiyyə-tibb və elmi əməkdaşlıq haqqında müqavilə, tibb sahəsində yardım göstərilməsi barədə saziş, tibb fəaliyyəti haqqında müqavilə və s. Beynəlxalq tibb fəaliyyəti praktikasında bağlanılmış ikitərəfli tibb müqavilələrinə **nümunə** kimi aşağıdakıları göstərə bilərik:

- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Ukrayna Səhiyyə Nazirliyi arasında təbabət və səhiyyə sahəsində əməkdaşlıq haqqında" Saziş (1997-ci il);
- "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (1999-cu il);
- "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Rumıniya Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (2011-ci il);
- "Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Saziş (2016-cı il);
- " Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Rusiya Federasiyası Səhiyyə Nazirliyi arasında "Səhiyyə və tibb elmi sahəsində yenilənmiş əməkdaşlıq" Sazişi

(2021-ci il) və s. ikitərəfli müqavilələr.[1] **Çoxtərəfli beynəlxalq tibb müqaviləsi** isə iki deyil, bir neçə subyekt arasında bağlanır. Bu o deməkdir ki, əgər beynəlxalq tibb müqaviləsində ikidən çox subyekt iştirak edərsə, o, çoxtərəfli beynəlxalq müqavilə sayılır. Sözügedən müqavilə, qeyd etdiyimiz kimi, iki dövlət arasında deyil, çoxsaylı dövlətlər arasında tibb fəaliyyətinin reallaşdırılması, dərman dövriyyəsinin təşkili, bioetika və digər sahələrdə münasibətləri tənzimləyir; belə müqavilələr həm universal, həm də regional səviyyədə bağlana bilər. Əhalinin sağlamlığının qorunması sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində bağlanmış çoxtərəfli universal və regional konvensiya və sazişlərə misal olaraq aşağıdakıları göstərə bilərik: məsələn, BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istsfadəsi üzrə" Konvensiyası (2000-ci il), "Su və sağlamlıq haqqında" Protokol (2002-ci il), "Biomüxtəliflik haqqında" Konvensiyaya "Biotəhlükəsizlik haqqında" Kartahen Protokolu (2005-ci il), "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası (2003-cü il), "Avropa Sosial Xartiyası" (2004-cü il), "Digər ölkə ərazisinə müvəqqəti gələn şəxslərə tibbi xidmət göstərilməsi haqqında" Avropa Sazişi (1996-cı il), "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Saziş (2002-ci il), "GUAM-a üzv-dövlətlərin səhiyyə nazirlikləri arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında" Saziş (2007-ci il) və s. aktlar.

Bununla yanaşı, aşağıda göstərilən çoxtərəfli beynəlxalq müqavilələr də, digər beynəlxalq müqavilələrlə birlikdə, beynəlxalq tibb münasibətlərinin tənzimlənməsində aidiyyəti üzrə özünəməxsus əhəmiyyətli rol oynayır: Tariflər və Ticarət üzrə Baş Saziş (TTBS, yəni QATT-1994), Xidmətlərlə Ticarət üzrə Baş Saziş (XTBS, yəni QATS-1994), Əqli Mülkiyyət Hüquqlarının Ticarət Aspektlərinə dair Saziş (TRİPS), İnvestisiya Tədbirlərinin Ticarət Aspektlərinə dair Saziş (TRİMS) və s. aktlar.[1]

[1] Ətraflı bax:Hüseynova F.E. Sağlamlığın qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı,"Kooperasiya" nəşriyyatı, 2016, s.154-157; https://e-qanun.az/framework/13227 və https://www.sehiyye.gov.az/huquqi-senedler/qanunlar/ (20.11.2022-ci il).

[1] Göstərilən beynəlxalq hüquqi aktlar barədə ətraflı bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq.

Hüquq müəyyənetmə əlaməti üzrə tibb fəaliyyəti sahəsində beynəlxalq müqavilələrin iki növü fərqləndirilir:

-“qanun-müqavilə”;

-“müqavilə-əqd”.

“Qanun-müqavilə” dedikdə səhiyyə-tibb fəaliyyəti sferasında hüquqmüəyyənləşdirici və ya hüquqyaradıcı beynəlxalq tibb müqaviləsi başa düşülür. Məsələn, həkim-transfer münasibətlərinə dair müvafiq prinsipləri müəyyənləşdirdiyinə görə bu cür beynəlxalq tibb müqavilələri “qanun-müqavilə” növünə aiddir.

“Müqavilə-əqd” dedikdə isə tibb fəaliyyəti sahəsində müəyyən kompleks infrastruktur obyektin (məsələn, klinika, modul tipli xəstəxana, müalicə müəssisəsi və s.) tikilməsi haqqında, müəyyən müddət ərzində qarşılıqlı tibbi avadanlıq və ya dərman ləvazimat vasitələrinin göndərilməsi barədə saziş başa düşülür. Belə saziş, bəzən, “öz-özünə icra olunan müqavilə” də adlanır.

Tənzimetmə predmeti əlamətinə görə beynəlxalq tibb müqavilələrinin bir neçə növü mövcuddur:

- beynəlxalq əczaçılıq fəaliyyətinə dair müqavilə;
- tibb xidmətlərinin ixracına dair beynəlxalq müqavilə;
- bioetika münasibətlərinə dair beynəlxalq müqavilə və s.

Beynəlxalq əczaçılıq fəaliyyətinə dair müqavilənin tənzimetmə predmetini əczaçılıq fəaliyyətinin lisenziyalaşdırılması, tibbi təyinatlı dərman vasitələrinin tətbiqinə dövlət nəzarəti və s. beynəlxalq əczaçılıq münasibətləri təşkil edir. **Tibb xidmətlərinin ixracına dair beynəlxalq müqavilənin** predmetini xarici iqtisadi fəaliyyət sistemində tibbi xidmətlərin ixracı, ixracın diferensiallaşdırılması, ixracın təşkilati forması kimi tibbi klasterlər, tibbi xidmətlərin ixracı zamanı fərdi məlumatların qorunması və s. ilə bağlı yaranan ictimai münasibətlərdən ibarətdir. **Bioetika münasibətlərinə dair beynəlxalq müqavilə** isə gen mühəndisliyi və digər

Dərslik.Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı,”Günəş-B” nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.246-511.

biotibbi tədqiqatlar üzrə fəaliyyət sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi ilə bağlı yaranan münasibətləri tənzim edir.

Sazişin **məzmun əlamətinə** görə BTH-də beynəlxalq müqavilələr aşağıda göstərilən üç növə ayrılır:

- beynəlxalq siyasi müqavilə;
- beynəlxalq səhiyyə-tibb müqaviləsi;
- beynəlxalq tibb təşkilatlarının yaradılması barədə müqavilə.

Beynəlxalq siyasi müqavilənin məzmunu, adətən, siyasi məsələlərlə əlaqəli olsa da, sözügedən müqavilədə beynəlxalq tibb münasibətlərinə dair müvafiq normaların da nəzərdə tutulması mümkündür. Məsələn, dövlətlər arasında dostluq, sülh və əməkdaşlıq haqqında bağlanan ikitərəfli müqavilə bu növ beynəlxalq müqaviləyə nümunə çəkilə bilər.

Beynəlxalq səhiyyə-tibb müqaviləsi odur ki, onun məzmununu sırf səhiyyə-tibb münasibətləri ilə bağlı məsələlər təşkil edir. Məsələn, səhiyyə, təbabət, bioetika və tibb elmi sahəsində əməkdaşlıq haqqında bağlanan sazişlər göstərilən növ beynəlxalq müqaviləyə nümunə çəkilə bilər.

Beynəlxalq tibb təşkilatlarının yaradılması barədə müqavilə fəaliyyəti beynəlxalq tibb münasibətləri sahəsi ilə əlaqəli olan beynəlxalq tibb təşkilatlarının yaradılmasını nəzərdə tutur. Məsələn, Ümumdünya Tibb Assosiasiyası (1947-ci il), Dünya Tibbi Hüquq Assosiasiyası (1967-ci il), Dünya Karlar Federasiyası (1951-ci il), Beynəlxalq Spinal Dizrafizm və Hidrosefaliya Federasiyası (1979-cu il), Korluğun qarşısının alınması üzrə Beynəlxalq Agentlik (İAPB), Beynəlxalq QİÇS Cəmiyyəti (1981-ci il), Beynəlxalq Həkim-Mama Assosiasiyası (1987-ci il), Beynəlxalq Bioetika Assosiasiyası (1992-ci il), Psixiatrik Müalicə Alanların və Psixiatrik Müalicə Qurbanlarının Dünya Şəbəkəsi (1997-ci il) və s. müvafiq beynəlxalq tibb qurumlarının yaradılması haqqında müqavilələr.

Tibb fəaliyyəti sahəsində **bağlanma səviyyəsinə** görə beynəlxalq tibb müqavilələri üç növə bölünür:

-dövlətlərarası beynəlxalq tibb müqaviləsi;
- hökumətlərarası beynəlxalq tibb müqaviləsi;

- idarələrarası beynəlxalq tibb müqaviləsi .

Dövlətlərarası beynəlxalq tibb müqaviləsi tibb işi sahəsində yaranan münasibətlərin tənzimlənməsi məqsədi ilə iki və daha çox dövlət tərəfindən, **hökumətlərarası beynəlxalq tibb müqaviləsi** tibb fəaliyyətinin təmin edilməsi istiqamətində ayrı-ayrı ölkələrin hökumətləri tərəfindən bağlanır. **İdarələrarası beynəlxalq tibb müqaviləsi** isə tibb münasibətlərinin nizama salınması ilə əlaqədar mərkəzi icra hakimiyyəti və digər dövlət orqanları (qurumları) adından bağlanır (məsələn, Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, TƏBİB və s.) . Lakin, buna baxmayaraq, həmin müqavilələr eyni hüquqi qüvvəyə malik olurlar.

Göstərilənlərlə yanaşı, BTH-də beynəlxalq tibb müqavilələri **hansı subyektlər arasında bağlanmasından** asılı olaraq, aşağıda qeyd edilən üç növə bölünür:

-dövlətlər arasında bağlanan beynəlxalq tibb müqaviləsi;

-dövlətlərlə beynəlxalq hökumət təşkilatları arasında bağlanan beynəlxalq tibb müqaviləsi;

-beynəlxalq hökumət təşkilatlarının öz aralarında bağlanan beynəlxalq tibb müqaviləsi;

-tibb sferasında fəaliyyət göstərən idarələrarası təşkilatlar arasında bağlanan beynəlxalq tibb müqaviləsi və s.

Eyni zamanda, qeyd etməliyik ki, müasir dövrdə beynəlxalq tibb hüququnun formalaşmasında, eləcə də növbəti inkişaf mərhələsində beynəlxalq müqavilələr daha çox vacib rol oynayır və bu əlamət onların hüquqi təbiətindən irəli gəlir. Məhz belə müqavilə praktikası vasitəsi ilə BTH normalarının unifikasiya olunması, sistemləşdirilməsi, habelə vahid hüquqtətbiqetmə təcrübəsinin təşəkkül tapması, müxtəlif dövlətlərin subyektləri arasında tibb-hüquq münasibətləri spektrinin geniş surətdə inkişaf etdirilməsi prosesləri uğurla həyata keçirilir.

3.2.2.Beynəlxalq-hüquqi adətlər

Yuxarıda qeyd etdiyimiz kimi, **beynəlxalq-hüquqi adətlər** beynəlxalq müqavilələrlə birlikdə BTH-nin əsas mənbə növü sayılır. Belə ki, dövlətlərarası beynəlxalq tibb münasibətlərini beynəlxalq müqavilələr vasitəsi ilə nizamlamaq mümkün olmadıqda, sözügedən münasibətləri tənzimləmək üçün beynəlxalq-hüquqi adətlər kimi mənbə növündən istifadə edilir. BTH-nin tənzimetmə predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinin nizama salınmasında beynəlxalq-hüquqi adətlər, heç də az olmayan, rol oynayır. Çünki, məlum olduğu kimi, müasir dövrdə beynəlxalq tibb münasibətlərini bütövlükdə tənzimləyən vahid məcəllələşdirilmiş akt qəbul edilməmişdir və aidiyyəti üzrə mövcud beynəlxalq tibb müqavilələrinin sayı da kifayət qədər deyildir. Belə vəziyyətdə tibb münasibətlərini tənzimləmək üçün işə, təbii ki, beynəlxalq-hüquqi adətlər yarayır.

Hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, beynəlxalq hüquq, əsasən və başlıca olaraq, beynəlxalq-hüquqi adət normaları yaratmaq yolu ilə öz funksiyalarını həyata keçirir və inkişaf edir.[1] Bu səbəbdən də, beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn mənbələri iyerarxiyasında vacib yer tutur ki, bu aspekt onların mənşəyinin müasir olmaları ilə izah edilir.[2]

Dərman vasitələrinin, tibbi ləvazimat məhsullarının və tibbi xidmətlərin ixracı ilə əlaqədar beynəlxalq ticarətdə **beynəlxalq adətlərin** rolu olduqca əhəmiyyətlidir. Bu sahədə adətlər, eləcə də işgüzar adətlər Beynəlxalq Ticarət Palatası (BTP) çərçivəsində qeyri-rəsmi kodifikasiya olunaraq, unifikasiya edilmiş qaydalar məcmusu kimi təqdim olunmuşdur – Ticarət terminlərinin təfsirinin Beynəlxalq Qaydaları (İNKOTERMS Qaydaları). Alqı-satqı kontraktlarında nəzərdə tutulan təməl şərtləri özündə ehtiva edən **İNKOTERMS** 2000-ci il redaktəsində qüvvədədir. Sözügedən Qaydalarda təsbit edilən normalar aidiyyəti üzrə tibb müqaviləsində istinad olunduqda tətbiq edilir. Onun **əsas vəzifələrindən** biri xarici ticarətdə ən çox istifadə edilən terminlərin açıqlanması üçün beynəlxalq qaydaların tərtib olunmasıdır ki, bu da müxtəlif ölkələrdə həmin terminlərin təfsirindəki fərqləri

[1] Международное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В. Черниченко. М., 2008, с. 441.
[2] Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с. 511.

aradan qaldırmağa, yaxud minimuma endirməyə imkan verir. Daha asan oxunmaları və anlaşıla bilmələri üçün terminlər dörd bazis qruplarında toplanmışdır.[1]

Beynəlxalq adətlərin təsbit olunduğu xarakterik nümunələrdən biri kimi Beynəlxalq kommersiya müqavilələrinin Prinsipləri (1994-cü il) xüsusi əhəmiyyət kəsb edir; həmin sənəd **"UNİDRUA Prinsipləri"** adı ilə də tanınır. Bu sənəddə ehtiva olunan normalar da müvafiq tibb müqaviləsində aidiyyəti üzrə istinadlar olduqda tətbiq edilir. Adıçəkilən sənəd hökumətlərarası təşkilat statusuna malik olan Xüsusi hüququn unifikasiyası üzrə Beynəlxalq İnstitut (UNİDRUA) tərəfindən işlənib hazırlanmışdır.[2]

Beynəlxalq-hüquqi adətləri "beynəlxalq adətlər"dən fərqləndirmək lazımdır. İlk növbədə, qeyd etməliyik ki, beynəlxalq müqavilələrdən fərqli olaraq, beynəlxalq adətlər yazılmamış, lakin cəmiyyətdə praktiki cəhətdən adət edilmiş xarakterə malikdir. Beynəlxalq-hüquqi adətlər isə dövlətlər tərəfindən sanksiyalaşdırılmış beynəlxalq adətlər deməkdir. Başqa sözlə desək, əgər beynəlxalq adətlər dövlətlər tərəfindən sanksiyalaşdırılarsa, artıq onlar beynəlxalq-hüquqi adətlər hesab edilir. Sanksiyalaşdırma dedikdə isə dövlətlər tərəfindən beynəlxalq adətlərin məcburi hüquqi qüvvəsi olan norma kimi tanınması başa düşülür (**opinio juris** – qaydaların hüquq norması kimi tanınması).[3] Beynəlxalq adətlər öz normativ məzmununa görə beynəlxalq praktikada, bir qayda olaraq, dövlətlərin eyni hərəkətlərinin və ya hərəkətsizliyinin uzun müddət ərzində, tədricən təkrarlanması yolu ilə formalaşır. Qeyd etməliyik ki, beynəlxalq adətlər deyil, yalnız beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn mənbəyi sayılır.

Beləliklə, **beynəlxalq-hüquqi adətlər** dedikdə beynəlxalq praktikada tədricən formalaşan, dövlətlərin eyni hərəkətlərinin (və ya hərəkətsizliyinin) uzun

---

[1] Bu barədə bax: Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər (xarici-iqtisadi biliklərə dair azərbaycanca-rusca-ingiliscə lüğət-məlumat kitabı; yenidən işlənmiş və tamamlanmış nəşr) / Müəllif-tərtibçilər:Əfəndiyev O.F.,Əliyev E.Ə. Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı, 2005, s.117.

[2] Ətraflı bax: https://legalacts.ru/doc/printsipy-mezhdunarodnykh-kommercheskikh-dogovorov-printsipy-unidrua-1994 (20.11.2022-ci il).

[3] Bax: Словарь международного права. Изд. 2-е, перераб. и доп. /Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. М., «Международные отношения» , 1986, с.429.

müddət təkrarlanması yolu ilə yaradılan və onlar tərəfindən sanksiyalaşdırılan, yəni məcburi qüvvəsi olan hüquq normaları kimi tanınan davranış qaydaları başa düşülür.

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq-hüquqi adətlər beynəlxalq hüququn əsas prinsiplərinin (məsələn, dövlətlərin hüquq bərabərliyi, dövlətlərin suverenliyinə hörmət etmək, beynəlxalq müqavilələrə məcburi surətdə əməl etmək və s.) **başlıca mövcudolma formasıdır**. Sözügedən prinsiplərin BTH üçün də vacib əhəmiyyəti vardır ki, həmin prinsiplər tarixən beynəlxalq adətlərdən yaranmışdır. Beynəlxalq adətlər həm də beynəlxalq hüququn sahəvi prinsiplərinin mənbəyi sayılır.[1] Başqa sözlə desək, beynəlxalq adətlər beynəlxalq hüququn sahəvi prinsiplərinin də başlıca mövcudolma formasıdır.[2] Bu fikirlər bütövlükdə beynəlxalq hüququn struktur tərkib hissəsi olan **beynəlxalq tibb hüququna** da şamil olunur.

Bəzi beynəlxalq adətlər zaman keçdikcə beynəlxalq müqavilələrdə öz əksini taparaq, hüquqi cəhətdən möhkəmləndirilmiş və bununla da beynəlxalq müqavilə-hüquq normalarına çevrilmişdir. Ancaq, buna baxmayaraq, beynəlxalq adətlər praktikada **öz əhəmiyyətini** itirmir və beynəlxalq müqavilə iştirakçısı olmayan, yəni konkret müqaviləyə qoşulmayan dövlətlər üçün beynəlxalq davranış qaydaları kimi qalmaqda davam edir. Məsələn, beynəlxalq tibb praktikasında "palliativ yardım" anlayışı işlədilir. **Palliativ yardım** dedikdə müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsi üzrə tədbirlər sistemi başa düşülür. Dünya ölkələrində palliativ yardımın göstərilməsi müvafiq qanunvericilik aktları vasitəsi ilə tənzimlənir. Azərbaycan Respublikasında palliativ yardım haqqında hələlik ayrıca qanun qəbul edilməsə də, bu sahədə ÜST tərəfindən müəyyənləşdirilən mövcud beynəlxalq təcrübə adət-hüquq normaları fonunda ölkəmizdə milli tibb xidmətləri sisteminə inteqrasiya edilərək, uğurla tətbiq olunur.

[1] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с. 113.
[2] Шумилов В.М. Международное экономическое право. Книга 1 (учебно-методическое пособие). М., 2002, с.74.

Qeyd etməliyik ki, beynəlxalq adətlər nəinki beynəlxalq müqavilələrdə möhkəmləndirilir, həm də **beynəlxalq təşkilatların** qərarlarında təsbit olunur, öz əksini tapır. Misal üçün, 1974-cü il tarixli "Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası" beynəlxalq adət normalarını ifadə edir ki, bu sənəd BMT Baş Assambleyasının qətnaməsi formasında qəbul olunmuşdur.[1]

Lakin, göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, beynəlxalq-hüquqi adətlər nə qədər vacib əhəmiyyətə malik olsalar da, beynəlxalq tibb münasibətlərinin normativ hüquqi tənzimetmə mexanizmində əsas və başlıca rol beynəlxalq tibb müqavilələrinə məxsusdur. Bu amil BTH-nin **davamlı inkişaf** tendensiyasını xarakterizə edən əsas cəhətlərdən biri sayılır.

.

3.2.3.Beynəlxalq hökumət təşkilatlarının aktları

Qeyd etməliyik ki, beynəlxalq hökumət təşkilatları **beynəlxalq hüquq subyektliyi** kimi statusa malikdirlər. Beynəlxalq hüquq subyektliyi həm də onu ifadə edir ki, bu və ya digər subyekt beynəlxalq hüquq normaları yarada bilər.[2] Bu əlamət tamamilə beynəlxalq tibb hüquq normalarının yaradılmasına da şamil edilir. Buna görə də, beynəlxalq hökumət təşkilatlarının beynəlxalq hüquq normaları yaratmaq **qabiliyyəti** vardır. Belə normalar sözügedən təşkilatların bağladıqları beynəlxalq müqavilələrdə, eləcə də özlərinin qəbul etdikləri sənədlərdə formulə olunur. Həmin sənədlər öz hüquqi təbiətinə görə normativ hüquqi aktlar olmaqla, beynəlxalq hüququn, o cümlədən BTH-nin tənzimetmə mənbəyi sayılır. Beynəlxalq hökumət təşkilatlarının qəbul etdikləri hüquqi aktlar müxtəlif adlarla ifadə olunur: qərar, qətnamə, reqlament, direktiv, tövsiyə və s.

Digər tərəfdən, beynəlxalq hüquq dövlətlər tərəfindən beynəlxalq hökumət təşkilatlarına məcburi hüquqi qüvvəsi olan aktlar qəbul etmək səlahiyyətinin verilməsini qadağan edən hər hansı göstəriş nəzərdə tutmur. Həmçinin beynəlxalq hüquqda dövlətlər tərəfindən beynəlxalq hökumət təşkilatlarına belə hüquq verilməsinə mane olan bu və ya digər normaya da rast gəlinmir. Buna görə də,

[1] Ətraflı bax: https://www.google.com+(1974) – 21.11.2022-ci il.
[2] Международное право. Учебник / Отв.ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.78.

dövlətlər öz yaratdıqları beynəlxalq hökumət təşkilatlarını **normativ hüquqi aktlar** qəbul etmək hüququ ilə təmin etmişlər.

Beynəlxalq hökumət təşkilatlarının aktları beynəlxalq hüququn, o cümlədən BTH-nin **yeni mənbə növü** sayılır. Belə ki, bu cür aktlar BMT-nin yaradılması ilə əlaqədar olaraq, XX əsrin ortalarından başlayaraq, beynəlxalq hüququn, eləcə də BTH-nin mənbə növü kimi tanınmışdır. BMT və digər universal təşkilatlar BTH-nin subyektləri üçün məcburi hüquqi qüvvəsi olan aktlar qəbul etmək səlahiyyətinə malikdir. Beynəlxalq universal və ya regional tibb təşkilatları, habelə beynəlxalq tibb inteqrasiya birlikləri də belə subyektlər sırasına daxildir. Buna görə də, beynəlxalq hökumət təşkilatları universal və ya regional xarakterli olmalarına baxmayaraq, beynəlxalq tibb münasibətlərini tənzimləmək xüsusiyyətinə malik olan normativ hüquqi aktlar qəbul etmək **səlahiyyətinə** malikdirlər. Belə ki, praktiki cəhətdən, beynəlxalq hökumət təşkilatlarının hamısında üzv-dövlətlər üçün məcburi hüquqi qüvvəsi olan qərarlar qəbul etmək üçün aidiyyəri üzrə **müvafiq orqanlar** fəaliyyət göstərirlər. Sözügedən təşkilatların qərarlarının hüquqi qüvvəsi onların **təsis aktı** ilə müəyyən edilir. Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq hökumət təşkilatlarının yalnız hüquqyaradıcı, başqa sözlə, hüquq norması müəyyənləşdirən qərarları beynəlxalq hüququn (o cümlədən BTH-nin) mənbəyi ola bilər.[1] Belə təşkilatlar, məlum olduğu kimi, hüquqyaratma səlahiyyəti ilə təmin edilmişdir.[2] Həmin səlahiyyət çərçivəsində beynəlxalq hökumət təşkilatları öz adından müvafiq qərarlar qəbul edə bilər ki, bu qərarlar hüquqi təbiətinə görə **birtərəfli akt** sayılır. Beynəlxalq hökumət təşkilatlarının aktları beynəlxalq hüququn mənbələrini xarakterizə edən bütün əlamətlərə cavab verir. Bax, bu səbəbdən həmin aktlar beynəlxalq hüququn, o cümlədən BTH-nin mənbəyi kimi qəbul edilir. Qəbul olunan aktlar BTH-nin müstəqil subyekti olan beynəlxalq hökumət təşkilatlarının iradəsini ifadə edən formadır, yəni bu aktlarda məcburi **tibbi-davranış qaydaları** müəyyənləşdirilir. Həmin aktların məcburi hüquqi qüvvəsi vardır ki, bu, beynəlxalq

[1] Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.8.
[2] Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.68.

hökumət təşkilatlarının üzvü olan dövlətlərin iradəsi ilə təsis aktı əsasında müəyyən edilir. Təsis aktı isə, təbii ki, beynəlxalq müqavilədir.

Beynəlxalq hökumət təşkilatlarının məcburi aktları beynəlxalq hüququn, o cümlədən BTH-nin mənbəyi kimi tanınır. Beynəlxalq hökumət təşkilatlarının tövsiyə xarakterli aktları isə, müvafiq hüquq normaları müəyyənləşdirmək üçün **yardımçı vasitə** roluna malikdir.

BTH sferasında hüquq yaradıcılığı kontekstində **BMT** xüsusi rol oynayır. Belə ki, BMT-nin, xüsusən də onun **Baş Assambleyasının** qətnamələri BTH sahəsində tibb münasibətlərinin tənzimlənməsi üçün müstəsna dərəcədə önəmlidir. Adıçəkilən orqanın qətnamələri ilə bir sıra vacib əhəmiyyət kəsb edən sənədlər qəbul edilmişdir: məsələn, Ümumdünya insan hüquqları Bəyannaməsi (1948-ci il), Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə (1971-ci il), Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası (1974-cü il), Əlillərin hüquqları haqqında Bəyannamə (1975-ci il), Yeni beynəlxalq iqtisadi qaydanın hüquqi aspektlərinə dair beynəlxalq hüquq norma və prinsiplərinin inkişafı haqqında Qətnamə (1979-cu il), Uşaq hüquqları haqqında Bəyannamə (1989-cu il), "İnsanın klonlaşdırılması haqqında" Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsi (2005-ci il) və s.

Beynəlxalq hüquq üzrə alim, mütəxəssis və hüquqşünasların əksəriyyəti belə hesab edirlər ki, BMT Baş Assambleyasının bəzi qətnamələrinin məcburi hüquqi qüvvəsi vardır.[1]

Eyni zamanda, qeyd etməliyik ki, beynəlxalq tibb-hüquq münasibətlərini **tənzimetmə mənbəyi** kimi BMT-nin ixtisaslaşmış təsisatları tərəfindən aidiyyəti üzrə qəbul olunan aktlar vacib rol oynayır. Məsələn, tibb fəaliyyəti sferasında elm, təhsil və mədəniyyət münasibətlərinin nizama salınmasında UNESCO, əqli mülkiyyət hüquqlarının qorunması istiqamətində ÜƏMT, əmək və sosial münasibətlərin harmonikləşdirilməsində BƏT və digər orqanlar tərəfindən qəbul edilən normativ aktlar xüsusi əhəmiyyət kəsb edir.

[1] Məsələn, bax: Аречага Э. Современное международное право / Пер. с исп. М., 1983, с.53-54; Международное право. Учебник / Отв. ред. Г.В. Игнатенко, О.И.Тиунов. М., 2003, с.118-120; Международное публичное право. Учебник / Отв. ред. К. А. Бекяшев. М., 2009, с.29 və b.

3.2.4.Beynəlxalq tibb təşkilatlarının aktları

Müasir dövrdə beynəlxalq tibb hüququnun formalaşmasında beynəlxalq səhiyyə-tibb təşkilatlarının, xüsusən də BTH-nin **publik subyektlərinin** normativ aktları əhəmiyyətli rol oynayır. Qeyd etməliyik ki, BTH-nin təşəkkül tapması öz **normativ başlanğıcını**, əsasən, 1945-ci ildə təsis edilmiş BMT strukturunda səhiyyə-tibb fəaliyyəti sahəsində ixtisaslaşdırılmış təsisatların yaradılması dövründən bəri bağlanan müvafiq beynəlxalq saziş, müqavilə, konvensiya və yaxud hüquqi kontekstdə qəbul edilən aktlardan götürür. Belə ki, **BMT** Nizamnaməsində sosial və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi əsas hədəflərdən biri kimi müəyyən edilmişdir; bu aspekt, təbii ki, beynəlxalq səhiyyə-tibb problemlərinin həllini də özündə ehtiva edir. Göstərilən məqsədə nail olmaq üçün1946-cı ildə BMT-nin əsas ixtisaslaşmış təsisatlarından biri kimi **ÜST** təsis edilmişdir. Bu təşkilat məhz dünyada beynəlxalq səhiyyə-tibb fəaliyyətinin inkişafı və tibb sahəsində qarşılıqlı əməkdaşlığın həyata keçirilməsi ilə məşğul olan orqan sayılır. ÜST universal təşkilat kimi müvafiq **nizamnamə** (1948-ci ildə qüvvəyə minmişdir) əsasında beynəlxalq səhiyyə sahəsində fəaliyyət göstərir. Nizamnaməni, bəzən, Ümumdünya Səhiyyə Təşkilatının **Konstitusiyası** adlandırırlar. ÜST-nin üzvləri 194 dövlətdən ibarətdir, o cümlədən Azərbaycan Respublikası 1992-ci ildən onun üzvləri sırasına daxildir.[1]

Nizamnamədə ÜST-nin **məqsədləri** kimi aşağıdakılar təsbit edilmişdir: dünya xalqlarının ən yüksək səviyyədə sağlamlığına nail olmaq; milli səhiyyə qurumlarını möhkəmləndirmək; təhlükəli xəstəliklərə qarşı mübarizə aparmaq; ana və uşaqların sağlamlığını qorumaq; səhiyyə sahəsində mütəxəssis hazırlanması işinə yardım etmək; sosial xarakterli problemlərin aidiyyəti üzrə tibb tədbirləri vasitəsilə həll etmək; insanların sağlamlığının qorumaq və möhkəmləndirmək; ətraf mühitin vəziyyətini yaxşılaşdırmaq və sairə. Bu kontekstdə adıçəkilən təşkilat, yəni ÜST təsis sənədinə müvafiq olaraq, bir neçə **əsas istiqamət** üzrə fəaliyyət göstərir:

[1] URL :http://www.aze.AZ (22.11.2022-ci il).

beynəlxalq sanitariya və karantin qaydaları işləyib hazırlamaq, inkişaf etməkdə olan ölkələrə tibbi-texniki yardım etmək, infeksion xəstəliklərlə mübarizə aparmaq, səhiyyə sisteminin öz funksiyalarını normal yerinə yetirməsinə kömək göstərmək, sosial xarakterli məsələləri həll etmək və s.[1]

Beləliklə, **beynəlxalq səhiyyə-tibb təşkilatı** kimi ÜST və onun müvafiq orqanları tərəfindən əhalinin sağlamlığı, sanitariya və tibb sahəsindəki məsələlərlə bağlı qəbul edilən normativ aktlar və qaydalar BTH-nin əsas mənbə növü sayılır.

Həmçinin, qeyd etməliyik ki, BTH-nin mənbələri sisteminə **müharibə zamanı** insan sağlamlığının, habelə ətraf mühitin bu və ya digər dərəcədə qorunmasını təmin edən hüquq normaları da daxildir. Bu kontekstdə bəzi növ silahlardan (məsələn, partlayıcı güllələr, zəhərli qazlar, bakterioloji vasitələr və s.) istifadə etməklə müharibə aparılmasını qadağan edən Müharibə qurbanlarının müdafiəsi üzrə Cenevrə Konvensiyası (1949-cu il), eləcə də Atom silahlarının sınağının qismən məhdudlaşdırılması haqqında Moskva Sazişi (1963-cü il) və digər aktlar BTH-nin mühüm mənbə növü sayılır. Bu sırada **BHTK** (1990-cı il) qurumunun adını, xüsusilə, çəkməliyik. Əvvəllərdə qeyd etdiyimiz kimi, BHTK Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hərbi-tibbi məsələlər üzrə ixtisaslaşmış beynəlxalq təşkilat statusunda tanınır. Hal-hazırda 112 dövlətin üzv olduğu Beynəlxalq Hərbi Tibb Komitəsinin **əsas vəzifəsi** hərbi tibb sahəsində texnoloji və elmi təcrübə mübadilələrini təşviq etməkdir. Azərbaycan Respublikası da 2017-ci ildən BHTK-nın tamhüquqlu üzvüdür və 2013-cü il 9 dekabr tarixində düzəliş edilmiş "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmuşdur.[2] BHTK üz hüquqi statusuna görə, hərbi tibb üzrə hökumətlərarası beynəlxalq təşkilatdır. Onun Nizamnaməsində (maddə 2) təsbit olunduğu kimi, təşkilat aşağıda göstərilən vacib **funksiyaları** yerinə yetirir:

[1] Bax: https://www.google.com/search?q= ; https://base.garant.ru/2540328/ (23.11.2022-ci il).

[2] Bax: Azərbaycan Respublikasının 27 iyun 2019-cu il tarixli 1613-VQ nömrəli qanunu - https://e-qanun.az › framework (23.11.2022-ci il).

-bütün dövlətlərin silahlı qüvvələrinin tibb xidmətlərinin üzvləri arasında peşəkar əməkdaşlıq əlaqələrini qoruyub saxlamaq və gücləndirmək;

- mütəmadi olaraq Beynəlxalq Hərbi Tibb Konqreslərini təşkil etmək, eləcə də hərbi tibb üzrə maraqlı mövzularda beynəlxalq elmi sessiyalar, xüsusilə, tibb xidmətlərinin gənc zabitləri üçün beynəlxalq təkmilləşdirmə kursları təşkil etmək;

-xüsusilə, silahlı münaqişələrə tətbiq edilən, silahlı qüvvələrin tibb xidmətlərinin üzvləri üçün nəzərdə tutulan beynəlxalq humanitar hüquq üzrə kurslar təşkil etmək və ya dəstəkləməklə öz imkanları daxilində və fəaliyyəti çərçivəsində beynəlxalq humanitar hüquqa hörməti və onun tətbiqini təşviq etmək;

-hərbi tibb və ya tibbi-hüquq sahəsində aparılan innovativ xarakterli işləri əks etdirən aparıcı kitablar, məqalələr və ya hesabatlara görə mütəmadi olaraq, mükafatlarla, xüsusilə də, "Jules Voncken" mükafatı ilə təltif etmək;

-silahlı qüvvələrin yaralı və xəstə üzvlərinin taleyi və mühafizəsi ilə məşğul olan müxtəlif beynəlxalq qurumlarla əlaqəni təmin etmək;

-həm hərbçilər, həm də mülki əhali arasında çoxsaylı yaralı və xəstə olduğu zaman tibbi yardıma tətbiq olunan tibbi doktrinaların yayılmasını təşviq etmək və milli suverenliyə hörmət göstərməklə müxtəlif milli səhiyyə xidmətləri arasında əməkdaşlığa yardım etmək;

-silahlı qüvvələrin genişmiqyaslı fəlakətlərdə humanitar müdaxiləsi zamanı əlaqə və koordinasiya qurulmasına kömək göstərmək;

-tibbi biliyin azad mübadiləsi və beynəlxalq tibbi əməkdaşlıq üçün sülhün fəal təşviqi ilə geniş qarşılıqlı anlaşmanı, tolerantlığı və birgə mövcudluğu gücləndirmək və s.[1]

Önəmli haldır ki, BHTK Nizamnaməsində **"hərbi tibb"** anlayışı formulə olunmuşdur (maddə 3). Belə ki, hərbi tibb həm müharibə şəraitində, həm də sülh dövründə həyata keçirilən, aşağıda sadalanan fəaliyyətlər kimi başa düşülməlidir:

-hərbi heyətə aid olan fərdlərin və ya qrupların faydası üçün bütün ixtisaslar üzrə həyata keçirilən diaqnostik, müalicəvi tibbi və cərrahi fəaliyyətlər;

[1] Ətraflı bax: Aynurə Əliyeva, Fatimə Hüseynova, Elvin Əzizov. Beynəlxalq Hərbi Tibb Komitəsi:anlayışı, tibbi və hüquqi aspektlər // Hüquqi müstəvi. Bakı, 2022, №3(11), s.62.

-hərbi mühitdə profilaktik tibb, gigiyena və peşə tibbi;

-müxtəlif hərbi fəaliyyətlər üçün tələb olunan fiziki və zehni bacarığın qiymətləndirilməsi üsulları;

-bütün hərbi məsələlərlə bağlı tibbi müayinə;

-kütləvi tibbin spesifik formaları;

-hərbi mühitdə odontostomatologiya;

-hərbi mühitdə əczaçılıq;

-hərbi tibbin müxtəlif sahələrinə aid olan tapşırıqlarla əlaqədar inzibati, təşkilati, logistik fəaliyyətlər və s.

Təbii ki, bu fəaliyyət növlərinin bəziləri hərbçilərlə yanaşı, **mülki əhali** üçün də faydalı ola bilər. Qeyd edə bilərik ki, silahlı qüvvələr sektorunda hərbi tibb və təbabət fəaliyyətinin həyata keçirilməsində, eləcə də bu istiqamətdə dövlətlərarası beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində və beynəlxalq tibb-hüquq münasibətlərinin nizamlanmasında BHTK-nın Nizamnaməsi **tənzimetmə mənbəyi** kimi özünəməxsus yer tutur. Dünyada bütün xalqların sağlamlığının yaxşılaşdırılmasını maksimum dərəcədə təmin edən yeni tibb-hüquq normalarının işlənib hazırlanmasında BTH-nin publik subyektləri ilə yanaşı, səhiyyə-tibb sferasında fəaliyyət göstərən **xüsusi subyektlər** də (assosiasiya, federasiya, ittifaq, birlik və s. özəl təşkilatlar) əhəmiyyətli rol oynayır. Bu zaman ümumi xarakterli beynəlxalq tibb təşkilatı kimi **Ümumdünya Tibb Assosiasiyasının** (ÜTA) adını, xüsusilə, qeyd etməliyik. Belə ki, ÜTA beynəlxalq qeyri-hökumət təşkilatı kimi 1947-ci ildə yaradılmış və özündə 100-dən çox milli həkimlər birliklərini birləşdirir. Sözügedən təşkilat bütün ölkələrdə həkimlərin riayət etməyə borclu olduqları tibbi praktikada etik davranış normaların hazırlanması ilə məşğuldur. Təqdirəlayiq haldır ki, ÜTA-nın təşəbbüsü ilə tibb-hüquq münasibətlərinin nizama salınması istiqamətində **mənbə növü** kimi dəyərləndirilən aşağıda göstərilən bir sıra vacib sənədlər qəbul olunmuşdur: - Beynəlxalq tibbi etika Məcəlləsi (1949-cu il, London)

- Pasiyentin hüquqları haqqında Lissabon Bəyannaməsi (1981-ci il);

- İnsan üzərində tibbi tədqiqatların etik prinsiplərinə dair Ümumdünya Tibb Assosiasiyasının Helsinki Bəyannaməsi (1964-cü il); -

İnsan orqanlarının transplantasiyası ilə əlaqədar Bəyanat (1987-ci il, Madrid) və s. aktlar.

Beynəlxalq tibb-hüquq münasibətlərinin inkişaf proseslərində **Dünya Tibbi Hüquq Assosiasiyası** (DTHA) da əvəzsiz rol oynayır. Adıçəkilən Assosiasiya 1967-ci ildə Belçikada tibbi hüquq sahəsində multikultural və fənlərarası problemlərin tədqiqatı məqsədi ilə, hüquq və məhkəmə təbabəti üzrə bir qrup tanınmış mütəxəssis tərəfindən yaradılmışdır. DTHA müvafiq nizamnamə əsasında fəaliyyət göstərir. Sözügedən təşkilatın qüvvədə olan **Nizamnaməsi** DTHA-nın ilk dəfə 1967-ci ildə yazılmış, dəfələrlə düzəlişlər edilmiş orijinal sənəd variantına əsaslanır və 2006-cı ildə Fransanın Tuluza şəhərində keçirilən Ümumdünya Konqresi zamanı Assosiasiyanın Baş Assambleyası tərəfindən qəbul edilmişdir. Sonralar 2011-ci ildə adıçəkilən Nizamnaməyə təşkilatın qeydiyyata alındığı Kaliforniya Ştatının Korporasiyalar Məcəlləsinə və digər müvafiq qanunvericilik aktlarına uyğunlaşdırılması üçün əlavə düzəlişlər edilmişdir.

DTHA-nın Nizamnaməsində göstərildiyi kimi (maddə 3), onun **məqsədləri** aşağıdakılardanibarətdir:

-sağlamlıq hüququ, məhkəmə ekspertizası və etika ilə bağlı məsələlərin öyrənilməsini və müzakirəsini, onların insanlıq və insan hüquqlarının inkişafı üçün faydalı yollarla mümkün həllini təşviq etmək;

-tibb, ictimai səhiyyə və digər əlaqəli elm sahələrindəki inkişafın və nailiyyətlərin nəticələrinin hüquq, qanunvericilik və etika sahəsində öyrənilməsini təşviqetmək;

- sağlamlıq-səhiyyə və ya məhkəmə təbabəti sahəsində qanunvericiliklə bağlı hər hansı məsələləri həll etmək.[1]

Bu Assosiasiya öz fəaliyyətində BMT-nin UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Cinayət Məhkəməsi və bir çox milli peşəkar assosiasiyalarla əməkdaşlıq həyata keçirir. DTHA-nın mənzil-qərargahı ABŞ-ın Kaliforniya ştatının

[1] Bax: http://wafml.memberlodge.org/page-1150630 (24.11.2022-ci il).

Los-Anceles şəhərində yerləşir. Assosiasiya formasında təsis edilmiş DTHA öz hüquqi təbiətinə görə, daimi fəaliyyət göstərən hüquqi şəxsdir və **beynəlxalq qeyri-hökumət təşkilatı** statusuna malikdir. DTHA Azərbaycan, Avstraliya, Belçika, Böyük Britaniya, İsrail, Kanada, Nigeriya, Peru, Rusiya Federasiyası və digər ölkələrdən olan alimlərin iştirakı ilə dünyanın bir çox regionlarında tibbi hüquq və bioetika sahəsində təhsil proqramlarının inkişafına, həkim və tibb işçilərinin hüquqi və etik hazırlığının yüksəldilməsinə aid layihələr həyata keçirir.[2]

Beynəlxalq tibb-hüquq münasibətlərinin **tənzimlənmə mənbəyi** kimi müvafiq hüquq normalarının hazırlanmasına dair təşəbbüslər irəli sürülməsində, demək olar ki, səhiyyə-tibb sferasında fəaliyyət göstərən çoxsaylı ictimai birliklər aidiyyəti üzrə əhəmiyyətli rol oynayır. Məsələn, Ümumdünya Stomatologiya Federasiyası (1900-cü il), Ümumdünya Onkoloqlar, Ortoped-Travmotoloqlar Assosiasiyası (Paris, 1929-cu il), Beynəlxalq Fövqəladə Uşaqlara Yardım Fondu (1946-cı il), Dünya Karlar Federasiyası (1951-ci il), Beynəlxalq Spinal Dizrafizm və Hidrosefaliya Federasiyası (1979-cu il), Korluğun qarşısının alınması üzrə Beynəlxalq Agentlik (İAPB), Beynəlxalq QİÇS Cəmiyyəti (1981-ci il), Beynəlxalq Həkim-Mama Assosiasiyası (1987-ci il), Beynəlxalq Bioetika Assosiasiyası (1992-ci il) və s. Belə birliklərin əksəriyyəti isə, **hüquqi təbiətinə** görə, öz milli hökumətlərindən və beynəlxalq tibb təsisatlarının normativ sənədlərindən asılı olmayan ictimai təşkilatlardır. Bu cür birliklərin təsis aktları həmin təşkilatların hüquqi statusunu müəyyən etməklə, beynəlxalq özəl tibb qurumlarının fəaliyyətinin də reqlamentləşdirilməsində mənbə növü kimi mühüm əhəmiyyət kəsb edir.

Şərh olunanlarla yanaşı, beynəlxalq tibb münasibətlərinin nizama salınmasında müvafiq **etik tibb məcəllələri** də BTH-nin qeyri-ənənəvi mənbə növü kimi vacib əhəmiyyətə malikdir. Belə ki, təsis sənədlərində təsbit olunmuş qayda və reqlamentlərə riayət edilməsi, pasiyentlərlə davranış münasibətləri, tibbi nizam-intizam, mədəniyyət və digər məsələlərlə bağlı müddəalar bu cür məcəllələrdə müəyyənləşdirilir. Məsələn, belə aktlar sırasında aşağıdakı sənədləri nümunə

[2] Ətraflı bax: DTHA-nın rəsmi veb-saytı - wafml.memberlodge.org и thewaml.com (24.11.2022-ci il).

qismində göstərə bilərik: **Həkimlərin etik davranış Qaydaları,**[1] Həkimlərin peşə etikası Məcəlləsi, Əczaçılıq işçilərinin etik Məcəlləsi, Tibb bacılarının etik Məcəlləsi,[2] Tibb Məcəlləsi [3], Ümumdünya Antidopinq Məcəlləsi [4] və s. aktlar.

Beləliklə, təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, müasir dövrdə dünyada beynəlxalq tibb fəaliyyətinin əlaqələndirilməsi və idarə olunması, bu sahədə yaranan tibb-ictimai münasibətlərinin effektiv surətdə tənzimlənməsi, müalicə-profilaktik tədbirlərinin həyata keçirilməsi, infeksion xəstəliklərə qarşı birgə mübarizə aparılması və s. məsələlərin həlli istiqamətində müvafiq tibb-hüquq normaları ehtiva edən kifayət qədər zəngin mənbə növü - **beynəlxalq tibb qanunvericilik massivi** formalaşmışdır. Bu işdə, təbii ki, beynəlxalq təşkilatların, o cümlədən BTH-nin subyekti olan beynəlxalq səhiyyə-tibb təşkilarlarının, eləcə də tibb fəaliyyəti sahəsində mövcud ictimai tibbi qurum və birliklərinin aktiv iştirak etmələri danılmaz faktdır.

3.2.5. Tibb sferasında milli qanunvericilik aktları

Beynəlxalq tibb hüququnun digər mənbə növlərindən biri də **dövlətdaxili (milli) qanunvericilik aktları** sayılır. Söhbət, təbii ki, tibb qanunvericiliyindən gedir. Hər bir ölkənin özünəməxsus tibb qanunvericiliyi vardır. Məsələn, bizim ölkədə **tibb qanunvericiliyi** Azərbaycan Respublikasının Konstitusiyasından, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan və bu sahədə qüvvədə olan digər qanunlardan, eləcə

---

[1] *Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 29.12.2011-ci il tarixli 137 nömrəli əmri ilə təsdiq edilmişdir.* Bax: https://sehiyye.gov.az › sehiyye-nazirliyinin-emrleri (25.11.2022-ci il).

[2] Bu barədə ətraflı bax: Мохов А.А., Сергеев Ю.Д. Биоэтика – нетрадиционный источник медицинского права // Медицинское право. М., 2007, № 2, с.3-9.

[3] Göstərilən Məcəllə Beynəlxalq Olimpiya Komitəsi tərəfindən 1994-cü ildə qəbul edilmişdir - https://studref.com/524931/pravo/meditsinskiy_kodeks_mezhdunarodnogo_olimpiyskogo_komiteta (25.11.2022- ci il). Bu və növbəti 4-cü iqtibasda qeyd edilənlər barədə ətraflı bax: Əliyev E.Ə., Qəmbərov H.D., Hüseynova F.E. Beynəlxalq idman hüququ. Dərslik. Bakı, 2023.

[4] Sözügedən Məcəllə Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən 2003-cü ildə qəbul edilmiş və yenidən baxılmış variantı 01.01.2021-ci il tarixdən qüvvəyə minmişdir - https://www.wada-ama.org/sites/default/files/resources/files/2021_vsemirnyy_antidopingov (25.11.2022-ci il).

də normativ hüquqi aktlardan (MM, CM, İXM, GM, VM, ƏM, AM və s.) və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Beynəlxalq tibb fəaliyyəti sferasında yaranan ictimai münasibətlərin nizama salınmasında ən yüksək hüquqi qüvvəyə malik olan **Azərbaycan Respublikasının Konstitusiyası** (1995-ci il) əsas və aparıcı rol oynayır. Belə ki, Konstitusiyada təsbit edilmiş bəzi normalar cəmiyyətdə tibb fəaliyyətinin təşkili və həyata keçirilməsi istiqamətində qanuni bazis funksiyasına malikdir. Bu sırada aşağıdakı maddələrin adını çəkə bilərik: Maddə 12 (Dövlətin ali məqsədi), Maddə 26 (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi), Maddə 27 (Yaşamaq hüququ), Maddə 29 (Mülkiyyət hüququ), Maddə 30 (Əqli mülkiyyət hüququ), Maddə 35 (Əmək hüququ), Maddə 37 (İstirahət hüququ), Maddə 38 (Sosial təminat hüququ), Maddə 39 (Sağlam ətraf mühitdə yaşamaq hüququ), Maddə 41 (Sağlamlığın qorunması hüququ), Maddə 59 (Azad sahibkarlıq hüququ), Maddə 60 (Hüquq və azadlıqların məhkəmə təminatı) və b. [1] Eyni zamanda, Konstitusiya müəyyən edir ki, qanunvericilik sisteminin komponentləri kimi Konstitusiyanın özü, referendumla qəbul edilmiş aktlar, qanunlar, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları çıxış edir, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr də hüquq sisteminin ayrılmaz tərkib hissəsidir (maddə 148).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin (NK) qərarları da tibb fəaliyyəti sferasında milli qanunvericilik aktları sırasına daxildir. Belə ki, NK tərəfindən qəbul edilən aidiyyəti qərarlar tibb-hüquq münasibətlərinin tənzimlənməsində mühüm rol oynayır. NK-nın müvafiq aktları ilə müəyyənləşdirilən qayda və meyarlar tibb hüququnun mənbəyi kimi çıxış edir. Bu kontekstdə aşağıdakı aktları nümunə göstərə bilərik: məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2010-cu il tarixli 108 nömrəli Qərarı ilə təsdiq edilmiş "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası", 25.12.2019-cu il tarixli 503 nömrəli Qərarı ilə

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,"PG" nəşriyyatı, 2014, 52 s.

təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası" , 07.11.2020-ci il tarixli 447 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibb müəssisələrinin akkreditasiyası Qaydası", 03.09.2022-ci il tarixli 342 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanlarının transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar" və "Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı", 03.09.2022-ci il tarixli 343 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası", 03.09.2022-ci il tarixli 344 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donorlar, resipiyentlər və donor orqanlarının vahid dövlət informasiya bazasının Əsasnaməsi", 03.09.2022-ci il tarixli 345 nömrəli Qərarı ilə təsdiq edilmiş "Transplantasiya məqsədilə donor orqanlarının idxalı və ixracı Qaydası" və sairə çoxsaylı aktlar.[1]

Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzunömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir. Bu kontekstdə qeyd edə bilərik ki, ölkədə əhalinin sağlamlığının qorunması sahəsində əsas prinsiplər, habelə vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan ictimai münasibətlər **"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu** (1997-ci il) ilə tənzimlənir.[1] Adıçəkilən qanunvericilik aktı tibb hüququnun mənbəyi olaraq, həm də sözügedən sahədə yaranan qarşılıqlı münasibətləri qaydaya salır və nizamlayır, hər kəsin sağlamlıq hüququna təminat verir. Qanunda əhalinin sağlamlığının qorunması sahəsində dövlətin vəzifələri, dövlət səhiyyə sistemi, qeyri-dövlət səhiyyə sistemi, tibb müəssisələrinin dövlət qeydiyyatı və akkreditasiyası, əhalinin sanitariya-epidemioloji salamatlığı, vətəndaşların, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sağlamlığının qorunması hüququ, tibbi sığorta,

[1] Ətraflı bax: www.nk.gov.az (26.11.2022-ci il).
[1] AR QT. Bakı, 1997, № 6, maddə 497; https://e-qanun.az/framework/4078 (26.11.2022-ci il).

əhalinin dərman vasitələri ilə təminatı, əhalinin sağlamlığının qorunması sahəsində ailənin hüquqları, əlilliyi olan şəxslərin tibbi yardımla təminatı, ixtisaslaşdırılmış tibbi yardım, biotibbi tədqiqatların aparılması qaydaları, tibbi-sosial ekspertiza, tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ, xalq təbabəti ilə məşğul olmaq hüququ, pasiyentlərin hüquqları, tibb subyektlərinin fəaliyyətinin təşkili və s. məsələlər barədə kifayət qədər tənzimləyici hüquq normaları təsbit olunmuşdur.

"Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il) ölkədə özəl tibb-hüquq fəaliyyətinin nizama salınmasında əhəmiyyətli rol oynayır. Bu Qanun özəl tibb fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini, bu fəaliyyətin təşkilati-hüquqi əsaslarını müəyyən edir. Eyni zamanda, Qanunda özəl tibbi fəaliyyət, özəl tibbi praktika, özəl tibb fəaliyyətinin subyektləri, özəl tibb müəssisəsi, tibbi yardım, tibbi xidmət, özəl tibb müəssisəsi və özəl tibbi praktika ilə məşğul olan şəxs tərəfindən tibbi yardım göstərilməsi haqqında müqavilə, ilkin tibbi-sanitariya yardımının göstərilmə şərtləri, dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın özəl tibb fəaliyyəti subyektlərinin müvəqqəti istifadəsinə verilməsi, özəl tibb fəaliyyətinin subyektləri arasında, eləcə də həmin subyektlərlə digər hüquqi və fiziki şəxslər arasında yaranan mübahisələrin həlli qaydası, özəl tibb fəaliyyətinin maliyyələşdirilmə mənbələri, özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərin göstərdiyi tibbi yardıma görə ödəniş, özəl tibb fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlıq, qanunvericiliyin pozulmasına görə hüquqi və fiziki şəxslərin məsuliyyət daşıması və digər məsələlər barədə geniş spektrli hüquq normaları təsbit edilir.[1]

Həmçinin **tibbi qanunvericilik sisteminin** tərkib hissəsi kimi aşağıdakı qanunları da mövcuddur: "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanunu (1992-ci il), "Əhalinin radiasiya təhlükəsizliyi haqqında " Azərbaycan Respublikasının Qanunu (1997-ci il), "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il),

[1] Bu barədə ətraflı bax: AR QT. Bakı, 2000, № 3 (I kitab), maddə 129; https://e-qanun.az/framework/503 (26.11.2022-ci il).

"İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu (2000-ci il), "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu (2001-ci il), "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu (2003-cü il), "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu (2005-ci il), "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu (2006-cı il), "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu (2006-cı il), "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2010-cu il), "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu (2013-cü il), "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu (2018-ci il), "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu (2020-ci il), "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu (2022-ci il) və s. qanunlar.[2]

Xarici elementli tibb-hüquq münasibətlərinin ölkəmizdə nizama salınmasında tibb hüququnun mənbəyi kimi **"Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanunu** (2000-ci il) mühüm əhəmiyyət kəsb edir. Belə ki, sözügedən Qanunda onun tətbiq dairəsi və tətbiq edilməli hüququn müəyyən edilməsi, eləcə də **xarici elementli mülki hüquqi tibb münasibətlərinə** tətbiq edilməli hüquq normaları barədə konkret göstərişlər əks olunur. Eyni zamanda, Qanunda göstərilir ki, xarici elementli mülki-hüquqi münasibətlərə (o cümlədən xüsusi tibb münasibətlərinə) tətbiq olunmalı hüquq bu Qanunla bərabər, həm də digər müvafiq qanunvericilik aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı və ya qoşulduğu beynəlxalq müqavilələr və ümumqəbuledilmiş beynəlxalq adətlər, habelə tərəflərin razılığı əsasında müəyyən edilir. Tətbiq ediləcək hüququ müəyyən etmək barədə tərəflərin qarşılıqlı razılığı dürüst və aydın şəkildə konkret

[2] Ətraflı bax: Məmmədov V.Q. Tibbi hüquq və bioetikanın Azərbaycan Respublikasında formalaşması və müasir inkişaf tendensiyaları // Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2022, s. 37.

ifadə olunmalı və ya bütövlükdə götürülməklə müqavilənin şərtlərindən və işin hallarından bilavasitə irəli gəlməlidir. Göstərilən müddəalar, təbii ki, xarici elementli beynəlxalq xüsusi tibb-hüquq münasibətlərinin tənzimlənməsi hallarına də şamil edilir.[1]

Tibb sferasında ictimai münasibətlərin nizama salınması işində **Azərbaycan Respublikasının Mülki Məcəlləsi** (MM, 1999-cu il) xüsusi yer tutur. MM-də tibb-hüquq münasibətlərinin həyata keçirilməsi zamanı tətbiq edilən çoxsaylı hüquq normaları mövcuddur: məsələn, fiziki şəxs anlayışı (maddə 24), hüquqi şəxs anlayışı (maddə 43), kommersiya təşkilatları (maddə 64-113), mülkiyyət hüququnun anlayışı və məzmunu (maddə 152), əqd anlayışı və onun növləri (maddə 324), müddət anlayışı (maddə 367), müqavilə anlayışı (maddə 389), icarə haqqında ümumi müddəalar (maddə 700-705), sığorta haqqında ümumi müddəalar (maddə 883-898), fiziki şəxslərin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi (maddə 1117-1127), malın, işin və ya xidmətin qüsurları nəticəsində dəyən zərərin əvəzinin ödənilməsi (maddə 1128-1132) və b. Sözügedən Məcəllədə belə bir göstəriş ifadə olunmuşdur ki (maddə 3), Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr bu Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir.[1]

Qeyd etməliyik ki, ölkəmizdə tibb fəaliyyətinin realizasiyası prosesində yaranan ictimai münasibətlərin tənzimlənməsi bir sıra normativ hüquqi aktlar vasitəsilə həyata keçirilir. Məsələn, **Azərbaycan Respublikasının İnzibati Xətalar**

[1] Adıçəkilən qanunun mətni üçün bax: AR QT. Bakı, 2000, №10, maddə 708.
[1] Göstərilən məsələlər barədə ətraflı bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir – B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi" , 2016, 848 s.

Məcəlləsi (İXM, 2015-ci il) insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ətraf mühiti və s. qaydaları qorumaq vəzifələrini daşıyır. Belə ki, adıçəkilən Məcəllədə bu münasibətlərin tənzimlənməsinə dair ayrıca normalar həsr olunmuşdur:

- **Sağlamlıq əleyhinə olan inzibati xətalar** - Maddə 159. Zöhrəvi xəstəliklərə yoluxmuş şəxsin müalicədən boyun qaçırması; Maddə 160. Zöhrəvi xəstəliklərə və ya insanın immunçatışmazlığı virusuna yoluxmuş şəxslə əlaqədə olmuş şəxsin müayinədən boyun qaçırması; Maddə 161. Zöhrəvi xəstəliklərə və ya insanın immunçatışmazlığı virusuna yoluxma mənbəyinin gizlədilməsi; Maddə 162. Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında qanunvericiliyin pozulması; Maddə 162-1. İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında qanunvericiliyin pozulması; Maddə 163. Qeysəriyyə kəsiyi əməliyyatının qanunsuz aparılması;

- **Əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə olan inzibati xətalar** - Maddə 210. Lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma; Maddə 211. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması; Maddə 212. Tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsi; Maddə 214. Uşaqların icbari dispanserizasiyası haqqında qanunvericiliyin pozulması; Maddə 215. Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması; Maddə 215-1. Psixoloji yardım haqqında qanunvericiliyin pozulması; Maddə 216. Təhsil və ya tibb müəssisələrində sanitariya-gigiyena və epidemiya əleyhinə rejimlərin pozulması; Maddə 217. Nəqliyyatda sanitariya normalarının və qaydalarının, gigiyena normativlərinin pozulması; Maddə 220. Əhalinin qidalanmasının təşkilinə, yeyinti məhsullarının istehsalına, saxlanmasına, daşınmasına və satışına dair qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların pozulması; Maddə 221. Dərman vasitələri haqqında qanunvericiliyin pozulması; Maddə 223. Rəsmi tibbi icazə sənədləri olmadan bədən tərbiyəsi və idmanla məşğul olmağa cəlb etmə və idman yarışlarına buraxma; Maddə 226.

Dopinq nəzarəti qaydalarının pozulması və s.[1]

Tibb fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin cinayətkar qəsdlərdən qorunması, habelə cinayətlərin qarşısının alınması istiqamətində vəzifələrin yerinə yetirilməsi **Azərbaycan Respublikasının Cinayət Məcəlləsi** (CM, 1999-cu il) vasitəsi ilə təmin olunur. Bu kontekstdə CM-də müvafiq normalar təsbit edilmişdir: - **Tibbi xarakterli məcburi cinayət-hüquqi tədbirlər** – Maddə 93. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin əsasları; Maddə 93-1. Alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi; Maddə 94. Psixi pozuntusu olan şəxslərə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin məqsədi; Maddə 95. Psixi pozuntusu olan şəxslərə təyin edilən tibbi xarakterli məcburi tədbirlərin növləri; Maddə 96. Məcburi ambulatoriya müşahidəsi altında olma və psixiatr tərəfindən müalicə edilmə; Maddə 97. Psixiatriya stasionarlarında məcburi müalicə olunma; Maddə 98. Psixi pozuntusu olan şəxslərə təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ləğv edilməsi;

- **Həyat və sağlamlıq əleyhinə olan cinayətlər** - Maddə 121. Ananın yeni doğduğu uşağı qəsdən öldürməsi; Maddə 122. Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə; Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma; Maddə 135. Evtanaziya; Maddə 136. Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya; Maddə 137. İnsan orqanlarının və toxumalarının alqı-satqısı, qanunsuz donorluğu və transplantasiyası; Maddə 138. Qanunsuz olaraq biotibbi tədqiqatlar aparma və ya qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə; Maddə 139. Zöhrəvi xəstəlikləri yayma; Maddə 139-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması; Maddə 140. İnsan immunçatışmazlığı virusu ilə yoluxdurma; Maddə 141. Qanunsuz abort etmə;

[1] Bu barədə daha ətraflı bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi" , 2016, 392 s.

Maddə 142. Xəstəyə kömək göstərməmə; Maddə 143. Təhlükədə qoyma; Maddə 143-1. Dopinq vasitələrindən və (və ya) üsullarından istifadəyə məcbur etmə və digər maddələr.[1]

Həmçinin qeyd etməliyik ki, "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1999-cu il tarixli Qanununa uyğun olaraq, özəl tibb müəssisələrindən və özəl tibbi praktika ilə məşğul olan şəxslərdən qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq vergilər tutulur (maddə 14). Ölkədə vergitutma münasibətləri isə, aydın məsələdir ki, **Azərbaycan Respublikasının Vergi Məcəlləsi** (VM, 2000-ci il) ilə tənzimlənir. Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir. Adıçəkilən Məcəllədə vergitutmanın formaları (VM, maddə 5), vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları (VM, maddə 10), vergi ödəyicisinin hüquq və vəzifələri (VM, maddə 15-16), vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin ümumi əsasları (VM, maddə 53), fiziki şəxslərin gəlir vergisi (VM, fəsil VIII), hüquqi şəxslərin mənfəət vergisi (VM, fəsil IX), əlavə dəyər vergisi (VM, fəsil XI) və s. münasibətlərin tənzimlənməsinə ayrıca normalar həsr olunmuşdur.[1]

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı,"Hüquq ədəbiyyatı" nəşriyyatı , 2013, 348 s.

[1] Bu barədə ətraflı bax: Azərbaycan Respublikasının Vergi Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi" , 2019, 442 s.; Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı , 2013, 308 s.; Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, s.477-504.

Əhalinin sağlamlığının qorunması və etibarlı şəkildə təmin edilməsi məqsədilə zəruri olan tibbi avadanlıqlar, müalicə vasitələri, əczaçılıq məhsulları və digər tibbi ləvazimatlar ölkə ərazisinə idxal və ya ölkə ərazisindən ixrac edilərkən müvafiq gömrük rəsmiləşdirilməsindən keçirilir. Azərbaycanda gömrük fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsasları, eləcə də gömrük işi sahəsində subyektlərin hüquq və vəzifələri **Azərbaycan Respublikasının Gömrük Məcəlləsi** (GM, 2011-ci il) ilə müəyyənləşdirilir. Bu akt "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 24.06.2011-ci il tarixli 164-IVQ nömrəli Qanunu ilə qəbul edilmiş və 2012-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Bununla da əvvəlki, 1997-ci ildən mövcud olan Gömrük Məcəlləsi ləğv olunmuşdur. Göstərilən Məcəllədə gömrük nəzarətinin həyata keçirilməsi, gömrük rəsmiləşdirilməsi, gömrük prosedurları, gömrük ödənişləri və s. məsələlərin tənzimlənməsinə dair müddəalar yer almışdır. Məsələn, adıçəkilən normativ hüquqi aktda təsbit olunmuşdur ki, yardım yüklərinin gömrük rəsmiləşdirilməsi Məcəllədə nəzərdə tutulan sadələşdirilmiş bəyannamələrdən istifadə olunmaqla aparılır və belə yüklərə münasibətdə gömrük ödənişləri tətbiq edilmir (GM, maddə 112); bu hal, təbii ki, humanitar xarakterli tibbi avadanlıq, dərman vasitələri və digər tibbi məhsulların idxalına da şamil olunur. Həmçinin GM-də milli təhlükəsizliyin, insanların həyat və sağlamlığının, ətraf mühitin, əqli mülkiyyət hüquqları obyektlərinin qorunması baxımından, gömrük ərazisindən aparılan bəzi mallara qadağalar müəyyən edilmişdir (GM, maddə 126) və s.[1] Tibb fəaliyyətinin həyata keçirilməsi ilə bağlı subyektlər arasında müəyyən ictimai münasibətlər (əmək, ailə, sosial, təhsil, əqli mülkiyyət, reklam, nəqliyyat, maliyyə, sığorta, gömrük, vergi və s.) yaranır. Bu spesifik münasibətlərin hüquqi cəhətdən qaydaya salınaraq, nizamlanmasında əhəmiyyətli rol oynayan və **tənzimləyici mənbə** qismində çıxış edən müvafiq

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı,"Hüquq Yayın Evi" , 2018, 232 s.; Novruzov Q.N., Qəmbərov H.D., Hüseynova F.E. Gömrük hüququ. Dərslik / Məsul redaktor – E.Ə.Əliyev. Bakı: "Zərdabi Nəşr" MMC nəşriyyat-poliqrafiya müəssisəsi, 2021, 592s.

normativ hüquqi aktlar qəbul edilmişdir. Bu kontekstdə aşağıda göstərilən qanunvericilik aktlarının adlarını, xüsusilə, çəkməliyik:

- Azərbaycan Respublikasının Su Məcəlləsi (1997-ci il);
- Azərbaycan Respublikasının Meşə Məcəlləsi (1997-ci il);
- "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-ci il);
- "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il);
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının Ailə Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının Torpaq Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (1999-cu il);
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (2000-ci il);
- Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi (2009-cu il);
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (2009-cu il);
- "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (2012-ci il) və s. aktlar.

Göstərilən normativ hüquqi aktları [1] aidiyyəti üzrə beynəlxalq tibb hüququnun **dövlətdaxili (milli) mənbə növü** kimi xarakterizə etmək olar. Eyni zamanda, müalicə-tibb xidmətlərinin təşkili, idarə edilməsi və həyata keçirilməsi, eləcə də səhiyyə-tibb münasibətlərinin reqlamentləşdirilməsi sferasında Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə yanaşı, ölkədə fəaliyyət göstərən assosiasiya,federasiya, ittifaq, digər özəl tibb müəssisə və birliklərinin **təsis sənədləri** də (əsasnamə, nizamnamə, reqlament və s.) vacib rol oynayır və bu

[1] Göstərilən normativ hüquqi aktların mətni ilə tanış olmaq üçün ətraflı bax : URL : http://e-qanun.az/framework/46943 (27.11.2022-ci il).

aktlarda təsbit edilmiş normalardan tibb fəaliyyətinin nizama salınması sahəsində mənbə kimi geniş surətdə istifadə olunur.

Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də** [2] **göstərilir ki, adıçəkilən** Nazirlik (SN) ölkədə əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını isə Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

Nazirliyin tabeliyində **ictimai əsaslarla** fəaliyyət göstərən, əhalinin sağlamlığının qorunması sahəsində elmi-tibbi nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Elmi-Tibbi Şura və Azərbaycan Respublikasında dərman vasitələrinin dövriyyəsi ilə əlaqədar əlavə ixtisaslaşdırılmış ekspertizanın aparılması üçün Farmakoloji və Farmakopeya Ekspert Şurası yaradılmışdır. Həmin şuraların əsasnamələri Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən təsdiq edilmişdir. Göründüyü kimi, SN-in əsasnaməsində səhiyyə-tibb fəaliyyətinin təşkili və idarə edilməsi məsələlərini **tənzimləyən** zəruri mənbə növü qismində hüquq normaları yer almışdır.

Azərbaycan Respublikası ərazisində əhalinin sağlamlığının qorunması sahəsində vacib subyektlərdən biri də **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** sayılır. Agentliyin fəaliyyətinin təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 06.09.2017-ci il tarixli 1592 nömrəli Fərmanı əsasında sözügedən qurumun **Nizamnaməsi** təsdiq edilmişdir.[1] Bu nizamnamə də tibb-hüquq

[2] Bax: AR QT. Bakı, 2006, № 5, maddə 411.
[1] Bax: https://e-qanun.az/framework/36428 (27.11.2022-ci il).

münasibətlərinin aidiyyəti üzrə nizama salınmasında tibb hüququnun mənbəyi kimi əhəmiyyətli rol oynayır.

Eyni zamanda, qeyd etməliyik ki, bəzən, hüquq ədəbiyyatı səhifələrində **məhkəmə təcrübəsi** tibb hüququnun mənbələri sırasına daxil edilir.[2] Düzdür, tibb fəaliyyəti sahəsində qanunvericiliyin eyni cür başa düşülməsi və eyni qaydada tətbiq edilməsi üçün məhkəmə praktikasının böyük əhəmiyyəti vardır. Lakin, buna baxmayaraq, məhkəmə praktikası hüququn, o cümlədən tibb hüququnun mənbəyi hesab olunmur. Məhkəmə təcrübəsi dedikdə məhkəmələrin ayrı-ayrı kateqoriya işləri dəfələrlə eyni cür həll etməsi başa düşülür. Ancaq, nəzərdən qaçırmaq olmaz ki, Konstitusiyanın 7-ci maddəsinin III hissəsi hakimiyyətin bölgüsü prinsipindən çıxış edir; bu prinsipə görə, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Məhkəmələrin isə qanunlar qəbul etmək və hüquq normaları yaratmaq səlahiyyəti yoxdur. Hakimiyyətin bölgüsü prinsipinə əsasən, belə səlahiyyətə Milli Məclis malikdir. Odur ki, məhkəmə orqanlarının qərarları hüququn mənbəyi ola bilməz. Lakin, məhkəmələr içərisində **Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi** aidiyyəti üzrə elə qərarlar qəbul edir ki, normativ əhəmiyyətə və məzmuna malik olan, eyni zamanda, yeni hüquq normaları yaradan həmin qərarlar hüququn mənbəyi kimi tanınır.[1]

Göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, tibb fəaliyyəti sferasında mövcud olan **milli qanunvericilik aktları** və müasir **tibb-hüquq praktikası** vətəndaş cəmiyyətində normayaratma funksiyasının həyata keçirilməsində əhəmiyyətli rol oynayır, **beynəlxalq tibb-hüquq münasibətlərinin** tənzimlənmə mənbəyi qismində çıxış edərək, müvafiq hüquq normalarının formalaşmasına və təkmilləşməsinə effektiv təsir göstərir.

[2] Bax: məsələn, Tibb hüququ. Dərs vəsaiti / Mustafazadə A.İ.,Aslanov Z.N. Bakı,"Elm", 2017, s.21; Медицинское право. Курс лекций / Под ред. Л.Н.Плеханова. Новосибирск: Изд-во СибАГС, 2015, с.15 və b.

[1] Bax: məsələn, Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri. Bakı, 2013, s. 64-71.

IV FƏSİL. BEYNƏLXALQ TİBB HÜQUQUNUN PRİNSİPLƏRİ

4.1.Beynəlxalq tibb hüququnun prinsipləri

4.1.1. Beynəlxalq tibb hüququnda tətbiq edilən prinsiplərin sistemi

Hüquq ədəbiyyatı səhifələrində qeyd olunduğu kimi, "prinsip" termini (ingiliscə - principle) [1], mahiyyətcə, çoxaspektli anlayışdır. Azərbaycan dilinin izahlı lüğətində "prinsip" anlayışı müəyyən nəzəriyyənin, təlimin, dünyagörüşünün, əqidənin, elmin və s. konseptual fikirlərin əsas müddəası, çıxış nöqtəsi, müvafiq işdə rəhbər ideya, əsas istiqamət, gözlənilməli şərt kimi izah edilir.[2] Lakin, biz sözügedən anlayışa aşağıda göstərilən **iki əsas mənada** diqqət çəkirik:

- fəlsəfi mənada;
- hüquqi mənada.

Belə ki, **fəlsəfi mənada prinsiplər** anlayışının məna yükü altında hər hansı nəzəriyyənin, konsepsiyanın, təlimin, elmin və dünyagörüşünün əsas çıxış müddəaları başa düşülür.[3] Ayrı-ayrı fərdlərin (individlərin, şəxslərin) öz həyat və fəaliyyətində rəhbər tutduqları əsas başlanğıc ideyalar geniş fəlsəfi mənada "prinsip" terminin məzmununu əhatə edir.

Bizi isə "prinsip" anlayışı fəlsəfi mənada deyil, daha çox hüquqi mənada maraqlandırır. Belə ki, "prinsip" terminin etimologiyasına diqqət yetirsək, həmin terminin "əsas ideya", "başlanğıc müddəa", "rəhbər başlanğıc", "əsas müddəa" və s. mənalar ehtiva etməsini müəyyənləşdirı bilərik.[4] Çoxaspektli və müxtəlif variantlı anlayış olan "prinsip" həm də hüququn obyektiv xarakterli xassəsi olmaqla onun mahiyyəti və sosial təyinatı ilə sıx surətdə bağlıdır. Buna görə o, **hüquqi mənada** da işlədilir. Başqa sözlə, hüquqi mənada prinsip, elə "hüquqi prinsip" adlanır. Hüquqi prinsip isə mütləq bu və ya digər hüquq normasında təsbit olunmalı, öz

[1] Bax: Qarayev R.M. Azərbaycanca-Rusca-İngiliscə hüquq lüğəti (Birinci nəşr). Bakı, "RS" PP, 2013, s.242; Словарь международного права / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. 2-е изд., перераб. и доп. М.: Международные отношения, 1986, с.430.
[2] Bax: Azərbaycan dilinin izahlı lüğəti. II cild / A.Axundovun redaktəsi ilə. Bakı, Çıraq, 1999, s.382.
[3] Bu barədə daha ətraflı bax: məsələn, Советский энциклопедический словарь. М., 1988, с.1061.
[4] Məsələn, bax: Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. М., 1999, с.595; Толковый словарь живого великорусского языка / Изданий В.И.Даля и И.А.Бодуэна де Куртенэ в современном написании. Том 3. М., 2002, с.351 və b.

ifadələnmə formasını tapmalıdır. Bu o deməkdir ki, hüquq norması hüquqi prinsipin **normativ məzmununu** müəyyənləşdirın vasitə kimi çıxış edir. Əgər hər hansı əsas ideyanın məzmunu hüquqi cəhətdən öz əksini müəyyən hüquq normasında taparsa, həmin ideya **"hüquqi prinsip"** hesab olunur.

Deməli, hüquqi prinsip hüquqi mənada prinsipin özü deməkdir və o, mahiyyət etibarilə, bütün hüquqi materiyanı əhatə edir. Məhz hüquqi mənada prinsip anlayışı hüquqi əhəmiyyət kəsb edir. İctimai cəmiyyətdə və ya praktikada ideya, düşüncə yarandıqdan sonra hüquqi prinsipə çevrilir, prinsip isə hüququn inkişaf istiqamətini müəyyən edir.[1]

Beləliklə, **hüquqi mənada prinsiplər**, yəni hüquqi prinsiplər dedikdə hüquqda ifadə olunan, habelə onun məzmununu xarakterizə edən rəhbər başlanğıclar, əsas ideyalar başa düşülür və onlar hüquq sisteminin tərkib hissəsidir.[2]

İstənilən hüquq sistemi üçün, eləcə də onun ibarət olduğu ayrı-ayrı müstəqil hüquq sahələri üçün hüquqi prinsiplər mühüm rola malikdirlər və öz-özlüyündə obyektiv zərurətdən doğan **tənzimləyici funksiyanı** yerinə yetirirlər.

Eyni zamanda, nəzərə alınmalıdır ki, hüquq ədəbiyyatı səhifələrində qeyd edildiyi kimi, hüququn sosial təbiətini və onun inkişaf qanunauyğunluqlarını müəyyən edən ilkin başlanğıclar kimi çıxış edən hüquqi prinsiplər hüquqyaradıcılıq və hüquqtətbiqetmə proseslərində müstəsna dərəcədə **əhəmiyyətli** rol oynayırlar.

Bütövlükdə isə, qeyd etməliyik ki, hüququn prinsiplərinin əhəmiyyəti öz ifadəsini aşağıdakı **müddəalarda** tapır:

a) qanunvericiliyin inkişaf tendensiyasının daha dəqiq müəyyən edilməsi; b) hüquqi aktların mənasının aydın şəkildə dərk edilməsi; c) hüquq normalarının məntiqi ardıcıllıqla sistemləşdirilməsi; ç) hüquq münasibətlərinin

[1] Bax: Лившиц Р.З.Теория права. М. , 1994, с.195-196.
[2] Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М. Ю.Тихомирова. М., 2005, с.671.

stabilliyinin təmin olunması; d) hüquqda boşluqların aradan qaldırılması və s.[1]

Hüquqi prinsiplərin həm də BTH üçün vacib əhəmiyyəti vardır. Belə ki, hüquqi prinsiplər BTH-nin nizamasalma predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsinin əsasını təşkil edir.

Tədqiq etdiyimiz sahədə, yəni BTH sferasında tətbiq edilən hüquqi prinsipləri **üç qrup** üzrə fərqləndirmək olar:

- hüququn ümumi prinsipləri;
- beynəlxalq hüququn əsas prinsipləri;
- beynəlxalq tibb hüququnun xüsusi prinsipləri.

Qeyd etməliyik ki, BTH sferasında tətbiq olunan prinsiplər öz hüquqi təbiətinə görə **üçpilləlidir** (hüququn ümumi prinsipləri, beynəlxalq hüququn əsas prinsipləri, beynəlxalq tibb hüququnun xüsusi prinsipləri). Yuxarı pillədə hüququn ümumi prinsipləri, orta pillədə beynəlxalq hüququn əsas prinsipləri, aşağı pillədə isə beynəlxalq tibb hüququnun xüsusi prinsipləri yerləşir. Göstərilən prinsiplər arasında **iyerarxiya qaydası** mövcuddur. İyerarxiya qaydasına görə, beynəlxalq tibb hüququnun aşağı pillədə duran prinsipləri özündən yuxarı pillədə yerləşən prinsiplərə zidd olmamalı, onlara uyğun gəlməlidir. Belə ki, beynəlxalq tibb hüququnda tətbiq edilən prinsiplərin səviyyəsi onların hüquqi qüvvəsi baxımından eyni deyildir: yuxarı pillədə duran prinsiplərin özündən aşağı pillədə yerləşən prinsiplərə nisbətən daha yüksək hüquqi qüvvəsi vardır. Şərh edilənlər onu göstərir ki, beynəlxalq tibb hüququ öz prinsiplərinin **üçpilləli iyerarxiyası** ilə xarakterizə olunur.

Beynəlxalq tibb hüququnun prinsipləri vahid **sistem halında** birləşərək bir-birilə sıx surətdə əlaqəlidir. Buna görə də, onlar ayrı-ayrılıqda, yəni bir-birindən təcrid edilmiş şəkildə mövcud ola bilməz.

Məlum olduğu kimi, hüququn ümumi prinsipləri BMT Məhkəmə Statutunun

[1] Ətraflı bax: Sağlamlığın qorunması hüququ insan və vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi / Z.N.Aslanov. Bakı: Elm və təhsil, 2019, s.18.

38-ci maddəsində beynəlxalq hüququn **mənbə növlərindən** biri kimi təsbit edilmişdir. Göstərilən maddənin 1(e) bəndində nəzərdə tutulmuşdur ki, məhkəmələr işləri həll edərkən "sivil millətlər tərəfindən tanınmış hüququn ümumi prinsiplərinə" istinad edə bilərlər.[1]

Hüququn ümumi prinsipləri dedikdə beynəlxalq hüququn, eləcə də milli hüququn məzmununu xarakterizə edən, hər iki hüquq sisteminin hüquqi təbiətini əks etdirən və onlar üçün ümumi olan rəhbər başlanğıclar, əsas ideyalar başa düşülür. Eyni zamanda, qeyd etməliyik ki, hüququn ümumi prinsipləri vacib göstərişlər kimi Roma hüququnda yaranmış və sonralar tədricən inkişaf etmişdir. Müasir dövrdə həmin prinsiplər **"hüquqi aksioma"** [2] kimi qəbul olunmuşdur. Belə göstərişlərə aşağıdakılar aiddir:

- "audiatur et altera pars" ("qoy qarşı tərəf də dinlənilsin");

- "res judicata" ("məhkəmə tərəfindən qəti olaraq həll edilən işə həmin məhkəmə yenidən baxa bilməz");

- "lex prospicit non respicit" ("qanunun geriyə qüvvəsi yoxdur");

- "non bis in idem" ("təkrarən məsuliyyətə cəlb olunmaq qadağandır");

- "nullum crimen sine lege" ["qanunla tanınmayan (hesab edilməyən) cinayət yoxdur"] və s.[3]

Əgər **rəhbər başlanğıclar və əsas ideyalar** həm beynəlxalq hüquq, həm də milli hüquq hüquq üçün ümumi olarsa, onda onlar hüququn ümumi prinsipləri kimi qəbul edilir. Yalnız dövlətdaxili (milli) hüquqa xas olan və burada hüquqi cəhətdən möhkəmləndirilən ümumi hüquq prinsiplərinin mövcudluğu onu ifadə etmir ki, bununla onlar həm də beynəlxalq hüquqda ümumi prinsiplər sayılır. Lakin, bundan ötrü onlar ya beynəlxalq müqavilə, ya da beynəlxalq-hüquqi adətlər vasitəsilə beynəlxalq hüquqa daxil edilməlidir.[4]

[1] Bu barədə даща ятрафлы bax: Cheng B. General principles of law as applicd by International Courts and Tribunals. London , 1953.
[2] Bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.670.
[3] Бу барядя ятрафлы бах: Новитски И.Б. Рома щцгугу. Дярслик. Азярбайъан дилиня тяръцмя / Мясул редактор: И.А.Исмайылов. Бакы, 1999, 224 с.
[4] Курс международного права. Том 1 / Гл. ред. В.Н.Кудрявцев. М., 1989, с. 210.

Beləliklə, qeyd edə bilərik ki, hüququn ümumi prinsipləri beynəlxalq hüquqda (beynəlxalq müqavilələrdə) və milli hüquqda (dövlətdaxili qanunvericilikdə) hüquqi cəhətdən möhkəmləndirilən, təsbit olunan prisiplərdir.[1] Məsələn, hüququn ümumi prinsipləri sırasında **aşağıdakıları** göstərə bilərik: sosial ədalət prinsipi, humanizm prinsipi, hüquq bərabərliyi prinsipi, etbar etmək prinsipi, müqaviləyə riayət etmək prinsipi, hüquq və vəzifələrin vəhdəti prinsipi, insan hüquqlarına hörmət etmək prinsipi, qanunçuluq prinsipi və s.[2] **Vicdanlı olmaq prinsipi** də (bona fise) hüququn ümumi prinsipləri cərgəsinə daxildir.[3] Bu prinsip, demək olar ki, beynəlxalq münasibətlər sisteminin bütün strukturuna nüfuz edən prinsip kimi tanınır.[4] Ona görə də, həmin prinsip hüququn ümumi prinsipləri sektorunda əsas və ən geniş tanınan prinsiplərdən biri kimi qəbul edlir.

Eyni zamanda, qeyd etməliyik ki, yuxarıda göstərilənlər hüququn ümumi prinsiplərinin hamısını əhatə etmir, yəni verdiyimiz siyahı qəti və dəqiq xarakterə malik deyildir. Məsələ bundadır ki, hüququn ümumi prinsipləri həm forma cəhətdən, həm də məzmun baxımından, kifayət qədər müxtəlifdir. Bu səbəbdən də onların qəti və dəqiq siyahısını **formulə etmək** qeyri-mümkündür. Hüququn ümumi prinsiplərinin böyük əhəmiyyəti vardır: birinci, həmin prinsiplərdən həm beynəlxalq hüquq, həm də milli hüquq normaları tətbiq edilən zaman istifadə olunur; ikinci, hüququn ümumi prinsipləri həm milli, həm də beynəlxalq hüquqda bu və ya digər hüquq normasının təfsiri üçün tətbiq olunur.[5] Bu mövqeyi eynilə BTH sferasında mövcud olan hüquq normaları üçün də sərgiləmək mümkündür. Belə ki, hüququn ümumi prinsiplərindən **beynəlxalq tibb münasibətlərində** hüquq normalarının tətbiqi və təfsiri prosesində də istifadə edilir.[6] Hüququn ümumi prinsiplərinin BTH sahəsində tətbiqinin rolu və əhəmiyyəti

[1] O'Brien J. International Law. London, Sijdney, 2001, p.90.
[2] Bax: Əsgərov Z.A. Konstitusuya hüququ. Dərslik . Bakı , Bakı Universiteti nəşriyyatı, 2011, s.121.
[3] Ətraflı bax: Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.25.
[4] Rosenstock R. The Declaration of Principles of International Law. Concerniny Frendly Relations: A.Survey // American Journal of International Law, Vol. 65, 1971, № 3, p.734.
[5] Ətraflı bax: Курс международного права. Том 1 / Гл. ред. В.Н.Кудрявцев. М., 1989, с.210-211.
[6] Bax: Mustafazadə A.İ., Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. Bakı,"Elm", 2017, s.25.

də məhz bundan ibarətdir. Deməli, bu prinsiplər nəinki beynəlxalq hüquqda, həmçinin beynəlxalq tibb hüququnda tətbiq edilir.

BTH üçün həm də **beynəlxalq hüququn əsas prinsiplərinin** vacib əhəmiyyəti vardır. Belə ki, sözügedən prinsiplər, eyni zamanda, beynəlxalq tibb-hüquq münasibətlərinin nizama salınması işində mühüm rol oynayır.

4.1.2.Beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq tibb hüququnda tətbiqi

Əvvəllərdə qeyd etdiyimiz kimi, BTH beynəlxalq hüququn tərkibində öz statusuna görə beynəlxalq insan haqları hüququnun yarımsahələrindən biridir. Buna görə də, **beynəlxalq hüququn əsas prinsipləri** BTH sferasında da tətbiq olunur. Həmin prinsiplər adıçəkilən hüquq sferasında beynəlxalq tibb-hüquq münasibətlərinin tənzimlənməsində vacib rol oynayır və bu əlamət BTH üçün xarakterik cəhətdir.

Beynəlxalq hüququn əsas prinsiplərinin BTH sferasında vacib rol ounamaları əlaməti özünü **üç əsas formada** biruzə verir. Belə ki, **birinci,** məlum olduğu kimi, hər bir hüquq sahəsinin, o cümlədən BTH qurumunun özünəməxsus məqsədləri vardır. Bu o deməkdir ki, BTH-nin qarşısında konkret **məqsədlər** durur: məsələn, ömumi səlahiyyətli beynəlxalq təşkilatlarda, tibb fəaliyyəti ilə bağlı beynəlxalq hərəkat və tədbirlərdə iştirak etmək, habelə ÜST, BHTK və digər qurumlarla, o cümlədən onların milli və regional strukturları ilə qarşılıqlı əlaqələrin yaradılması; beynəlxalq tibb münasibətlərində dövlətlərin, milli səhiyyə təşkilatlarının, tibb müəssisələrinin, həkimlərin və digər milli subyektlərin fəaliyyəti; əczaçılıq fəaliyyəti, bioetika münasibətləri, tibbi xidmətlərin ixracı; tibbi fəaliyyət sahəsində məsuliyyət və cinayətkarlığa qarşı mübarizə aparılmasında beynəlxalq əməkdaşlıq və s. Göstərilən məqsədlərə **nail olunması** isə BTH sahəsində beynəlxalq hüququn əsas prinsiplərinin istifadə edilməsini zəruri edir, çünki əks halda BTH qarşısına qoyulan məqsədlərə çata bilməz. **İkinci**, beynəlxalq hüququn,

praktiki olaraq, bütün əsas prinsipləri iqtisadi məzmuna malikdir.[1] Belə ki, beynəlxalq hüququn hər bir əsas prinsipində bu və ya digər dərəcədə **iqtisadi element** vardır. Məhz bu səbəbdən BTH-nin nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq iqtisadi-tibb münasibətlərində həm də, eyni zamanda, beynəlxalq hüququn əsas prinsipləri tətbiq edilir. Bu o deməkdir ki, onlar həmin münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsində iştirak edir. Buna görə də, beynəlxalq tibb münasibətlərini hüquqi tənzimetmə mexanizminə hüququn ümumi prinsipləri ilə yanaşı, beynəlxalq hüququn əsas prinsipləri də daxil olur. Həmçinin beynəlxalq tibb hüquq münasibətlərinin nizama salınması işində beynəlxalq hüququn müstəqil sahəsi olan beynəlxalq insan haqları hüququnun insan və vətəndaşların **konstitusion hüquq** xarakterli prinsip və müddəaları da yer alır.[2] Odur ki, dövlətlərarası beynəlxalq tibb münasibətlərinin tənzimlənməsində həmin prinsiplər vacib əhəmiyyət kəsb edir. Nəhayət, **üçüncü**, beynəlxalq hüququn əsas prinsipləri BTH-nin xüsusi prinsiplərinin **formalaşmasında** mühüm rol oynayır. Belə ki, beynəlxalq tibb hüququ sferasında xüsusi prinsiplər məhz beynəlxalq hüququn başlıca prinsipləri əsasında formulə edilir.

Qeyd etməliyik ki, ədəbiyyat səhifələrində göstərildiyi kimi, **beynəlxalq hüququn əsas prinsipləri** dedikdə beynəlxalq hüququn başlıca məzmununu müəyyənləşdirən və onun tənzimetmə predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərin bütün sahələrində tətbiq edilən prinsiplər başa düşülür.[3] Bəzi müəlliflər beynəlxalq hüququn əsas prinsiplərini ifadə etmək üçün **"jus cogens" prinsipləri** kimi termin işlədirlər.[4] Beynəlxalq hüquq lüğətlərinə görə "jus cogens" imperativ hüquq norması sayılır [5] və bu norma, hətta, dövlətlərin razılığı ilə də dəyişdirilə bilməz.

---

[1] Bax: Международное право. Учебник / Отв. ред. А.А. Ковалев, С.В.Черниченко. М., 2008, с.441.
[2] Bu məsələlərə toxunulur: məsələn, Aslanov Z.N. Sağlamlığın qorunması hüququ insan və vətəndaşların əsas konstitusion hüquqlarından biri kimi / Z.N.Aslanov.Bakı: Elm və təhsil, 2019, 182 s.

[3] Beynəlxalq hüququn əsas prinsipləri və onların xarakteristikası barədə ətraflı bax: Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə.I cild.Ümumi hissə. Bakı,2018, s.317-461.
[4] Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 47.
[5] Bax: Словарь международного права. Изд. 2-е, перераб. и доп. / Бацанов С.Б., Ефимов Г.К., Кузнецов В.И. и др. М., «Международные отношения» , 1986, с.428.

Beynəlxalq hüququn əsas prinsiplərinin öz əksini aşağıdakı **sənədlərdə** tapmışdır: BMT-nin Nizamnaməsi (1945-ci il), Beynəlxalq hüququn dövlətlərarası münasibətlərə və əməkdaşlığa aid prinsipləri haqqında Bəyannamə (1970-ci il), Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Helsinki müşavirəsinin Yekun Aktı (1975-ci il) və s.

Hesab edirik ki, beynəlxalq hüququn əsas prinsiplərinin BTH üçün də **vacib əhəmiyyəti** vardır. Belə ki, beynəlxalq hüququn əsas prinsipləri bilavasitə beynəlxalq tibb münasibətlərini nizamasalma mexanizminə daxildir. Lakin, qeyd olunmalıdır ki, onlar BTH-nin tənzimetmə predmetinə aid olan müvafiq münasibətlərin nizama salınması prosesində eyni cür iştirak etmirlər. Başqa sözlə ifadə etsək, beynəlxalq tibb münasibətlərinin tənzimlənməsində beynəlxalq hüququn əsas prinsiplərinin əhəmiyyəti və rolu eyni deyildir; bu prosesdə həmin prinsiplərin bəziləri az, digərləri isə daha çox rol oynayır.

Beynəlxalq hüququn əsas prinsipləri sırasında BTH üçün daha aktual olan və xüsusi əhəmiyyət kəsb edən **aşağıdakı prinsipləri** fərqləndirmək mümkündür:

-əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi;

-dövlətlərin suveren bərabərliyi prinsipi;

-güc tətbiq etməmək prinsipi;

- dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi;

- dövlətlərin dinc yaşamaları prinsipi;

-beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi;

- dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi;

- beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi;

-diskriminasiyaya yol verilməməsi prinsipi.

Yuxarıda sadalanan prinsiplər vasitəsilə, qeyd etməliyik ki, **beynəlxalq tibb fəaliyyəti sferasında** dövlətlərarası əməkdaşlıq təmin olunur. Buna görə də, onlar BTH üçün birinci dərəcəli əhəmiyyət kəsb edirlər.

İstənilən fəaliyyət prosesində olduğu kimi, beynəlxalq tibb fəaliyyəti hərəkatında da **əsas insan hüquq və azadlıqlarına hörmət etmək prinsipi** vacib üstün prinsip olaraq, hamılıqla qəbul olunmuş beynəlxalq standartlara riayət

edilməsini nəzərdə tutur. Bu prinsipə müvafiq olaraq, dünyada tibb fəaliyyəti həyata keçirilərkən dövlətlər insan hüquqlarını təmin etməyə borcludurlar. Göstətilən prinsip öz normativ ifadəsini İnsan hüquqları haqqında Ümumi Bəyannamədə (1948-ci il), eləcə də Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda (1966-cı il), Əsas insan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında (1950-ci il), Yeni Avropa üçün Paris Xartiyasında (1990-cı il) və digər sənədlərdə tapmışdır.

Dövlətlərin suveren bərabərliyi prinsipinə görə, bütün xalqlar öz siyasi-iqtisadi, sosial-mədəni sistemini seçmək, o cümlədən ətraf mühit və sağlamlığının qorunması sahəsində fiziki cəhətdən sərbəst şəkildə inkişaf etmək hüququna malikdir. Sözügedən prinsip həm də bunda ifadə olunur ki, bütün dövlətlər öz əmlakı, resursları (məsələn, tibbi infrastruktur obyektləri) üzərində suveren hüquqlara malikdirlər.

Güc tətbiq etməmək və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri tibb fəaliyyəti sahəsində öz əksini bunda tapmışdır ki, dövlətlərin sosial-iqtisadi əsaslarına və onların səhiyyə-tibb sahəsində həyata keçirdiyi sərbəst siyasətə qarşı yönələn hər cür müdaxilə qadağandır. Belə ki, güc tətbiq etmək və dövlətlərin daxili işlərinə qarışmaq, nəticə etibarilə, dövlətlərarası beynəlxalq tibb münasibətlərinin normal inkişaf proseslərinə mane olur. **Dövlətlərin dinc yaşamaları prinsipinə** görə, sosial-iqtisadi cəhətdən əmin-amanlığa, tibb fəaliyyəti sahəsində sabitliyə, tərəqqiyə, yüksəliş və dinamik inkişafa nail olmaq məqsədilə bütün dövlətlər bir-biri ilə normal beynəlxalq tibb münasibətlərinə daxil olmalı, öz aralarındakı əlaqəni ədalətli və demokratik əsaslara uyğun qurmalıdırlar. Belə şərait təmin olunmadıqda, yəni əks halda beynəlxalq tibb fəaliyyəti sferasında təhlükəsizliyin təmin edilməsi müşkül məsələyə çevrilə bilər.

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi, mahiyyətcə, həm də beynəlxalq səhiyyə-tibb müqavilələrindən irəli gələn beynəlxalq öhdəliklərin lazımınca yerinə yetirilməsini, yəni yetərincə icra edilməsini şərtləndirir. Belə ki, bütün dövlətlər iştirakçısı olduğu beynəlxalq

səhiyyə-tibb müqavilələrindən yaranan beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməli, hər hansı pozuntu hallarına yol verməməlidirlər.

Dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipinə əsasən, bütün dövlətlər beynəlxalq aləmdə nəinki siyasi, mədəni, elmi, humanitar və digər istiqamətlərdə, həmçinin tibbi fəaliyyət sferasında əməkdaşlıq etməlidirlər. Belə ki, bu cür əməkdaşlıq olmadan dövlətlərarası beynəlxalq tibb münasibətlərinin normal və səmərəli inkişafı, habelə stabil dostluq və xidməti əlaqələrin möhkəmləndirilməsi qeyri-mümkündür.

Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi həm də bunu ifadə edir ki, beynəlxalq tibb münasibətlərindən yaranan bütün mübahisələr, yəni beynəlxalq tibb mübahisələri yalnız sivil beynəlxalq-hüquqi vasitə və metodların köməyi ilə tənzimlənməlidir. Belə beynəlxalq tibb mübahisələrinin zor işlətmə, güc tətbiqetmə və digər qeyri-dinc üsullarla həll edilməsi yolverilməzdir, qadağandır.

Diskriminasiyaya yol verilməməsi prinsipi də beynəlxalq tibb fəaliyyəti sferasında tətbiq edilir. Belə ki, bu prinsipə görə, beynəlxalq tibb münasibətləri sahəsində dövlətlərin hüquqlarının tapdalanması və ayrı-seçkiliyə yol verilməsi halları qadağandır. Sözügedən prinsip tibb fəaliyyəti sferasında dövlətlərarası beynəlxalq münasibətlər praktikasından istənilən formada diskriminasiya hallarının aradan qaldırılmasını ehtiva edir.

4.2. Beynəlxalq tibb hüququnun xüsusi prinsipləri

4.2.1.Beynəlxalq tibb hüququnun xüsusi prinsiplərinin anlayışı

Qeyd etmək lazımdır ki, BTH-nin tənzimləmə predmetinə daxil olan beynəlxalq tibb münasibətlərinin nizama salınmasında həm də onun **xüsusi prinsipləri** iştirak edir. Belə ki, göstərilən münasibətləri hüquqi tənzimetmə mexanizminin komponentlərinə hüququn ümumi və beynəlxalq hüququn əsas prinsipləri ilə yanaşı, beynəlxalq tibb münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsinin xüsusi prinsipləri də aiddir. Eyni zamanda, xüsusi prinsiplər beynəlxalq tibb münasibətlərini hüquqi kontekstdə tənzimləmənin əsası kimi çıxış edir. Bu səbəbdən BTH-nin xüsusi prinsiplərinin beynəlxalq tibb münasibətlərinə,

praktiki olaraq, tətbiqi üstünlük təşkil edir.

Beynəlxalq tibb hüququnun xüsusi prinsipləri dedikdə beynəlxalq hüququn yalnız sözügedən bu struktur tərkib hissəsinə xas olan və beynəlxalq tibb münasibətlərini hüquqi tənzimləmənin əsas və rəhbər başlanğıcları başa düşülür.

BTH-nin xüsusi prinsipləri **əsas ideyalar** olmaqla, onun **məzmununu** xarakterizə edir. Bu prinsiplər BTH-nin mahiyyətini və **sosial təyinatını** ifadə edir. Həmçinin sözügedən hüquqi qurumun başlıca əlamət və xüsusiyyətləri öz əksini məhz həmin prinsiplərdə tapır, eləcə də onların köməyi və vasitəsilə BTH özünəməxsus **funksiyalarını** yerinə yetirir.

BTH-nin ən xarakterik cəhət və əlamətləri onun xüsusi prinsiplərində ifadə edilir. Eyni zamanda, BTH-nin **hüquqi təbiəti** də həmin prinsiplərlə müəyyənləşdirilir. Beynəlxalq tibb hüququnun subyektləri bu prinsiplərə əsaslanaraq və onları rəhbər tutaraq həm öz müvafiq funksiyalarını yerinə yetirirlər, həm də məqsədyönlü xarici tibb siyasətini həyata keçirirlər. Artıq müasir dövrdə xüsusi prinsiplər BTH-nin tərkibinə daxil olan bütün hüquq normalarına sirayət və nüfuz etmişdir. Buna görə də, qeyd edə bilərik ki, xüsusi prinsiplər beynəlxalq tibb münasibətləri **sisteminin** özəyi, təməli və bünövrəsi sayılır. Göründüyü kimi, BTH-nin xüsusi prinsipləri həmin münasibətlərin tənzimlənməsi və beynəlxalq-hüquqi təcrübə üçün mühüm **praktik əhəmiyyətə** malikdir. Bax, elə bu səbəbdən, beynəlxalq tibb münasibətləri praktikasında konkret məsələ həll edilərkən, ilk növbədə, BTH-nin xüsusi prinsiplərinə istinad edərək, onları əldə rəhbər tutmaq lazımdır. Həmçinin nəzərə almaq vacibdir ki, göstərilən prinsiplər BTH normalarının beynəlxalq tibb münasibətləri praktikasında düzgün tətbiq olunması, eləcə də adekvat və qanunauyğun qərarlar qəbul edilməsi üçün **zəruri əsas** sayılır. BTH-nin xüsusi prinsipləri ona görə **"xüsusi"** adlanır ki, həmin prinsiplər yalnız "beynəlxalq tibb hüququ" kimi qurumun məzmununu xarakterizə edir. Buna görə də, onlar, mahiyyətcə, beynəlxalq tibb hüququnun xüsusi prinsipləri hesab olunur. Belə ki, həmin prinsiplər beynəlxalq münasibətlərin bütün sferalarında deyil, ancaq bu münasibətlərin konkret qrup vektorunda - beynəlxalq tibb münasibətləri sahəsində tətbiq edilir. Təbii ki, bu prinsiplər beynəlxalq hüququn əsas prinsiplərinə

münasibətdə "xüsusi prinsiplər" kimi tanınır və xüsusi olaraq, yalnız beynəlxalq tibb hüququ üçün **formalaşmış** və nəzərdə tutulmuşdur.

BTH-nin hansı xüsusi prinsiplərdən ibarət olması məsələsinə gəldikdə, qeyd etməliyik ki, hüquqi prinsiplər **ideoloji kateqoriya** sayılır. Bu o deməkdir ki, hüquqi prinsiplər onları formulə edən alimlərin subyektiv baxışlarını deyil, **obyektiv qanunauyğunluğu** və gerçəkliyi əks etdirməlidir. Digər tərəfdən, BTH-nin xüsusi prinsipləri hüquqi cəhətdən bilavasitə beynəlxalq müqavilələrdə möhkəmləndirilməli və təsbit olunmalıdır; çünki beynəlxalq müqavilələr BTH-nin əsas və başlıca mənbə növüdür. Həmin prinsiplər, eyni zamanda, beynəlxalq tibb hüququnun öz mahiyyətindən və ya onun şərh, təfsir və izahından irəli gəlir. Bu baxımdan, BTH-nin xüsusi prinsiplərini **iki növ** üzrə fərqləndirmək mümkündür:

- konvension prinsiplər;
- qeyri-konvension prinsiplər.

Beynəlxalq tibb hüququnun konvension prinsipləri dedikdə dövlətlər arasında bağlanan beynəlxalq tibb müqavilələrində müəyyənləşdirilən və hüquqi cəhətdən təsbit edilən prinsiplər başa düşülür. Belə ki, yalnız beynəlxalq tibb müqavilələrinə daxil edildikdə, yəni beynəlxalq müqavilələrdə hüquqi cəhətdən möhkəmləndirildikdə bu növ prinsiplər **məcburi hüquqi qüvvəyə** malik olur. Təbii ki, əgər konvension prinsiplər beynəlxalq tibb müqavilələrində təsbit edilməzsə, onda həmin prinsiplərin məcburi hüquqi qüvvəsi olmayacaqdır. Buna görə də, konvension prinsiplərin məcburi hüquqi qüvvəyə malik olması hər bir konkret halda bu şərtlə mümkün ola bilər ki, onlar müvafiq beynəlxalq tibb müqaviləsində hüquqi cəhətdən möhkəmləndirilsin və təsbit edilsin. Bu kontekstdə onlar **müqavilə prinsipləri** kimi də adlanır.

BTH-nin konvension prinsipləri sırasında **aşağıda göstərilən** prinsipləri fərqləndirmək mümkün sayılır:

- tibb fəaliyyəti sahəsində milli rejim prinsipi;
- tibb fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi;
- tibb fəaliyyəti sferasında preferensiya rejimi prinsipi.

Beynəlxalq tibb hüququnun qeyri-konvension prinsipləri dedikdə BTH-nin öz mahiyyətindən, eləcə də onların şərh, təfsir və izahından irəli gələn prinsiplər başa düşülür. Bax, elə BTH-nin öz mahiyyətindən, yaxud şərhindən (kommentariyasından) irəli gəldiyinə görə həmin prinsiplərin **məcburi hüquqi qüvvəsi** vardır. Qeyd etməliyik ki, məcburi hüquqi qüvvəyə malik olmaqdan ötrü onların beynəlxalq tibb müqavilələrində hüquqi cəhətdən möhkəmləndirilməsi və təsbit olunması tələb edimir. Göstərilən prinsiplər **kateqoriyasına** aşağıdakılar aiddir:

- tibb fəaliyyəti sahəsində diskriminasiyaya yol verilməməsi prinsipi ;

-səhiyyə-tibb fəaliyyəti sferasında dövlətlərin bir-biri ilə qarşılıqlı əməkdaşlıq etməsi prinsipi;

- dövlətlərin öz tibb resursları üzərində suverenliyi prinsipi;

- tibb fəaliyyəti ilə bağlı münasibətlərdə qarşılıqlı fayda prinsipi.

Beynəlxalq tibb hüququnun yuxarıda göstərilən xüsusi prinsiplərdən bəzilərinə dair qısaca hüquqi xarakteristika və informasiya verək.

4.2.2. Tibb fəaliyyəti sahəsində milli rejim prinsipi

Qeyd etməliyik ki, beynəlxalq hüquq ədəbiyyatı səhifələrində milli rejim prinsipi (national treatment) təsbit olunmuşdur ki,[1] onu, faktiki cəhətdən, həm də BTH-nin xüsusi prinsipləri sırasına aid etmək mümkündür. Müasir dövrdə bu prinsipin beynəlxalq tibb münasibətləri praktikasında **effektiv rolu** və əhəmiyyəti durmadan artır. Belə ki, beynəlxalq tibb fəaliyyətinin həyata keçirilməsi və bununla bağlı yaranan dövlətlərarası münasibətlərin nizama salınması işində adıçəkilən prinsipin **tətbiq edilməsi**, xüsusilə, vacib məsələdir.

Eyni zamanda, Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüququ da milli rejim prinsipini müəyyənləşdirir. Sözügedən prinsip **mülki fəaliyyət sahəsində** (mülkiyyət münasibətləri, tibb fəaliyyəti, müqavilə

[1] Бах: Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.391-392; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.512; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М.,2008, с.447-448 вя с.

münasibətləri, əmək və digər sferada) tətbiq edilir. Beynəlxalq xüsusi (mülki) hüquqda milli rejim prinsipinə görə, xarici fiziki və hüquqi şəxslər müəyyən bir dövlətin ərazisində həmin dövlətin fiziki və hüquqi şəxsləri ilə bərabər surətdə bütün hüquqlardan,[1] o cümlədən tibb fəaliyyəti sferasında mülki hüquq qabiliyyətindən, mülki fəaliyyət qabiliyyətindən və s. hüquqlardan istifadə edə bilərlər.

BTH sferasına gəldikdə isə, qeyd etməliyik ki, burada tibb fəaliyyəti sahəsində **milli rejim prinsipinin** tətbiq edilməsindən danışmaq olar. Belə ki, BTH-də həmin prinsipin dövlətlərarası beynəlxalq tibb fəaliyyətinin həyata keçirilməsi (bioetika, müasir müalicə metodları, əczaçılıq, tibbi klasterlər, tibbi elmi tədqiqatlar və digər istiqamətlər üzrə) işində tətbiq edilməsi mümkündür. **Beynəlxalq tibb fəaliyyəti sahəsində milli rejim prinsipinə** görə, xarici şəxslər (fiziki və hüquqi şəxslər) müəyyən dövlətin ərazisində tibb fəaliyyəti ilə bağlı hüquqlardan (tibbi hüquqlardan) həmin dövlətin şəxsləri (fiziki və hüquqi şəxsləri) ilə bərabər surətdə istifadə edirlər.

Milli rejim prinsipi əsasında **xarici şəxslər** bu və ya digər dövlətin ərazisində tibb fəaliyyəti sahəsində müəyyən hüquqlara malik olmaqla, həmin dövlətin şəxsləri ilə eyniləşdirilir, yəni bir bərabərdə tutulur. Əgər tibb fəaliyyətinin həyata keçirilməsi sahəsində müəyyən hüquqlara malik olmaqda xarici şəxslər yerli (milli) şəxslərlə bərabərləşdirilirsə, bu, milli rejim prinsipinin **müəyyənləşdirilməsini** ifadə edir. Milli rejim prinsipi dövlətin üzərinə belə bir **vəzifə** qoyur ki, o, öz ərazisində tibb fəaliyyətinin müəyyən sahəsində milli şəxslərini təmin etdiyi eyni şərtləri xarici şəxslər üçün də müəyyənləşdirilməlidir. Bu o deməkdir ki, dövlət milli şəxsləri üçün hansı şərtlər müəyyənləşdirərsə, xarici şəxsləri də belə şərtlərlə təmin etməlidir. Tibb fəaliyyətinin həyata keçirilməsi sahəsində Azərbaycan Respublikasının digər xarici ölkələrlə bağladığı müəyyən qrup **beynəlxalq əməkdaşlıq müqavilələri** məhz milli rejim prinsipi ruhundan çıxış edir. Sözügedən prinsip Avropa regionu və inkişaf

[1] Бах: məsələn, Аллащвердийев С.С. Азярбайъан Республикасынын бейнялхалг хцсуси (мцлки) щцгуг курсу. Дярслик.II nəşr. Bakı, 2021, c.215-216.

etməkdə olan digər ölkələr arasındakı tibb-müqavilə münasibətləri praktikasında geniş surətdə tətbiq edilir.

Həmçinin qeyd etməliyik ki, milli rejim prinsipinin BTH sahəsində **tətbiq sferası**, adətən, beynəlxalq tibb müqavilələri əsasında təyin olunur. Lakin, eyni zamanda, həmin prinsipin tibb fəaliyyətinin hansı istiqamətlərində tətbiq edilməsi məsələsi dövlətin milli qanunvericiliyi ilə də tənzimlənir.

4.2.3.Tibb fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi

Tibb fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipi, bir qayda olaraq, beynəlxalq tibb münasibətləri sferasında tətbiq edilir ki, bu münasibətlərin nizama salınması işində sözügedən prinsip **mühüm rol** oynayır. Elə bu səbəbdən də, ən əlverişli şərait yaratmaq prinsipi BTH-nin xüsusi prinsipləri sırasında yer alır. Belə ki, ən əlverişli şərait yaratmaq prinsipi tarixən dövlətlərarası tibb münasibətləri işinin liberallaşdırılmasını təmin edən effektiv **hüquqi vasitə** kimi çıxış etmişdir və müasir dövrdə həmin prinsip artıq beynəlxalq tibb hüququnun mərkəzi prinsipi kimi dəyərləndirilir. **Tibb fəaliyyətində ən əlverişli şərait yaratmaq prinsipinə** görə, beynəlxalq müqavilə tərəfi olan dövlət digər tərəfi (dövləti) tibb fəaliyyəti sahəsində elə əlverişli şərtlərlə təmin edir ki, bu şərtlərdən istənilən üçüncü dövlət istifadə edir. Əgər beynəlxalq müqavilə tərəfi olan dövlət digər dövləti – həmin müqavilənin qarşı tərəfini üçüncü dövlətlərin istifadə etdikləri və yaxud gələcəkdə istifadə edə biləcəkləri **əlverişli şəraitlə** (hüquq, imtiyaz, güzəşt və üstünlüklərlə) təmin edərsə, belə hal, necə deyərlər, ən əlverişli şərait yaratmaq prinsipinin müəyyənləşdirilməsini ifadə edir.

Lakin, qeyd etməliyik ki, özlüyündə ən əlverişli şərait yaratmaq prinsipi məcburi hüquqi qüvvəyə malik deyildir. Adıçəkilən prinsipin məcburi hüquqi qüvvəyə malik olması üçün dövlətlər arasında bağlanan beynəlxalq tibb müqaviləsinə əlverişli şərait yaratmaq haqqında xüsusi konkret qeyd daxil edilməsi tələb olunur. Belə qeyd **klauzula** (latınca - clausula, ingiliscə - clause,clausula, almanca - Klausel, fransızca - clause, ispanca -

clausula) adlanır.[1] Klauzula beynəlxalq tibb müqaviləsinə xüsusi olaraq daxil edilən elə bir qeyddir ki, bu qeyd beynəlxalq müqavilə bağlayan dövlətlərin razılığa gəldikləri tibb fəaliyyəti sahəsində ən əlverişli şərait yaratmaq prinsipinin tətbiq edilməsini şərtləndirir. Belə qeyd olmadığı təqdirdə həmin prinsipin məcburi hüquqi qüvvəsi olmur və buna görə də, o, tənzimləmək məqsədilə beynəlxalq tibb münasibətlərinə tətbiq edilə bilməz.

Xüsusi qeyd, yəni klauzula **iki formada** mövcud olur:

- birtərəfli klauzula;
- ikitərəfli klauzula.

Birtərəfli klauzula yalnız bir dövlət tərəfindən tibb fəaliyyəti sferasında ən əlverişli şərait yaratmaq prinsipinin birtərəfli qaydada müəyyənləşdirilməsini ifadə edir. Bu formada olan klauzula, adətən, "qarşılıqlı olma" kimi xüsusiyyətdən məhrumdur. Ona görə də, beynəlxalq-tibb müqavilə praktikasında bu növ klauzulaya nadir hallarda rast gəlinir.

İkitərəfli klauzula isə dövlətlər tərəfindən tibb fəaliyyəti sferasında qarşılıqlı surətdə bir-biri üçün ən əlverişli şərait yaratmaq prinsipinin müəyyənləşdirilməsini nəzərdə tutur. Belə formada tərtib edilən klauzula dövlətlərin maraq və mənafeyinə uyğun gəldiyi üçün daha çox üstünlük təşkil edir. Belə ki, tətbiq edilən klauzulaların əksəriyyəti məhz ikitərəfli klauzuladan ibarətdir.

Beynəlxalq tibb müqaviləsinə ən əlverişli şərait yaratmaq haqqında daxil edilmiş xüsusi qeyd (klauzula), eyni zamanda, sözügedən prinsipin tətbiq olunduğu **konkret sahəni** müəyyənləşdirir. Bu, onu ehtiva edir ki, həmin xüsusi qeyd əsasında ən əlverişli şərait yaratmaq prinsipinin tətbiq edildiyi konkret tibb sahəsinin, yəni dövlətlərarası qarşılıqlı tibb münasibətlərinin bu və ya digər sferasını müəyyənləşdirmək mümkün olur. Buna görə də, bu xüsusi qeyd həmin prinsipin tətbiqini konkretləşdirən **müqavilə forması** sayılır.

Ən əlverişli şərait yaratmaq prinsipi, bir qayda olaraq, beynəlxalq ticarət münasibətlərinin, yəni mal-materiallara dair idxal və ixrac əməliyyatlarının

[1] Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.406.

tənzimlənməsi işlərində tətbiq edilir.[1] Eyni zamanda, həmin prinsipdən beynəlxalq iqtisadi münasibətlərin ayrı-ayrı sahələrinin nizama salınmasında istifadə olunur.[2] Təbii ki, belə sahələrdən biri də **tibb fəaliyyətinin** həyata keçirilməsi üçün zəruri avadanlıq, ləvazimat, dərman və s. vasitələrin idxal-ixracı üzrə fəaliyyət sferası sayılır.

Qeyd etməliyik ki, ən əlverişli şərait yaratmaq prinsipi, adətən, **ikitərəfli** beynəlxalq müqavilələr vasitəsi ilə müəyyən olunur. Lakin bu prinsipdən həmçinin **çoxtərəfli** müqavilələr də çıxış edə bilər. Misal üçün, QATT-1994 ən əlverişli şərait yaratmaq prinsipini müəyyənləşdir ki (maddə 1), bu akt ÜTT-nin hüquqi bazasını təşkil edən sənədlərdən biridir. Buna görə də, sözügedən prinsip adıçəkilən təşkilata üzv olan bütün dövlətlərin xarici iqtisadi fəaliyyət sferasında tətbiq edilir.

4.2.4.Tibb münasibətlərində qarşılıqlı fayda prinsipi

Müasir dövrün hüquq doktrinasında qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipi kimi tanınır. Bu, onunla əlaqədardır ki, beynəlxalq münasibətlərin və dövlətlərarası əməkdaşlığın həyata keçirilməsi əsasında, zəminində **qarşılıqlı fayda** amili dayanır. Başqa sözlə, beynəlxalq münasibətlərin və dövlətlərarası əməkdaşlığın realizasiyası qarşılıqlı fayda əsasında həyata keçirilir. Bu amili diqqətə çəkərək, müasir dövrün alimləri (məsələn, M.M.Boquslavski [3] və b.) qarşılıqlı fayda prinsipinə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş, ümumtanınmış prinsipi kimi yanaşmışdır. Sözügedən prinsip, demək olar ki, **beynəlxalq münasibətlər praktikasında** bütün sahələrdə tətbiq edilir. Eyni zamanda, qeyd etməliyik ki, bu prinsip dövlətlərarası əməkdaşlığın, o cümlədən **beynəlxalq tibb sferasında** əməkdaşlığın həyata keçirilməsi kontekstində mühüm əhəmiyyət kəsb edir. Bu o deməkdir ki, qarşılıqlı fayda prinsipi beynəlxalq tibb fəaliyyəti sahəsində yaranan münasibətlərin səmərəli şəkildə həyata keçirilməsi işində vacib rol oynayır. Aydın məsələdir ki, dövlətlər arasında beynəlxalq tibb

[1] Bax: Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с. 500.
[2] Bax: Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.446.
[3] Bax: Богуславский М.М. Международное экономическое право. М., 1986, с.101.

münasibətlərinin hərtərəfli inkişafı yalnız qarşılıqlı fayda əsasında mümkün ola bilər; xüsusən də beynəlxalq tibb fəaliyyəti sahəsində əməkdaşlıq münasibətləri qarşılıqlı faydalı olmalıdır. Göstərilən arqumentlər əsas verir ki, qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn **xüsusi prinsipi** statusunda nəzərdən keçirilsin. Belə ki, bir sıra hüquqşünas alimlər (məsələn, Q.M.Velyaminov [1], V.M.Şumilov [2], Ə.İ.Sadıqov [3] və b.) sözügedən prinsipi məhz beynəlxalq hüququn xüsusi prinsipi kimi tanıyırlar. Beynəlxalq publik hüquqa dair ədəbiyyat səhifələrində də bu cür yanaşmaya rast gəlinir (məsələn, L.P.Anufriyeva, K.A.Bekyaşev, E.Ə.Əliyev, F.E.Hüseynova və b.).[4] Zənnimizcə, qarşılıqlı fayda prinsipinin tibb fəaliyyətinin həyata keçirilməsi üzrə bağlanan müxtəlif növ müqavilələrdə nəzərə alınması, yəni müqavilə mətninə daxil edilməsi məqsədəuyğundur.

Beləliklə, qeyd edə bilərik ki, **tibb münasibətlərində qarşılıqlı fayda prinsipinə** görə, beynəlxalq tibb münasibətlərinin, xüsusən də özəl tibb fəaliyyətinin həyata keçirilməsi nəticəsində əldə edilmiş iqtisadi nəticələr (mənfəət, gəlir, xeyir, qazanc və s.) həmin münasibətlərin iştirakçısı olan subyektlər arasında ədalətli şəkildə bölüşdürülür.

Sözügedən qarşılıqlı fayda prinsipi öz **normativ ifadəsini** aşağıda göstərilən mənbələrdə, bir sıra sənədlərdə tapmışdır:

- Beynəlxalq ticarətin Prinsipləri (1964-cü il);
- Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiya (1974-cü il);
- Helsinki Yekun Aktı (1975-ci il) və sairə.

Tibb fəaliyyəti sferasında qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn aşağıda göstərilən **iki əsas prinsipi** kontekstində təzahür edir: dövlətlərin suveren bərabərliyi prinsipi və dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipi.

Əvvəllərdə qeyd etdiyimiz kimi, **dövlətlərin suveren bərabərliyi prinsipinə** əsasən, dövlətlər arasında münasibətlər (o cümlədən tibb fəaliyyəti sahəsində

[1] Вельяминов Г.М. Международное экономическое право и процесс. Учебник. М., 2004, с.109.
[2] Шумилов В.М. Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, с.171.
[3] Садигов Я.И. Бейнялхалг игтисади щцгуг. Дярслик. Бакы, 2008, с.95.
[4] Международное публичное право / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.512; Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə.II cild.Xüsusi hissə. Bakı, 2018, s.471.

yaranan münasibətlər) nəinki hüquqi cəhətdən bərabər olmalıdır, bu münasibətlər həmçinin qarşılıqlı faydaya əsaslanmalıdır. Sözügedən münasibətlərin qarşılıqlı faydalı olması dedikdə, həmin münasibətlərin, faktiki cəhətdən (de-fakto) bərabərlik anlayışına cavab verməsi başa düşülür.[1] Təsadüfi deyil ki, hüquq ədəbiyyatında qarşılıqlı fayda prinsipi dövlətlərin suveren bərabərliyi prinsipinin tərkib hissəsinə daxil edilir.[2]

Tibb fəaliyyəti sferasında **dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi prinsipinə** görə, beynəlxalq tibb münasibətləri yalnız qarşılıqlı fayda əsasında həyata keçirilə və inkişaf etdirilə bilər. Belə ki, qarşılıqlı fayda olmadan beynəlxalq tibb fəaliyyəti sahəsində həyata keçirilən əməkdaşlığın heç bir mənası yoxdur. Buna görə də, beynəlxalq tibb fəaliyyəti sahəsində əməkdaşlığın mövcud olduğu bütün hallarda mütləq şəkildə qarşılıqlı fayda da olmalıdır.

Göründüyü kimi, tibb fəaliyyəti sahəsində tətbiq edilən qarşılıqlı fayda prinsipi beynəlxalq hüququn göstərilən iki əsas prinsipindən irəli gəldiyi üçün **məcburi hüquqi qüvvəyə** malikdir. Ona görə də, məcburi hüquqi qüvvə ilə təmin edilməsi məqsədilə adıçəkilən prinsipin beynəlxalq tibb müqavilələrində təsbit olunmasına zərurət yaranmır. Belə yanaşma onu ifadə edir ki, qarşılıqlı fayda prinsipi BTH-nin konvension (müqavilə) prinsipi deyil, qeyri-konvension prinsipi sayılır.

4.2.5.Tibb fəaliyyəti sferasında preferensiya rejimi prinsipi

Hər şeydən əvvəl, qeyd etməliyik ki, tibb fəaliyyəti sahəsində dövlətlər arasında yaranan qarşılıqlı münasibətlər müvafiq **hüquqi rejim** ilə nizama salınır. Hüquqi rejim isə konkret dövlətə, onun fiziki və hüquqi şəxslərinə münasibətdə tətbiq edilir.

Beynəlxalq tibb fəaliyyəti sferasında əməkdaşlıq bu və ya digər hüquqi rejim əsasında həyata keçirilir. Buna görə də, hüquqi rejim tibb fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlığın **realizasiya vasitəsi** kimi çıxış edir.

---

[1] Bu barədə ətraflı bax: Курс международного права. Том 2 / Отв. ред. Г.И.Тункин. М., 1967, с.106.
[2] Bax:Шумилов В.М. Международное экономическое право.Учебник. Ростов-на-Дону, 2003, с.163.

Beynəlxalq hüquq elmində hüquqi rejimin aşağıda göstərilən **üç əsas növü** fərqləndirilir: [1] milli rejim, ən əlverişli şərait yaratmaq rejimi və preferensiya rejimi.

Adıçəkilən rejimlər beynəlxalq hüququn **üç xüsusi prinsipi** ilə əlaqəli olmaqla, bilavasitə həmin prinsiplərə söykənir. Burada söhbət milli rejim, ən əlverişli şərait yaratmaq rejimi və preferensiya rejimi prinsiplərindən gedir.

Hüquqi rejimin göstərilən hər üç əsas növü **konvension (müqavilə) rejimi** sayılır. Bu səbəbdən də, onların əsaslandığı prinsiplər, mahiyyət etibarilə, konvension prinsiplər (müqavilə prinsipləri) kimi tanınır. Deməli, tibb fəaliyyəti sferasında preferensiya rejimi prinsipi BTH-nin konvension prinsipləri sırasına daxildir. Buna görə, həmin prinsip də, digər konvension prinsiplər kimi, **ümumtətbiqedilmə xüsusiyyətindən** məhrumdur. Aydın məsələdir ki, sözügedən prinsip yalnız beynəlxalq müqavilədə nəzərdə tutulduğu halda tətbiq edilə bilər. Zənnimizcə, tibb fəaliyyəti sferasında buraya tibbi avadanlıqlardan güzəştli şərtlərlə istifadə, innovativ tibbi texnologiyalardan əlverişli istifadə və s. hallar da aid edilə bilər.

Preferensiya rejimi prinsipinin **mahiyyəti** preferensiya hüquqi rejiminin müəyyənləşdirilməsindən ibarətdir. Beynəlxalq hüquqda preferensiya rejimi dedikdə müəyyən bir dövlətin başqa dövlətə və ya dövlətlərə **xüsusi üstünlük verməsi** başa düşülür,[2] o cümlədən tibb fəaliyyəti sferasında. Xüsusi üstünlük verməsi isə tibb fəaliyyəti sahəsində, gömrük və vergi ödənişləri, eləcə də digər sferalarda xüsusi hüquqla təmin etmədə, hər hansı güzəşt və imtiyazların müəyyənləşdirilməsində ifadə oluna bilər.

Tibb fəaliyyəti sferasında preferensiya rejimi prinsipinə görə, dövlət tibb fəaliyyətinin həyata keçirilməsi sahəsində viza, sərhəd-keçid, ticarət (import, eksport), vergi, gömrük ödənişləri və digər istiqamətlərdə başqa dövlətə və ya dövlətlər qrupuna xüsusi üstünlük verir.

[1] Bununla yanaşı, beynəlxalq hüquq ədəbiyyatında xüsusi rejim də fərqləndirilir (məsələn, bax: Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.689) .
[2] Международное право. Учебник /Под общ. ред. А.Я.Капустина. М., 2008, с.501.

Xüsusi üstünlük, adətən, **bir dövlətə** verilir. Eyni zamanda, xüsusi üstünlük müəyyən **dövlətlər qrupu** üçün də müəyyənləşdirilə bilər: "Ümumi Bazar" ölkələri, zəif inkişaf etmiş ölkələr, iqtisadi zona və gömrük ittifaqları ölkələri və s. Həmçinin **qarşılıqlı üstünlük** verilməsi halları beynəlxalq iqtisadi inteqrasiya birlikləri çərçivəsində dövlətlər arasında yaranan münasibətlərdə də müşahidə edilir. Belə ki, bu cür birliklərin üzvləri olan dövlətlər qarşılıqlı üstünlüklərdən istifadə edirlər. Eyni zamanda, qeyd etməliyik ki, xüsusi üstünlük, əsasən və başlıca olaraq, inkişaf etməkdə olan ölkələr üçün daha çox müəyyənləşdirilir ki, bunun da nəticəsində beynəlxalq tibb münasibətlərində faktiki (de-fakto) **bərabərlik** təmin edilir.

Ümumiyyətlə, qeyd etməliyik ki, preferensiya rejimi prinsiplərinin tətbiq olunması haqqında müddəalar bəzi **beynəlxalq sənədlərdə** (məsələn, Beynəlxalq ticarətin Prinsipləri, TTBS, XTBS və s.) öz əksini tapmışdır, eləcə də müasir beynəlxalq tibb qanunvericilik aktlarında bu məsələyə toxunulması aktual görünür.

4.3.Beynəlxalq tibb hüququnun digər özünəməxsus prinsipləri

4.3.1.Beynəlxalq tibb hüququnun elmi-kommunikativ prinsipləri

Qeyd etməliyik ki, beynəlxalq tibb fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan münasibətlərin tənzimlənməsində BTH-nin yuxarıda göstərdiyimiz prinsipləri ilə yanaşı, onun özünəməxsus **unifikasiya prinsipi**, **diversifikasiya prinsipi** və **texnolojiləşdirmə prinsipi** mühüm əhəmiyyət kəsb edir. Sözügedən prinsiplərin təşəkkül tapması və formalaşması beynəlxalq tibb hüququnun müasir inkişaf tarixini dövrünə təsadüf edir. Belə ki, müasir dövrdə dünyada beynəlxalq tibb fəaliyyətinin təşkil olunması, əlaqələndirilməsi, idarə edilməsi və həyata keçirilməsi proseslərində elmi-texniki nailiyyətlərin, innovativ vasitələrin, eləcə də reproduktiv texnologiyaların, transplantologiya və nanotexnologiyaların, informasiya-kommunikasiya texnologiyaları vasitələrinin tətbiqi geniş vüsət almışdır. Göstərilən prinsipləri hüquqi kontekstdə modelləşdirərək, **elmi-kommunikativ prinsiplər** kimi ifadə etmək daha uğurlu variantdır. Məlumat üçün qeyd edək ki, kommunikativ termini kommunikasiya sözündən törəmişdir. Kommunikasiya anlayışının məna yükü isə iki və ya daha çox subyekt arasında informasiya mübadiləsi prosesini ehtiva edir. Kommunikasiyanın funksional rolu

ondan ibarətdir ki, o, daxili mühit sisteminin normal fəaliyyətini təmin etməklə yanaşı, həm də xarici mühitlə qarşılıqlı əlaqə yaradılmasını təmin edir.[1] Bununla bağlı yaranan ictimai münasibətləri tənzimləyən **kommunikasiya hüququ** adlı qurum artıq müasir dövrdə elmi dövriyyədə işlədilən anlayışlardan biridir.[2]

